Xalqın qəzeti!
# Xalq qəzeti
№ 115 (30809) 4 iyun 2025-ci il, çərşənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan paytaxtı qlobal enerji müzakirələri mərkəzinə çevrilib

### *Bakı Enerji Forumu: Müzakirə və mübadilə platforması*



**Dünən Bakı Konqres Mərkəzində 30-cu Bakı Enerji Forumu öz işinə başlayıb. Dünya ölkələrinin energetika nazirlərini, dövlət qurumlarının və biznes strukturlarının nümayəndələrini, tanınmış ekspertləri, enerji sektorunda fəaliyyət göstərən şirkət təmsilçilərini bir araya gətirən bu mötəbər toplantı beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, qabaqcıl təcrübələr mübadiləsi, eləcə də regionun enerji sektorunun inkişafına təsir göstərən yeni sazişlərin imzalanması üçün əsas platformaya çevrilib.**

*(ardı 9-cu səhifədə)*

## Gəncə hadisələri lidersizliyin, dərəbəyliyin faciəsi idi



səhifə ⇨ 6

## Fransa, qan tökdüyün əraziləri tərk et!



səhifə ⇨ 5

## Azərbaycan imperializmə və müstəmləkəçiliyə qarşı

### *Bakıdan dünyaya hansı mühüm mesajlar verilir?*

**Dünən paytaxtımızda "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Elmi konfransda BMT-nin dekolonizasiya sahəsi üzrə təcrübəli ekspertləri, Fransanın keçmiş və hazırkı müstəmləkələrində fəaliyyət göstərən tanınmış alimlər, beynəlxalq hüquq sahəsində nüfuzlu mütəxəssislər, xarici ölkələrin Azərbaycanda akkreditə olunan səfirləri iştirak ediblər.**




Tədbirdə müstəmləkəçilik siyasətinin ağır fəsadları, kolonial dövlətlərin əsarət altında saxladıqları xalqlara münasibətdə həyata keçirdikləri siyasət, tətbiq olunan ayrı-seçkilik metodları, habelə neokolonializmin tərkib hissəsi olaraq tətbiq edilən siyasi, iqtisadi və mədəni məhdudiyyətlər, milli kimliyin məqsədli şəkildə itirilməsi siyasəti elmi və metodoloji yanaşmalar əsasında təhlil edilib.

Konfransın təşkilatçısı olan Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasovun da bildirdiyi kimi, konfrans müstəmləkəçiliyin acınacaqlı vəziyyətinə elmi yanaşmanın ortaya qoyulması və problemin beynəlxalq təşkilatlar prizmasından dəyərləndirilməsi baxımından əhəmiyyət daşıyır:

*(ardı 5-ci səhifədə)*

## Paşinyan II Qaregini rüsvay edir

### *Ermənistanda hakimiyyət–kilsə mübarizəsi dramatizmi*




**Deyəsən, bu xəmir hələ çox su aparacaq. Söhbət Ermənistandakı dövlət-kilsə qarşıdurmasından gedir. Əslində, durumu iqtidar-ruhanilik ziddiyyətləri kimi də qiymətləndirmək mümkündür. Hər halda, mahiyyət ondan ibarətdir ki, baş nazir Nikol Paşinyan administrasiyası çoxdan sıradan çıxarmaq istədiyi II Qaregini — Erməni Apostol Kilsəsinin rəhbəri, bütün ermənilərin katolikosu kimi tanınan şəxsi hədəfə alıb. Bunu Nikolun sonuncu "Facebook" paylaşımı da təsdiqləyir. Baş nazir həmin paylaşımda hansı məqama diqqət çəkib — bu barədə danışacağıq. Hələlik isə...**

*(ardı 7-ci səhifədə)*

## Ərdoğan İstanbulu dünyanın sülh mərkəzinə çevirmək istəyir



səhifə ⇨ 11

## "Şəfəq" GES Səngəçal terminalına "yaşıl" enerji ötürəcək



səhifə ⇨ 9

## Ermənistan konstitusiyası sülhün buxovuna çevrilib



səhifə ⇨ 7

Xalq qəzeti

# Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri cənab Kasım-Jomart Tokayevə

**Hörmətli Kasım-Jomart Kemeleviç,**

"Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin imzalanmasının 20 illiyi münasibətilə mənə ünvanladığınız təbrik məktubunuza görə Sizə təşəkkür edirəm. Mən də öz növbəmdə bu əlamətdar ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Sizinlə tam razıyam ki, bu mühüm sənəd Azərbaycan-Qazaxıstan əlaqələrinin tarixində yeni səhifə açaraq əməkdaşlığımızı daha da möhkəmləndirmişdir.

Dövlətlərarası əlaqələrimizin strateji mahiyyətini özündə əyani şəkildə əks etdirən bu tarixi sənəd bütün səviyyələrdə fəal siyasi dialoqun inkişafına, iqtisadi, ticari, humanitar və digər sahələrdə səmərəli tərəfdaşlığın genişləndirilməsinə əlverişli zəmin yaratmışdır.

Qardaş ölkə və etibarlı strateji tərəfdaşımız olan Qazaxıstanla əlaqələrimizin hazırkı səviyyəsi məmnunluq doğurur. İkitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi gündən-günə genişlənir və yeni məzmunla zənginləşir. Eyni zamanda ikitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində ölkələrimizin birgə fəaliyyəti və beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyi təqdirəlayiqdir.

İnanıram ki, xalqlarımızın qardaşlığı, ortaq tarixi-mədəni kökləri, mənəvi dəyərləri kimi sağlam təməllər üzərində qurulmuş Azərbaycan-Qazaxıstan ənənəvi dostluq əlaqələri və strateji tərəfdaşlığı xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Hörmətli Kasım-Jomart Kemeleviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qazaxıstan xalqının rifahı və firavanlığı naminə məsul və şərəfli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyun 2025-ci il**

# Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

hərbi məhkəmələr üzrə:

Füzuli Hərbi Məhkəməsi

Quliyev Seymur Səhyəddin **oğlu**

Tərtər Hərbi Məhkəməsi

Şəfiyeva Könül Səməd qızı

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:

Naxçıvan Şəhər Məhkəməsi

Heydarov Aslan Nazim oğlu

Şərur Rayon Məhkəməsi

Zeynalov İlkin Cəlal oğlu

Bakı şəhərinin rayon məhkəmələri üzrə:

Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi

Rzayev Anar Nurəddin oğlu

Bakı şəhəri Xətai Rayon Məhkəməsi

Nağıyev Vüqar Güloğlan oğlu

Bakı şəhəri Xəzər Rayon Məhkəməsi

**Əsgərov** Natiq Fərhad oğlu

Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi

Fətəliyev Emin Mirzə oğlu

**Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi**

Babayev Kamal Yunis oğlu

Musayev Tural Səmid **oğlu**

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi

Fərəcova Gülşən Sabit qızı

**Bakı şəhəri Səbail Rayon Məhkəməsi**

Bağırova Sahilə Hümbət qızı

Quliyeva Afət Xansıvar **qızı**

rayon (şəhər) məhkəmələri üzrə:

Ağdaş Rayon Məhkəməsi

Ələkbərova Fidan Vaqif qızı

Beyləqan Rayon Məhkəməsi

Səfərov Səbuhi **Əlifağa oğlu**

Cəlilabad Rayon Məhkəməsi

Mehrəliyeva Ləman Həmzağa **qızı**

**Gəncə Şəhər Məhkəməsi**

Dəmirli Orxan Əhməd oğlu

Həsənli Məhəmməd Vahid oğlu

Məmmədov Elçin Umud oğlu

Göygöl Rayon Məhkəməsi

Hüseynzadə Leyla Vəliyyəddin **qızı**

İmişli Rayon Məhkəməsi

Ağayeva Gülsaba Xeyrulla qızı

İsmayıllı Rayon Məhkəməsi

Qoşqarova Nərmin Rabit **qızı**

**Quba Rayon Məhkəməsi**

Xəlilova Nigar Nemət qızı

Kamilli Günel Hakim qızı

Mingəçevir Şəhər Məhkəməsi

Hüseynli Tural Mirbahəddin **oğlu**

Neftçala Rayon Məhkəməsi

Qasımzadə Ləman Fəxrəddin qızı

Sabirabad Rayon Məhkəməsi

Cəfərov Cavid Zahid oğlu

**Salyan Rayon Məhkəməsi**

Alıyev **Rüstəm Böyükağa oğlu**

Kələntərov **Şahəddin** Əhməd oğlu

Sumqayıt Şəhər Məhkəməsi

İmamverdiyeva Pərvin Arif qızı

Şamaxı Rayon Məhkəməsi

Abasov **Qürur Bəybala oğlu**

Şəki Rayon Məhkəməsi

Cəfərova Şəfəq Natiq qızı

Məmmədova Pərvanə Əziz qızı

Şəmkir Rayon Məhkəməsi

Yusifli Seymur Mübariz oğlu

Tərtər Rayon Məhkəməsi

Məmmədova Maya Vahid qızı

Tovuz Rayon Məhkəməsi

İsaqlı Pərvanə Zakir qızı

Yevlax Rayon Məhkəməsi

Babayeva Aybəniz Elman qızı

Zərdab Rayon Məhkəməsi

Abbasov Cavid Mehman oğlu.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

Abil Elmar oğlu Orucəliyev Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Şərur Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Hafiz Samir oğlu Əliyev Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Goranboy Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Roman Nəriman oğlu Ələkbərli Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Hafiz Eldar oğlu Kamranov Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Elmin İltizam oğlu Rüstəmov Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Vüqar Mircuma oğlu Seyidov Quba Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Zaur Arif oğlu Hacıyev Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

Bilal Mahir oğlu Məmmədov Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

Anar Zahid oğlu Rzayev Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

Günel Kamil qızı Səmədova Bakı şəhəri Səbail Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

Günel Cəbrayıl qızı Tanrıverdiyeva Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

Etibar Mustafa oğlu Mustafayev Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Şəki İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

Pərviz Mirsiyaf oğlu Zamanlı Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

Toğrul Məhəmməd oğlu Məmmədov Goranboy Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Emin Tahir oğlu Axundov Gəncə İnzibati Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Müseyib Seyfəddin oğlu Bayramov Kürdəmir Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Vüsal Rafiq oğlu Qurbanov Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi təyin edilsin;

İlqar Məsail oğlu Quliyev Tərtər Hərbi Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Şəmkir Rayon Məhkəməsinin hakimi təyin edilsin.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 iyun 2025-ci il**

# Qaraməryəm–İsmayıllı–Şəki magistralını Oğuz rayonunun Calut, Mollalı, Yemişanlı, Dəymədərə, Tərkeş və Dəymədağlı kəndləri ilə birləşdirən avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qaraməryəm–İsmayıllı–Şəki magistralını dörd min nəfər əhalinin yaşadığı Calut, Mollalı, Yemişanlı, Dəymədərə, Tərkeş və Dəymədağlı kəndləri ilə birləşdirən avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yollarının əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 iyun 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizi səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu bildirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan Hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi diləyirəm.

Zati-alinizə ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Mansur bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident işləri naziri***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün ildönümü münasibətilə Sizə və xalqınıza Qətər Dövlətinin xalqı adından və şəxsən öz adımdan səmimi salamlarımızı və təbriklərimizi çatdırıram.

Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına daha da çox firavanlıq və tərəqqi diləyirəm.

Həmçinin ölkələrimiz arasında mövcud olan sıx münasibətlərin qarşıdakı illərdə möhkəmlənməkdə davam etməsini arzulayıram.

**Dərin hörmətlə,**

***Şeyx Təmim bin Həməd Al TANİ,***
***Qətər Dövlətinin Əmiri***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Sinqapur xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə xoş arzularımı bildirir, ölkənizə və xalqınıza davamlı sülh, tərəqqi və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***Tarman ŞANMUQARATNAM,***
***Sinqapur Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə Venesuela Bolivar Respublikasının xalqı və hökuməti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırmaqdan böyük şərəf duyuram.

Venesuela Hökuməti bu mühüm tarixdə hər iki ölkə arasında dostluq əlaqələrini dərinləşdirmək və ümumi fayda ilə nəticələnən birgə layihələr həyata keçirmək üçün Azərbaycan Hökuməti ilə həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə yaratdığımız əməkdaşlıq mexanizmlərini möhkəmləndirməyə hazır olduğunu bir daha bəyan edir.

Zati-aliləri, xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edin.

***Nikolas Maduro MOROS,***
***Venesuela Bolivar Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Gününün ildönümü münasibətilə Sizi və Azərbaycan xalqını bütün kanadalılar adından təbrik edirəm.

Kanada və Azərbaycan dövrümüzün ən aktual problemlərinin həllinə sadiqliyimizlə möhkəmlənmiş yaxşı ikitərəfli əlaqələrə malikdir. Kanada Azərbaycanla əlaqələrini, eləcə də fəal Azərbaycan-Kanada icması tərəfindən qurulan xalqlararası münasibətləri möhkəmləndirmək niyyətindədir. Ölkəmiz Cənubi Qafqazda davamlı sülhün əldə olunacağına ümid edir və bu ümumi prioritet üzrə irəliləyişi təşviq etməyə sadiqdir.

Kanada, həmçinin hamımız üçün daha parlaq gələcək istiqamətində fəaliyyətimizə imkan verən ümumi dəyərlərə - demokratiyaya, qanunun aliliyinə hörmətə və insan hüquqlarının qorunmasına əsaslanan əməkdaşlığı inkişaf etdirməkdə davam edəcəkdir.

Sizə və Azərbaycan xalqına ən xoş arzularımı bildirirəm.

**Hörmətlə,**

***Meri SAYMON,***
***Kanadanın General-Qubernatoru***

*

**Zati-aliləri!**

Azərbaycanın milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Sizə səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Zati-alinizə cansağlığı və səadət, qardaş ölkənizə və onun xalqına isə daha da çox tərəqqi və rifah arzu edirəm.

**Dərin hörmətlə,**

***Şeyx Abdullah bin Həməd Al TANİ,***
***Qətər Dövləti Əmirinin müavini***

**Möhtərəm cənab Prezident!**

Ölkənizin milli bayramı – 28 May - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunam.

Zati-alinizə möhkəm cansağlığı, səadət, dost Azərbaycan Respublikasının Hökumətinə və xalqına tərəqqi və rifah arzulayıram.

Xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edəsiniz.

***Şeyx Məhəmməd bin Rəşid Al MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın Əmiri***

*

**Möhtərəm cənab Prezident!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan Hökumətinə və dost Azərbaycan xalqına firavanlıq və tərəqqi diləyirəm.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Məhəmməd bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

*

**Hörmətli cənab Prezident, əziz dost!**

28 May - Müstəqillik Günü münasibətilə Sizə, ailənizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

İsrail və Azərbaycan arasındakı münasibətlər dərin tarixi kökə malikdir və ortaq dəyərlərimiz, xalqlarımız arasında möhkəm dostluq münasibətləri ilə daha da möhkəmlənib. Bu illər ərzində biz hökumətlərimiz və xalqlarımız arasında qarşılıqlı etimada, xoş niyyətə və həqiqi hörmətə əsaslanan tərəfdaşlığı inkişaf etdirmişik.

Mən Azərbaycanın yəhudi icmasına və mədəniyyətinə davamlı dəstəyini, habelə HƏMAS-ın ötən il oktyabrın 7-də hücumundan sonra İsrailə nümayiş etdirdiyi davamlı həmrəyliyi yüksək qiymətləndirirəm. Ölkəniz unudulmayacaq dərəcədə gözəl mərhəmət və dostluq nümunəsi göstərmişdir. Mən, həmçinin Azərbaycanın İsrail və Türkiyə arasında dialoqa təkan verilməsində, regional əməkdaşlığın inkişaf etdirilməsində roluna görə minnətdarlığımı bildirmək istəyirəm.

Sizin rəhbərliyiniz altında Azərbaycan sabitlik və güc amilinə, firavanlıq mayakına və bütün regionda uğurlu iqtisadi inkişaf modelinə çevrilib.

Təəssüf edirəm ki, gözlənilməz vəziyyət səbəbindən iş qrafikimdə dəyişiklik zərurəti yarandı və bu, məni Azərbaycana çoxdan gözlədiyim səfərimi təxirə salmağa məcbur etdi. Bununla belə, mən səmimi şəkildə ümid edirəm ki, bizim ortaq maraqlarımızı və istəklərimizi müzakirə etməyə davam edə bilməyimiz üçün ya İsraildə, ya da Azərbaycanda görüşümüzü Sizə münasib vaxta təyin edəcəyik.

Daha uzun illər üçün firavanlıq, dostluq və uğurlar arzuları ilə,

**Hörmətlə,**

***Benyamin NETANYAHU,***
***İsrail Dövlətinin Baş naziri***

*

**Zati-aliləri cənab Prezident!**

Dost Azərbaycan Respublikasının Müstəqillik Gününün ildönümü münasibətilə Zati-alinizə səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan sevinc duyuruq.

Fürsətdən istifadə edərək, ölkələrimiz və xalqlarımız arasında mövcud olan möhkəm dostluq əlaqələrindən məmnunluğumuzu ifadə edirik.

Sizə uzun ömür, cansağlığı, dost ölkənizə davamlı inkişaf və firavanlıq diləyirik.

**Ən xoş arzularla,**

***Əhməd Abdullah əl-Əhməd əl-SABAH,***
***Küveyt Dövlətinin Baş naziri***

*

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Gününün 107-ci ildönümü münasibətilə Yamayka Hökuməti və xalqı adından Azərbaycan Hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırıram.

Yamayka 1995-ci ildə diplomatik əlaqələrin qurulmasından bəri Azərbaycan ilə mövcud olan dostluq münasibətlərini yüksək qiymətləndirir və qarşıdakı illərdə əməkdaşlığı daha da möhkəmləndirməyə ümid edir.

Zati-aliləri, xahiş edirəm, Azərbaycan Hökumətinə və xalqına davamlı sülh və firavanlıq arzularımı qəbul edin.

**Hörmətlə,**

***Endryu HOLNESS,***
***Yamaykanın Baş naziri***

# Parlamentin növbədənkənar sessiyasının ilk iclası




**İyunun 3-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2025-ci ilin növbədənkənar sessiyasında ilk iclası keçirilib.**

Milli Məclisin Sədri iclasda 7 məsələnin müzakirə olunacağını söyləyib. O, gündəliyin birinci məsələsinin "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (birinci oxunuş) olduğunu bildirib.

Hökumət üzvlərinin, Hesablama Palatasının rəhbərliyinin, digər vəzifəli şəxslərin iştirak etdiyi iclasda məsələ barədə məlumatı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov nəzərə çatdırıb. O bildirib ki, "Büdcə sistemi haqqında" Qanuna uyğun olaraq, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi və illik hesabat Prezident İlham Əliyev tərəfindən Milli Məclisin müzakirəsinə təqdim olunub.

Azər Əmiraslanov ötən ilin dövlət büdcəsinin dürüstləşdirilmiş büdcə olduğunu, həm də artan büdcə kimi xarakterizə olunduğunu qeyd edib. O, sosial və investisiyayönümlü xərclərin uzlaşdırılmasının və bir-birini tamamlamasının icra edilmiş büdcənin əsas cəhətlərindən olduğunu, bununla yanaşı, onun dayanıqlıq meyarlarına cavab verdiyini, ötən il cari xərclərin 90,1 faizinin qeyri-neft-qaz sektoru üzrə daxilolmaların hesabına qarşılandığını bildirib.

Komitə sədri 2024-cü ildə dövlət büdcəsinin xərclərinin proqnozun 95 faizi həcmində və ya 37,7 milyard manat icra edildiyini söyləyib.

Büdcə kəsirinin 551,8 milyon manat və ya təsdiq olunmuş proqnozla, yəni, 3,3 milyard manatla müqayisədə 6,1 dəfə az olduğunu deyib. Qeyd edib ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına 5,3 milyard manat vəsait ayrılıb. Həmin vəsaitin 91,1 faizi infrastruktur, 6,6 faizi sosial, 2 faizi minalardan təmizlənmə, 0,3 faizi müdafiə və hüquq-mühafizə təyinatlı layihələrin maliyyələşməsinə yönəldilib.

Sonra iclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinə və Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrasına dair illik hesabata Hesablama Palatasının rəyini diqqətə çatdırıb.

O bildirib ki, 2024-cü ilin dövlət büdcəsi ölkə Prezidenti tərəfindən təsdiq edilmiş 2022–2026-cı illəri əhatə edən ölkə strategiyasının ardıcıl olaraq 3-cü ilinin icrası, o cümlədən işğaldan azad edilmiş torpaqlarda bərpa və yenidənqurma işlərinin aparılması üçün büdcədən vəsaitlərin ayrılması, həmin strategiyanın tələblərinə uyğun olaraq ölkədə dövlət maliyyəsinin idarə edilməsi sahəsində aparılan islahatların ikinci mərhələsinin davam etməsi kimi tədbirlərin icrası ilə müşayiət edilib.

Palata sədri 2024-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi barədə fikirlərini açıqlayaraq bildirib ki, dövlət büdcəsinin gəlirlərinin icrasını təmin edən qurumların təqdim etdiyi hesabatlar əsasında 2024-cü ildə 36,0 milyard manat məbləğində daxilolmalar təhlil edilib ki, bu da dövlət büdcəsinin ümumi gəlirlərinin 96,8 faizinə bərabər olub.

Məsələ ətrafında aparılan müzakirələrdə çıxış edən deputatlar öz fikirlərini bildiriblər, bəzi qeyd və təkliflərini səsləndiriblər. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Sahibə Qafarova gündəliyin növbəti məsələsinin Meşə Məcəlləsində, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "İcra haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu bildirib. O qeyd edib ki, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır və "Normativ hüququ aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək.

İclasda məsələ barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sahibə Qafarova növbəti beş məsələnin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib. Komitə sədri Azər Əmiraslanov Vergi Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini təqdim edib. Komitə sədri Əli Hüseynli Torpaq Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Mülki Məcəllədə, "Notariat haqqında" və "İcra haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rövşən Muradov "Yaşayış minimumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. "Pambıqçılıq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edən Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev diqqətə çatdırıb. "Qiymətli kağızlar bazarı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov təqdim edib. Qanun layihələri səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Bunununla da Milli Məclisin plenar iclası başa çatıb.

**XQ**

# Əli Əsədov Seneqal naziri ilə görüşüb



**Azərbaycanın Baş naziri Əli Əsədov iyunun 3-də Seneqalın dövlət idarəçiliyi və dövlət xidmətlərində islahatlar naziri Olivye Bukal ilə görüşüb.**

Nazirlər Kabinetindən verilən məlumata görə, görüşdə Azərbaycanın Afrika dövlətləri, o cümlədən Seneqal ilə əlaqələrin inkişafına əhəmiyyət verdiyi bildirilib. İki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən əməkdaşlıqdan məmnunluq ifadə olunub.

O.Bukalın səfəri çərçivəsində Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "ASAN xidmət" ilə Seneqalın Dövlət İdarəçiliyi və Dövlət Xidmətlərində İslahatlar Nazirliyi arasında imzalanmış Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb.

Görüşdə Azərbaycan-Seneqal əlaqələrinin müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə olunub.

**XQ**

# "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar"

**Azərbaycanın paytaxtında Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" mövzusunda beynəlxalq elmi konfransın birinci günü yekunlaşıb.**




Tədbir BMT-nin müxtəlif strukturlarında dekolonizasiya sahəsində çalışan, eləcə də bu sahə üzrə ixtisaslaşmış alimlərin ilk beynəlxalq konfransıdır.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov dünyada dekolonizasiya prosesinə dəstək verən qlobal platformaya və kolonializmdən əziyyət çəkən xalqlar üçün ümid mənbəyinə çevrilmiş BTQ-nin təşkilatçılığı ilə keçirilən konfransda müstəmləkəçilik probleminin elmi cəhətdən müzakirə ediləcəyini və onun beynəlxalq təşkilatların prizmasından nəzərdən keçiriləcəyini diqqətə çatdırıb.

A.Abbasov dünyanın bəzi bölgələrində müstəmləkəçiliyin müxtəlif təzahürlərinin şahidi olduğunu qeyd edərək, onların müxtəlif vasitələrlə gizli şəkildə – siyasi, iqtisadi, maliyyə, mədəni və qanunvericilik strukturları vasitəsilə əbədiləşdirilməsinə çalışıldığını bildirib.

Məhz bu kontekstdə BTQ tərəfindən dekolonizasiya səylərinə dəstək göstərmək məqsədilə son iki ildə Qvadelup, Mayot, Kanaki (Yeni Kaledoniya), Fransız Qvianası, Reyunyon, Korsika, Martinik, Mao hi Nui (Fransız Polineziyası) və müstəmləkəçilikdən əziyyət çəkən digər ərazilərə həsr edilmiş konfranslar təşkil olunub.

Kolonializmin bütün müasir təzahürlərinin beynəlxalq hüquqi mexanizmlər, ictimaiyyətin məlumatlılığının artırılması və çoxtərəfli əməkdaşlıq vasitəsilə həll edilməli olduğunu vurğulayan A.Abbasov kolonializmin davam etməsinin BMT Nizamnaməsinə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə və BMT Baş Assambleyasının digər çoxsaylı qətnamələrinə zidd olduğunu vurğulayıb.

Konfrans çərçivəsində "Müstəmləkəçiliyin ideoloji əsasları", "Müqavimət və dekolonizasiya" mövzusunda panel iclaslarında BMT-nin Afrika Əsilli Xalqların Daimi Forumunun (PFPAD) üzvü (Sent-Lüsiya) xanım June Christine Marie Soomer, ABŞ-ı təmsil edən İdarəçilik üzrə beynəlxalq məsləhətçi Carlyle Corbin, PFPAD üzvü, kolumbiyalı pastor Elias Murillo Martinez, Əlcəzair Universitetinin elmi-tədqiqat işləri üzrə rəhbəri professor Çakib Benhafri, Cənub Sakit Okeanı Universitetində baş müəllim Lorenz Rudolf Gonschor, Əlcəzairdən olan elmi tədqiqatçı Hichem Daoud və ADA Universitetinin dosenti Murat Özkale çıxış ediblər.

Natiqlər qeyd ediblər ki, müstəmləkəçilik təkcə siyasi və iqtisadi təzyiq vasitəsi deyil, eyni zamanda, ideoloji əsaslarla bəraət qazandırılmış və uzun müddət davam etdirilmiş idarəetmə sistemidir. Tarix boyu imperiyalar tərəfindən tətbiq edilən müstəmləkəçilik siyasəti, əsasən, üstün irq, sivilizasiyanın yayılması və modernləşmə kimi anlayışlarla əsaslandırılıb.

Elmi konfransda BMT-nin dekolonizasiya sahəsi üzrə təcrübəli ekspertləri, Fransanın keçmiş və hazırkı müstəmləkələrində fəaliyyət göstərən tanınmış alimlər, beynəlxalq hüquq sahəsində tanınmış mütəxəssislər, xarici ölkələrin Azərbaycanda akkreditə olunan səfirləri, eləcə də deputatlar iştirak edirlər.

Konfrans sual-cavab sessiyası ilə davam edib.

**XQ**

# Ölkədə yaşanan siyasi həmrəyliyin təcəssümü

**Siyasi partiya sədrlərinin işğaldan azad olunmuş ərazilərə birgə səfərləri Azərbaycan cəmiyyəti tərəfindən artıq formalaşmış demokratik ənənə kimi qəbul olunur. Prezident İlham Əliyevin təşəbbüsü ilə fəal şəkildə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində siyasi partiya sədrlərinin birgə səfərləri siyasi müstəvidə tərəflər arasında yaşanan etibarlı münasibətlərin göstəricisidir. Odur ki, müsbət ənənəyə çevrilmiş sözügedən səfərlər artıq ölkənin siyasi gündəliyinin ayrılmaz parçasıdır. Təsadüfi deyil ki, milli həmrəylik təzahürü ilə təcəssüm olunan sözügedən demokratik təcrübə ictimaiyyət tərəfindən təqdir olunur və dəstəklənir.**



İyunun 3-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin bölgəyə (daha öncə Ağdam, Şuşa (2 dəfə), Zəngilan, Xocalı, Əsgəran, Xankəndi və Laçın) növbəti birgə səfəri təşkil edilib.

Budəfəki birgə səfərin ünvanı Cəbrayıl və Zəngilandır. Səfərdə ümumilikdə 70 nəfərdən artıq şəxs iştirak edib. 24 siyasi partiyanın sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlərin iştirakı ilə keçirilmiş səfərin proqramı kifayət qədər zəngin və maraqlı olub.

Səfər çərçivəsində iştirakçılara Horadiz şəhərinin yaxınlığında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən aparılan minatəmizləmə fəaliyyəti barədə geniş məlumat verilib və düşmən tərəfindən basdırılmış minaların zərərsizləşdirilməsi prosesini izləmək imkanı yaradılıb.

Daha sonra səfər iştirakçıları üçün Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi tərəfindən Cəbrayıl şəhərinin giriş hissəsində işğal zamanı düşmənin dağıtdığı evlərin qalıqları, Cəbrayıl şəhər yaşayış kompleksi və Mehdi Mehdizadə adına tam orta məktəb ilə tanışlıq, həmçinin şəhərin baş planının təqdimatı keçirilib.

Səfər çərçivəsində iştirakçılar Cəbrayılda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı haqqında geniş məlumat əldə ediblər. Daha sonra qonaqlar üçün Zəngilanın Məmmədbəyli kəndi, Zəngilan şəhər məscidi, Zəngilan Konqres Mərkəzi, 104 mənzilli yaşayış kompleksi və Oxçuçay üzərində yerləşən "Zəngilan" SES-ə ekskursiyalar təşkil olunub.

Siyasi partiya sədrləri ilə birgə səfərdə iştirak edən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev siyasilərin qarşısında çıxış edərək, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində ötən dövr ərzində görülmüş işlər haqqında geniş məlumat verib. Sağlam əməkdaşlığın və həmrəylik mühitinin siyasi sabitliyin və demokratik münasibətlərin əsas və prinsipial göstəricilərindən olduğunu vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, mövcud istiqamətdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən nümayiş olunan siyasi iradə əldə olunmuş bütün uğurların əsasını təşkil edir, həmçinin 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə Azərbaycan xalqının əzmkarlığı ilə yanaşı, cəmiyyətimizdə yaşanan milli həmrəyliyi və birliyi təcəssüm etdirir.

Cəbrayıl və Zəngilanın timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan genişmiqyaslı işlərin Azərbaycan dövlətinin iqtisadi qüdrətinin nümayişi olduğunu bildirən Ədalət Vəliyev qeyd edib ki, bir müddət sonra Qarabağ dünyanın ən füsunkar ünvanlarından biri olacaq. Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş Böyük Qayıdış Proqramı bu cür nəticələrin əldə olunması üçün müstəsna zəmin yaradır.

Səfər iştirakçılarına bildirilib ki, bölgənin turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.

**XQ**



# İtkin-şəhid dəfn olunub

**Birinci Qarabağ müharibəsinin daha bir itkin-şəhidi Sahil Nurəddin oğlu İbrahimov iyunun 3-də paytaxtın Suraxanı rayonunun Əmircan qəsəbəsində yerləşən qəbiristanlıqda dəfn olunub.**



Mərasimində şəhidin ailə üzvləri, doğmaları, Müdafiə və Daxili İşlər nazirliklərinin əməkdaşları, rayon icra hakimiyyətinin nümayəndələri, şəhid ailələri, müharibə iştirakçıları və sakinlər iştirak ediblər.

Əvvəlcə şəhid üçün cənazə namazı qılınıb. Sonra itkin-şəhidin nəşinin qalıqları yaylım atəşi, hərbi orkestrin müşayiəti ilə Dövlət Himnimizin sədaları və "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı altında torpağa tapşırılıb. Şəhidin ruhuna dualar oxunub, məzarının üzərinə əklillər qoyulub, gül dəstələri düzülüb.

Qeyd edək ki, 1970-ci il iyulun 23-də Ermənistanın Amasya rayonunun Çivinli kəndində anadan olan Sahil İbrahimov 1993-cü il fevralın 9-da Ağdərə rayonunun Mehmanə kəndi istiqamətində gedən döyüşlərdə itkin düşmüşdü.

**XQ**

# Laçında “MDB-nin mədəniyyət paytaxtı – 2025” ilinin açılışı

**Azərbaycan Mədəniyyət Nazirliyi və Laçın rayonunda Prezidentin xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə iyunun 3-də Laçın şəhərində “MDB-nin mədəniyyət paytaxtı – 2025” ilinin rəsmi açılış mərasimi keçirilib.**




Açılışda rəsmi şəxslər, tanınmış elm və mədəniyyət xadimləri, beynəlxalq ekspertlər eləcə də yerli və xarici media nümayəndələri iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli çıxışında MDB Humanitar Əməkdaşlıq Şurasının 2024-cü ilin 8 oktyabr tarixli qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhərinin 2025-ci ildə “MDB-nin mədəniyyət paytaxtı” elan olunduğunu bildirib.

Onun sözlərinə görə, Laçın şəhərinin “MDB-nin mədəniyyət paytaxtı” elan edilməsi şəhərin mədəni dirçəlişi və beynəlxalq əməkdaşlıq sisteminə fəal inteqrasiyası üçün mühüm təkan olacaq. "2020-ci ildə ərazilərimizin işğaldan azad olunmasından sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə bu torpaqlarda genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Azad olunmuş ərazilərin bərpa konsepsiyası yalnız infrastrukturun və abidələrin fiziki yenidən qurulmasını deyil, həm də mədəni həyatın dirçəlişini nəzərdə tutur", - deyə A.Kərimli diqqətə çatdırıb.

MDB Baş katibinin müavini Nurlan Seytimov Laçında keçirilən tədbirin əhəmiyyətini vurğulayıb. O bildirib ki, Laçının “MDB-nin mədəniyyət paytaxtı” elan olunması təkcə Azərbaycan üçün deyil, bütün region üçün mühüm hadisədir. Bu təşəbbüs mədəni əməkdaşlığın genişlənməsinə, həmçinin azad edilmiş ərazilərin dirçəlişinə töhfə verəcək.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu qeyd edib ki, bu gün biz Laçının Müstəqil Dövlətlər Birliyinin mədəniyyət paytaxtı kimi yüksək status almasının sevincini yaşayırıq. Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy bildirib ki, bu gün bir çox mədəniyyət xadimləri buradadır və bu da Laçının Azərbaycanın mədəniyyət mərkəzinə çevrilməsinin bariz nümunəsidir.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov deyib ki, işğal illərində Laçında və digər ərazilərimizdə tarixi abidələrimizə qarşı vandallıq aktı törədilib. O qeyd edib ki, 217 mədəniyyət, 101 təhsil və 142 tibb müəssisəsi, 462 ticarət obyekti, 30 rabitə və bir çox sənaye obyektləri məhv edilib. 54 dünya əhəmiyyətli tarixi abidə və 200 yerli əhəmiyyətə malik abidəyə xeyli ziyan dəyib.

Çıxışlardan sonra Mixail Şvıdkoy tərəfindən Məsim Məmmədova “Birliyin mədəniyyət paytaxtı” sertifikatı təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib.

**Xuntaçıların məhkəməsi**

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin ifadələri dinlənilib

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi iyunun 3-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

İclasın əvvəlində təqsirləndirilən Ruben Vardanyan məhkəməyə müraciət edərək təqsirləndirildiyi cinayət işi üzrə ittiham aktının surətinin ailəsinə təqdim olunmasını xahiş edib.

R.Vardanyanın vəkili Avraam Berman onun mövqeyini müdafiə edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətə münasibət bildirərək deyib ki, Cinayət Prosessual Məcəlləsinə əsasən, cinayət təqibi zamanı ibtidai araşdırma məlumatları, o cümlədən cinayət işi materialları və ittiham aktında qeyd olunanlar istintaq sirrini təşkil etdiyindən yayılması yolverilməzdir. Həmçinin ittiham aktında cinayət prosesi iştirakçılarının şəxsi və ailə sirrini təşkil edən məlumatlar var ki, bu məlumatların da yayılması qanunvericiliklə yolverilməz hesab edilir.

Bundan başqa vurğulanıb ki, Cinayət-Prosessual Məcəlləsində ittiham aktının və onun surətinin verilməsi mümkün olan şəxslərin siyahısı konkret göstərilib və təqsirləndirilən şəxsin ailə üzvləri həmin siyahıya daxil deyil.

Qeyd edilənləri əsas gətirən ittiham tərəfi vəsatətin təmin olunmamasını xahiş edib.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər dövlət ittihamını müdafiə edən prokurorların mövqeyi ilə razı olduqlarını bildiriblər.

Ardınca hakimlər kollegiyası yerində müşavirə edərək vəsatətin təmin olunmaması barədə qərar qəbul edib.

Zeynal Ağayev qərarı əsaslandıran zaman bildirib ki, cinayət prosessual qanunvericilikdə ittiham aktının surətinin təqdim olunması nəzərdə tutulan şəxslər konkret göstərilib və təqsirləndirilən şəxsin ailə üzvləri buraya daxil deyil.

Bundan sonra təqsirləndirilən şəxs Ruben Vardanyan müraciət edərək onun ailə üzvlərinə ittiham aktı təqdim edilmədiyi və əvvəlki proseslərdə verdiyi vəsatətlərin təmin olunmadığı üçün işə baxan hakimlər kollegiyasına etiraz etdiyini bildirib. Təqsirləndirilən şəxsin müdafiəçisi Avraam Berman etirazı müdafiə edib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli etiraza münasibət bildirərək Ruben Vardanyanın Cinayət-Prosessual Məcəlləsinin 109-cu maddəsində nəzərdə tutulmuş hakimə etiraza dair halların müəyyən edilmədiyini, o cümlədən işə baxan məhkəmə kollegiyasının cinayət təqibində maraqlı olmasını təsdiqləyən konkret sübutlar təqdim etmədiyini bildirərək etirazın baxılmamış saxlanılmasını xahiş edib.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər etirazın təmin olunmamasını məhkəmədən xahiş ediblər. Məhkəmə vəsatətə baxmaq üçün müşavirəyə gedib. Müşavirədən sonra müdafiə tərəfinin etirazına dair məhkəmə qərarı elan edilib. Qərara əsasən, etiraz baxılmamış saxlanılıb.

Hakim Zeynal Ağayev qərarı əsaslandıran zaman bildirib ki, müdafiə tərəfi Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olması barədə konkret və mötəbər dəlillər təqdim etməyib, məhkəmənin obyektivliyi və qərəzsizliyinə təsir göstərən dair hallar müəyyən edilməyib.

Daha sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş şəxs Əhməd Əhmədov ifadəsində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində güllə yarası aldığını deyib.

Zərərçəkmiş Bəhruz Bayramlı Ağdərədə düşmən tərəfindən atılmış top mərmisinin partlaması nəticəsində xəsarət aldığını bildirib.

Oruc Hüseynov ifadəsində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən minaatan mərmisinin atılması nəticəsində yaralandığını deyib. Zərərçəkmiş şəxs dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandırarkən hadisə zamanı yanındakı 8 nəfərin yaralandığını da söyləyib.

Zərərçəkmiş Gülverdi Mehtiyev Xankəndi yaxınlığında açılmış atəş nəticəsində qəlpə yarası xəsarəti aldığını diqqətə çatdırıb.

Zərərçəkmiş şəxs Vurğun Oruczadə Ermənistan silahlı qüvvələrinin artilleriya silahlarından açılmış atəş nəticəsində yaralandığını qeyd edib.

Məmməd Bayramov isə bildirib ki, Laçında Ermənistan hərbçilərinin atdıqları güllələrdən yayınmaq istəyərkən mövqeyini dəyişən zaman ayağı sürüşdüyü üçün yerə yıxılıb, sağ ayağı diz nahiyədən əzilib.

Fəqan İsmayılov Kəlbəcərdə erməni hərbçilərin minaatan mərmisi atmaları nəticəsində xəsarət aldığını söyləyib. “Həmin vaxt azı 9 nəfər ağır xəsarətlər aldı. Onlardan biri də mən idim”, - deyə zərərçəkmiş şəxs dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zaman qeyd edib.

Maqsud Mansurlu dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandırarkən Kəlbəcərdə yaralandığını, hadisə zamanı bir nəfərin həlak olduğunu, daha bir neçə nəfərin isə xəsarət aldığını söyləyib.

Sadiq Qasımlı ifadəsində diqqətə çatdırıb ki, Şuşada Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralanıb.

O, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavabında isə deyib ki, hadisə zamanı Ariz Məmmədov, İzzət Bağıyev və adlarını hazırda xatırlamadığı daha bir neçə nəfər müxtəlif növ bədən xəsarətləri alıblar.

Zərərçəkmiş Xəyal Abdullayev Xocavənd rayonu ərazisində minaatan mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını söyləyib.

Zərərçəkmiş İxtiyar İdrisov övladı Bəxtiyar İdrisovun Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu bildirib.

Cəfərağa İsmayılov Ağdərə rayonu ərazisində düşmən tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində xəsarətlər aldığını deyib.

Sübhan Abbasov ifadəsində Ermənistan hərbçiləri tərəfindən açılmış atəş nəticəsində özünün, Tamerlan Rəşidlinin, Bayram Hüseynovun, Rəvan Məmmədovun yaralandığını qeyd edib.

Sahib Əliyev Ağdərədə minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində özünün, İman Nəzərovun, Ərşad Hüseynovun və Eşqin Babazadənin xəsarət aldığını bildirib.

Yusif Turabov deyib ki, o, Ağdərə istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən snayper tüfəngindən açılmış atəş nəticəsində yaralanıb.

Zərərçəkmiş şəxs Hacı Kamil Rzayev Ağdam istiqamətində yaralandığını qeyd edib.

Ülfət Hümbətov Kəlbəcərdə düşmən tərəfinin artilleriya atəşi nəticəsində yaralandığını söyləyib.

Zərərçəkmiş Kərəm Kərəmli Ağdam-Ağdərə istiqamətində yaralandığını bildirib.

Digər zərərçəkmiş şəxslər - Ərşad Hüseynov, Pərviz Ağalı, Rail Nəzərov, Kərəm Kərəmli, Arif Qubadov Rəhman Məmmədli, Fariz Fətullayev, Ayaz Cəfərli, Tamerlan Rəşidli, Tərlan Cabbarov, Aslan Hacıhəsənov, Elvin Bayramov, Elçin Nəsibov, Lətif Hacılı, Qabil Yusifov, Murad Nağıyev, Zahid Nəcəfov, Tahir Zamanov, Rafət Qəmbərov ifadələrində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən müxtəlif iriçaplı silahlardan açılan atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Məhkəmədə ifadə verən Mehman Məmmədov Ermənistanın mina terroru nəticəsində xəsarət aldığını deyib. Bundan başqa, o qeyd edib ki, Cəbrayıl rayonunda minaların təmizlənməsi zamanı “KamAZ” markalı yük avtomobili minaya düşüb, nəticədə sürücü Möhübbət Məmmədli ağır xəsarətlər alıb və hər iki ayağı amputasiya edilib.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası iyunun 10-na təyin olunub.

*XQ*

# Yaponiyada Azərbaycan Milli Günü keçiriləcək



**Yaponiyada səfərdə olan Azərbaycan Prezidentinin köməkçisi, ölkəmizin “Ekspo 2025” üzrə baş komissarı Anar Ələkbərov bu ölkənin regionların inkişafı naziri, eləcə də “Ekspo 2025” üzrə nazir Yoşitaka İto ilə görüşüb.**

Görüşdə iki ölkə arasında inkişaf etməkdə olan siyasi-iqtisadi, humanitar əlaqələrin əhəmiyyəti vurğulanıb, regionlararası əməkdaşlıq və digər sahələrdə birgə layihələrin perspektivləri müzakirə olunub.

Ölkəmizin “Ekspo 2025”-də fəal iştirakına və bununla da dünya sərgisinə verdiyi töhfəyə görə minnətdarlığını bildirən Yoşitaka İto Azərbaycan milli pavilyonunun Osaka sərgisində ən seçilənlər və ziyarət edilən pavilyonlar sırasında olduğunu vurğulayıb. Osakada “Ekspo 2025” çərçivəsində iyunun 5-də keçiriləcək Azərbaycan Milli Günü münasibətilə təbriklərini çatdıran Yoşitaka İto, Azərbaycan və Yaponiyanın bir sıra şəhərləri arasında gələcək əməkdaşlığın da əlaqələrin genişlənməsinə töhfə verəcəyini bildirib.

Azərbaycanın Osakadan əvvəl Milan və Dubay kimi dünya sərgilərində də müstəqil milli pavilyonla təmsil olunduğunu qeyd edən Anar Ələkbərov ölkəmizin Ekspo hərəkatına hər zaman öz töhfəsini verdiyini bildirib. Vətən müharibəsindəki tarixi Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə işğaldan azad edilmiş ərazilərdə tikinti-quruculuq islərinin aparıldığını diqqətə çatdıran Anar Ələkbərov, ölkədəki bu cür genişmiqyaslı layihələrlə yanaşı, dünya sərgisində təmsil olunmağın Azərbaycanın Ekspo hərəkatına verdiyi önəmin göstəricisi olduğunu vurğulayıb.

Qeyd edək ki, Yaponiyanın Osaka şəhərində aprelin 13-dən fəaliyyətə başlayan “Ekspo 2025” dünya sərgisi oktyabrın 13-dək davam edəcək. 2000-ci ildən Ekspo sərgilərində uğurla iştirak edən Azərbaycan bu il də milli pavilyonla təmsil olunur. Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə yaradılan milli pavilyon “Dayanıqlı inkişafa doğru yeddi körpü” (Seven bridges for sustainability) mövzusunu əhatə edir. İyunun 5-də keçiriləcək Azərbaycan Milli Günü çərçivəsində isə Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olunacaq.

*XQ*

# Azərbaycanın xarici işlər naziri Keniyada



**İyunun 3-də xarici işlər naziri Ceyhun Bayramov Keniyaya səfəri çərçivəsində bu ölkənin Prezidenti Vilyam Samoei Ruto tərəfindən qəbul edilib.**

Görüşdə tərəflər yüksəksəviyyəli qarşılıqlı səfərlərin, siyasi dialoqun və qurumlararası təmasların əməkdaşlığın inkişafına xidmət etdiyini vurğulayıblar. Tərəflər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətinə diqqət çəkərək, tərəfdaşlığın bütün sahələrdə möhkəmlənəcəyinə dair əminlik ifadə ediblər. Bununla yanaşı, iqtisadiyyat, enerji, kənd təsərrüfatı, təhsil, mədəniyyət, turizm və idarəçilik sahələrində əməkdaşlıq imkanları müzakirə olunub.

İnformasiya və kommunikasiya texnologiyaları, rəqəmsal iqtisadiyyat, enerji və faydalı qazıntılar sahələrində də əməkdaşlıq üçün geniş imkanların olduğu və konkret əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə birgə biznes-forumların və ticarət missiyalarının təşkilinin faydalı olacağı qeyd edilib.

Afrika ölkələrinin Azərbaycanın xarici siyasətində əhəmiyyətindən bəhs olunub, Keniya ilə yanaşı, qitənin digər dövlətləri ilə əməkdaşlığın inkişafında maraqlı olduğu diqqətə çatdırılıb.

Ölkəmizin uğurlu COP29 tədbirinin və qəbul olunmuş qərarların əhəmiyyəti, 2026-cı ildə keçiriləcək Ümumdünya Şəhər Forumu çərçivəsində iki ölkə arasında əməkdaşlıq əlaqələri nəzərdən keçirilib.

*

**Həmin gün Azərbaycanın Keniyada Səfirliyi açılıb. Bu barədə Xarici İşlər Nazirliyinin “X” sosial şəbəkəsindəki hesabında paylaşım edilib.**

Bildirilib ki, Keniyaya rəsmi səfəri çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov keniyalı həmkarı Musaliya Mudavadi ilə səfirliyin açılış mərasimində iştirak edib.

Xarici işlər nazirləri diplomatik nümayəndəliyin açılmasını Azərbaycan-Keniya dövlətlərarası əlaqələrinin davam etdirilməsi və möhkəmləndirilməsi, kommunikasiyaların asanlaşdırılması və əməkdaşlığın təşviqi istiqamətində mühüm addım kimi qiymətləndiriblər.

Nazir Keniya tərəfindən diplomatik missiyanın lazımi səviyyədə fəaliyyət göstərməsi üçün ev sahibi ölkə kimi yaradılmış əlverişli mühit və şəraiti yüksək qiymətləndirib.

*

**Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Keniya Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri, xarici işlər və diaspor naziri Musalia Mudavadi ilə görüşüb.**

Tərəflər arasında təkbətək görüş daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib, Azərbaycan–Keniya ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində yer alan aktual məsələlər müzakirə olunub.

Azərbaycan ilə Keniya arasında BMT, Qoşulmama Hərəkatı və BMT-nin İqlim Dəyişikliyi Konfransı (COP29) kimi çoxtərəfli platformalar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığın məmnunluq doğurduğu diqqətə çatdırılıb. İqtisadiyyat, ticarət, investisiyalar və ətraf mühit məsələlərinə toxunularaq, informasiya və kommunikasiya texnologiyaları, enerji və təbii ehtiyatlar, kənd təsərrüfatı və turizm, iqlim dəyişikliyinə qarşı mübarizə və yaşıl transformasiya sahələrində əməkdaşlıq üçün böyük potensial və imkanların olduğu bildirilib.

Azərbaycan Respublikasının Keniyanın paytaxtı Nayrobi şəhərində səfirliyinin rəsmi fəaliyyətə başlamasının ikitərəfli əməkdaşlığımızın daha sistematik və əhatəli şəkildə həyata keçirilməsinə töhfə verəcəyinə dair əminlik ifadə olunub.

*XQ*

# Azərbaycan imperializmə və müstəmləkəçiliyə qarşı

(əvvəli 1-ci səhifədə)

"Bu konfrans müstəmləkə ideologiyalarının necə qurulduğunu, institusionallaşdırıldığını və əsaslandırıldığını, daha da vacibi onların təsirlərinin müasir dünya həyatını necə formalaşdırmağa davam etdiyini daha dərindən anlamağı hədəfləyir. Məqsədimiz bütün xalqların öz müqəddəratını təyinetmə, bərabərlik və mədəni muxtariyyət hüququna tam hörmət edən bir dünyanın intellektual və mənəvi əsaslarını dəstəkləməkdir."

A.Abbasov dünyanın müstəmləkəçiliyin ədalətsizliyini tanımaq baxımından əhəmiyyətli irəliləyiş əldə etməsinə baxmayaraq, onun keçmişin məsələsi olduğu təsəvvürünün qavranılmasında problemlərin mövcudluğuna diqqət çəkib. Bunun səbəbi isə çox sadədir: Müstəmləkəçilik dərin tarixi keçmişə və köklərə malikdir, həm də onun nişanələri hələ də qalmaqdadır. Deməli, BMT-nin Afrika Əsilli Xalqların Daimi Forumunun üzvü Pastor Martinesin fikirləri də aktual və düşündürücüdür:

"Hər il dünyada irqçilik, sosial bərabərsizlik, ksenofobiya ilə üzləşmək riskləri artır. Bunlardan heç kim sığortalanmayıb".

Cənab Martinesin müstəmləkəçilik siyasətinə məruz qalan xalqların üzləşdiyi ciddi çətinliklərlə bağlı söylədikləri də maraq doğurur. Onun bildirdiyinə görə, Afrika xalqlarının nümayəndələri gender bərabərsizliyi və müstəmləkəçiliklə yanaşı quldarlıq zülmünə də məruz qalıb. Əslində, eyni durum ümumən zülmə məruz qalmış digər xalqlar üçün də xarakterikdir. Həmin xalqların hafizəsində quldarlıq sadəcə tarixi hadisə deyil, kollektiv yaddaşlarda dərin iz buraxmış, nəsillər boyu iqtisadi, sosial və mədəni inkişafı əngəlləmiş ağır travmadır.

Nəzərə alaq ki, transatlantik qul ticarəti zamanı milyonlarla afrikalı zorla, vəhşicəsinə ailələrindən ayrı salınaraq Avropa və Amerika üçün əşyaya və mülkə çevrilmişdi. Deməli, quldarlıq yalnız fiziki yox, həm də mənəvi və mədəni məhvə yönəlmiş siyasət idi. Ona görə də hazırda bir çox intellektuallar və siyasi liderlər tarixi zülmün ədalətlə üzləşdirilməsini, qurbanların övladlarından üzr istənilməsini, onlara kompensasiya verilməsini tələb edirlər. Ayrı-ayrı düşüncə sahibləri isə həyəcan təbili çalır və vurğulayırlar ki, quldarlığın nəticələri – yoxsulluq, irqi ayrı-seçkilik və struktur ədalətsizliklər hələ də davam edir.

Sırf müstəmləkəçiliyə gəlincə, bildirməliyik ki, onun mirası kimi qiymətləndirilən meyillər özünü göstərməkdədir. Məsələn, bu zülmü yaşamış ölkələrin iqtisadiyyatları bir çox hallarda keçmiş metropoliya ölkələrindən asılıdır. Hələ qeyri-sabitlik vəd edən münaqişəli ərazilər məsələsi də var ki, bu da müstəmləkə dövrünün süni sərhədlərinin və imperializmin ənənəvi "parçala və hökm sür" siyasətinin nəticəsidir. Daha bir problem isə müstəmləkə travmasının mədəni özünüdərki və tarixə yanaşmanı çətinləşdirməsi, gender bərabərsizliyinə yol açmasıdır.

Tarixə yanaşmadan və mədəni özünüdərkdən söz düşmüşkən, "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" mövzusundakı beynəlxalq elmi konfransın açılışında çıxış edən Əlcəzair Universitetinin elmi-tədqiqat işləri üzrə rəhbəri professor Çakib Benhafri bildirib ki, fransız ideologiyası bu gün də Əlcəzairin tarixi imicinə təsir göstərməkdə davam edir:

"Bugünkü internet məkanında və kütləvi informasiya vasitələrində, xüsusilə fransız televiziya kanallarında Afrikaya dair müsbət imiclərə nadir hallarda rast gəlinir. Həmçinin Əlcəzairlə bağlı media təsvirlərinin ideoloji kökləri nəzərəçarpacaq dərəcədə özünü göstərir. Məsələn, bəzi siyasi fiqurlar tərəfindən səsləndirilmiş fikirlər buna nümunə ola bilər – Əlcəzairin əsl tarixi yoxdur. Əlcəzair bir millət olaraq heç vaxt mövcud olmayıb. Əlcəzairi Fransa yaradıb və əslində, yenidən sahiblənib".

Müstəmləkəçiliyin gender bərabərsizliyi təzahürünə gəlincə, Afrikada qadınların hüquqlarının pozulması həm ənənəvi patriarxal strukturların, həm də müstəmləkə dövründə tətbiq olunan patriarxal qanunların nəticəsidir. Həmin qanunlara görə qadınlar təhsildən, səhiyyədən və iqtisadi imkanlardan geri qalır, qadın sünnəti, erkən evlilik və gender əsaslı zorakılıq kimi ciddi problemlər yaşanır. Buna baxmayaraq, bir çox Afrika ölkəsində qadınların siyasi və ictimai həyatda fəal iştirakı və dəyişiklik üçün mübarizə aparmaları müsbət hal kimi vurğulana bilər.

Toplantıda müzakirə olunan məsələlərdən biri də kolonial güclər tərəfindən beynəlxalq hüququn, habelə BMT qətnamələrinin tələbi olan dekolonizasiya prosesinin yekunlaşdırılmasının qarşısının alınması olub. A.Abbasovun bildirdiyi kimi:

"Əksinə, biz bu gün də müxtəlif regionlarda, bəzən siyasi və digər kanallar vasitəsilə, eləcə də iqtisadi, maliyyə, mədəni və hüquqi strukturlarda, daxili şəkildə qəbul olunmuş hökmranlıq və asılılıq formalarında müstəmləkə siyasətinin təzahürlərini görməkdəyik. Son iki il ərzində biz Qvadelup, Mayotta, Yamayka, Fransız Qvianası, Reyunion, Korsika, Martiniq və digər müstəmləkə müharibələrinin dayandırılması ilə bağlı təxminən 30 beynəlxalq tədbir təşkil etmişik".

Sonda qeyd edək ki, Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilmiş "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" mövzusunda beynəlxalq elmi konfransın əhəmiyyətinə iştirakçılar tərəfindən yetərincə geniş aydınlıq gətirildi. Hesab edirik ki, toplantının başlıca mesajı beynəlxalq təşkilatlar çərçivəsində mövcud imkanlardan istifadə, təsirli mexanizmlərin həyata keçirilməsi, həmçinin sistemli bərabərsizliklərin beynəlxalq təşkilatlar səviyyəsində həlli yollarının müzakirəyə çıxarılmasının vacibliyinin vurğulanmasıdır.




Əlbəttə, ən vacib məqam ölkəmizin belə bir mötəbər konfransa ev sahibliyi etməklə neokolonializm təmayüllü qeyri-insani rəftar hallarına qarşı bəşəri mübarizəyə növbəti töhfəsini verməsidir. Əminliklə deyə bilərik ki, Azərbaycan belə töhfə nümunələri ilə zəngin platformadır. BMT-nin Afrika Əsilli Xalqların Daimi Forumunun üzvü P. Martinesin bildirdiyi də elə budur:

"Bu gün Bakı əvvəllər gözardı edilən xalqların problemlərinin səsləndirildiyi platformaya çevrilib. Biz bu platformadan yararlanıb məqsədlərimizə nail olmalıyıq. Məqsəd isə müstəmləkədən xilas olub, müqəddəratımızı müstəqil şəkildə özümüzün müəyyən etməsidir. Belə bir şəraitdə müstəmləkə xalqlarının Şimali və Cənubi Amerikada qlobal irsin formalaşmasında iştirakını da xatırlatmaq istəyirəm. Bu məsələ unudulmamalıdır".

***Ə.RÜSTƏMOV***
***XQ***

# Fransa, qan tökdüyün əraziləri tərk et!

## *Bakı müstəmləkəçiliklə mübarizə tribunasına çevrilib*

**Artıq bütün dünya bilir ki, neokolonializmə qarşı mübarizə rəsmi Bakının xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Son illərdə Azərbaycan bu istiqamətdə nəzərəçarpacaq işlər görüb, beynəlxalq ictimaiyyətin diqqətini XXI əsrin bəlası sayılan neokolonializmə yönəltməyi bacarıb. Bakı Təşəbbüs Qrupunun bu mövzuda həm daxildə, həm də xaricdə təşkil etdiyi tədbir və aksiyaların sayı cütrəqəmli sayla ölçülür. Müstəmləkəçilikdən əziyyət çəkən ada dövlətlərinin, kiçik xalqların nümayəndələrinin qatıldığı bütün tədbirlərdə Fransanın ünvanına qınaq, irad və tələblərin səslənməsi artıq ənənəyə çevrilib. Bunun da səbəbi məlumdur: üçüncü minillikdə müstəmləkəçilik ideologiyasından və siyasətindən əl çəkməyən əsas ölkə Fransadır.**



Bakı Fransa kolonializminə həsr olunmuş növbəti tədbirə ev sahibliyi edir. "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" mövzusunda beynəlxalq elmi konfransın təşkilatçısı Bakı Təşəbbüs Qrupudur. Budəfəki tədbirdə BMT-nin dekolonizasiya sahəsi üzrə təcrübəli ekspertləri, Fransanın keçmiş və hazırkı müstəmləkələrində fəaliyyət göstərən tanınmış alimlər, beynəlxalq hüquq sahəsində görkəmli mütəxəssislər, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirləri, eləcə də millət vəkilləri iştirak edirlər.

Əvvəlcə onu qeyd edək ki, Bakının ev sahibliyi etdiyi bu tədbir BMT-nin müxtəlif strukturlarında dekolonizasiya sahəsində çalışan, eləcə də bu sahə üzrə ixtisaslaşmış alimlərin ilk beynəlxalq elmi konfransıdır. Yəni, budəfəki konfrans əvvəlkilərdən bir neçə cəhəti ilə fərqlənir. Ən başlıca cəhət tədbir iştirakçılarının müstəmləkəçiliyin acınacaqlı vəziyyətinə elmi yanaşmaları və bu məsələni beynəlxalq təşkilatlar prizmasından dəyərləndirmələridir.

BMT-nin yaxından iştirakı ilə keçən elmi konfransın məqsədi müstəmləkə ideologiyalarının necə formalaşdırıldığını, institusionallaşdırıldığını və əsaslandırıldığını, həmçinin onların təsirlərinin bugünkü qlobal dinamikanı formalaşdırmağa davam etdiyini daha dərindən anlamağa şərait yaratmaqdır.

Bəli, budəfəki platformanın əsas kontingenti dünyanın müxtəlif ölkələrindən Azərbaycan paytaxtına gəlmiş alimlər, sahənin mütəxəssisləridir. Tədbirdə müstəmləkəçilik siyasətinin ağır fəsadları, kolonial dövlətlərin əsarət altında saxladıqları xalqlara qarşı ayrı-seçkilik metodları, habelə neokolonializmin tərkib hissəsi kimi siyasi, iqtisadi və mədəni məhdudiyyətlər, milli kimliyin məqsədli şəkildə itirilməsi siyasəti elmi və metodoloji yanaşmalar əsasında dərindən təhlil edilir.

*

Beynəlxalq elmi konfransda açılış nitqi söyləyən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov BMT-nin müxtəlif strukturlarında dekolonizasiya sahəsində çalışan bu təşkilatın dünyada iqtisadi təşəbbüslərin təşviqi üçün qlobal platformaya çevrildiyini, iqlim dəyişikliyindən əziyyət çəkən insanlar üçün ümid mənbəyi olduğunu bildirdi:

"Sizin iştirakınız tarixi araşdırmaya, akademik dürüstlüyə və insan ləyaqətinin yüksəldilməsinə xidmətdə ortaq öhdəliyi əks etdirir. Bu dəfə söz professorlara çatıb. Üstəlik, bizim xüsusi üstünlüyümüz ondadır ki, dəvət olunmuş bəzi qonaqlar bu məsələdə BMT-nin müvafiq strukturlarında bilavasitə iştirak edirlər. Amma bu, təkcə akademik maraq predmeti deyil. Bu, müasir inanclar baxımından təcili bir məsələdir."

Onu da qeyd edək ki, Bakı konfransında beynəlxalq hüququn, habelə BMT qətnamələrinin tələbi olan dekolonizasiya prosesinin yekunlaşdırılmasının kolonial güclər tərəfindən qarşısının alınması və bu konteksdə beynəlxalq təşkilatlar çərçivəsində mövcud imkanlardan istifadə, təsirli mexanizmlərin həyata keçirilməsi, həmçinin sistemli bərabərsizliklərin beynəlxalq təşkilatlar səviyyəsində həlli yolları müzakirə mövzularıdır. Məhz Bakının təşəbbüsləri sayəsində dünya müstəmləkəçiliyin ədalətsizlik xislətini tanımaq baxımından ciddi irəliləyiş əldə edib. Fəqət, müstəmləkəçiliyə keçmişin məsələsi kimi baxa bilmərik. Əslində, Bakı konfransında aparılan müzakirələrin məqsədi, sadəcə, müstəmləkəçiliyin yaranma səbəblərini, anatomiyasını və keçmişini anlamaq deyil, eyni zamanda, onun bütün fəsadlarını aradan qaldırmağın yollarını tapmaq, ədalətli və bərabərhüquqlu gələcək qurmaqdır.

"Biz bu gün müxtəlif regionlarda, bəzən siyasi və digər kanallar vasitəsilə, eləcə də iqtisadi, maliyyə, mədəni və hüquqi strukturlarda qəbul olunmuş hökmranlıq və asılılıq formalarında müstəmləkə siyasətinin təzahürlərini görməkdəyik. Son iki il ərzində Bakıda Quadalupe, Mayotta, Yamayka, Fransız Qvianası, Reyunion, Korsika, Martiniq və digər müstəmləkəçiliklə mübarizəyə həsr olunmuş təxminən 30 beynəlxalq tədbir təşkil etmişik". A.Abbasov hesabat xarakterli çıxışında Azərbaycanın Fransa müstəmləkəsindən əziyyət çəkən dövlətlərin və kiçik xalqların üzləşdikləri çətinliklərin mənzərəsini açıb göstərmiş oldu.

Tədbirdə müstəmləkəçilik siyasətinin ağır fəsadlarından biri kimi əsarət altındakı yerli xalqlara münasibətdə həyata keçirilən ayrı-seçkilik metodları, milli kimliyin məqsədli şəkildə itirilməsi siyasətinin elmi və metodoloji yanaşmalar əsasında dərindən təhlil olunması maraq doğurur. Bu baxımdan, BMT-nin Afrika xalqlarının Daimi Forumunun Kolumbiyadan olan üzvü Pastor Martinezin çıxışında söylədiklərinə diqqət yetirək:

"Afrikada imperialist və müstəmləkə siyasətinin qurbanlarının davam edən əzablarına son qoymaq lazımdır, onlar müstəmləkə zülmünün nəticələrini bu günə qədər yaşayırlar". P.Martinezin sözlərinə görə, dünyada risklər hər gün artır, heç kim irqçilik və sosial bərabərsizlikdən sığortalanmayıb:

"Afrika mənşəli insanlar müstəmləkəçilik, transatlantik qul ticarəti və imperializmi yaşayıblar. Onların nəticələri bu gün də hiss olunur. Biz bu gün miqrasiya böhranı, irqçilik, ksenofobiya, iqlim dəyişiklikləri, həmçinin süni intellektin mənfi və qeyri-etik istifadəsi kimi yeni çağırışlarla üzləşirik".

*

"İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" beynəlxalq elmi konfransın Bakı platformasının acı reallıqlar barədə yenidən düşünmək, daha əvvəl nəzərə alınmayan qrupların səslərini eşitmək, onların Şimali və Cənubi Amerika kimi regionlarda qlobal irsin formalaşmasına töhfələrini qəbul etmək üçün mühüm tribuna olduğu göz qabağındadır.

"Elmi irqçilik" kimi tanınan ideoloji yanaşmalar – yəni, ağ irqin elmdə və hüquqda üstün, digərlərinin isə aşağı olduğunu iddia edən nəzəriyyələr – tarixən ağların üstünlüyünün elmi əsaslarla təbliği üçün istifadə olunub". Bu maraqlı və kifayət qədər kəskin bəyanatı BMT-nin Afrika Əsilli Xalqların Daimi Forumunun (PFPAD) üzvü xanım June Christine Marie Soomer öz çıxışında səsləndirdi. O bildirdi ki, kolonializmin zorakılığı, insanlıqdan kənar münasibətləri və ideoloji təsiri hələ də bir çox elmi və institusional strukturlarda davam etməkdədir:

"Mərhum Qana lideri Kvame Nkrumanın da qeyd etdiyi kimi, kolonializm və onunla bağlı düşüncə tərzləri asanlıqla yox olmur. Bu səbəbdən belə düşüncə tərzini dağıtmaq və onlardan azad olmaq üçün davamlı səylərə ehtiyac var".

Bəli, Qərbin bəzi "beyin mərkəzləri" müstəmləkəçiliyin ideoloji bazasını formalaşdırmaq kimi boyatlaşmış fəaliyyətdən vaz keçməli, XXI əsrin bəşər övladının qarşısına çıxardığı çağırışlara uyğun davranmalıdırlar. Keçən əsrdə qalmış bu zehniyyəti dəyişməkdən ötrü müstəmləkənin fəsadlarını yaşayanlarla yanaşı, özlərini sivil toplum adlandıran inkişaf etmiş ölkələr də qollarını çırmayıb konkret iş görməlidirlər. Bunun ən bariz nümunəsini Azərbaycan sərgiləyir.

*

Əlcəzair Universitetində elmi-tədqiqat işləri üzrə rəhbər Çakib Benhafrinin çıxışında keçmişə verdiyi qiymət və medianın oynadığı mənfi rol barədə dediklərinin konfrans iştirakçılarının yadında qalacağına əminik. Cənab Benhafri dedi ki, tarixçilər və beynəlxalq hüquqşünaslar Əlcəzairin tarixindən danışanda həmişə bu ölkədə aparılan müharibələrə toxunublar:

"Heç vaxt başqa bir söz eşitməmişəm. Elə bir dövr var idi ki, fransız mediası müəyyən obraz yaradaraq onun vasitəsilə çatdırmaq istədiyi fikirləri təqdim edirdi. Həmin təsvirlərdə Afrika barədə müsbət elementə yer verilmirdi. Bu gün isə elə yazır və göstərirlər ki, sanki Fransa olmasa, Afrika dəyişə və inkişaf edə bilməz".

"Fransanın vaxtilə qana buladığı, müstəmləkəyə çevirdiyi ərazilərdən çıxması vacibdir" – deyən tədqiqatçı, həmçinin bu gün Yelisey sarayının müstəmləkə siyasətinin təbliğinə böyük pullar ayırdığını da vurğuladı:

"Biz keçmiş müstəmləkələrin dördüncü və ya beşinci nəsli olaraq, Fransada doğulub-böyümüşük, bu ölkənin siyasətini aydın şəkildə görə bilirik. Fransa hər zaman öz siyasətinin təbliğatı üçün böyük pullar sərf edərək "sivilizasiya missiyası" adı altında Afrikaya yönəlmiş addımlar atıb. Bu baxış hələ də dəyişməyib".

"İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" beynəlxalq elmi konfrans barədə qeydlərimizə sözünü sərlövhəyə çıxardığımız Fransada doğulmuş Əlcəzair əsilli alim Çakib Benhafrinin qənaəti ilə nöqtə qoyuruq:

Fransa hakimiyyətində müstəmləkə düşüncəsi hələ də dəyişməyib. Amma Yelisey sarayında əyləşənlər, hətta böyük pulların hesabına, bu ideologiyanı artıq oyanmış və öz haqlarını tələb edən həmin dənizaşırı ölkələrin kiçik xalqlarının beyinlərinə daha pərçim edə bilməyəcəklər.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**



– Azərbaycan müstəmləkəçilikdən əziyyət çəkən kiçik xalqların yanındadır, onların təbii hüquqlarını daim müdafiə edir. Məhz Fransanın timsalında bütün dünya görür ki, yerli xalqların hüquqları kobud şəkildə tapdanır, onlar əzilir, öz dillərində təhsil almaq, danışmaq imkanından məhrum edilirlər. Bu xalqların azadlıq arzuları, müstəqillik uğrunda mübarizəsi Fransa polisinin, ordusunun güc amili ilə üzləşir. Belə bir acınacaqlı vəziyyətdə, təbii ki, Bakının öz sözünü deməyə, müstəmləkə zülmündən əziyyət çəkən xalqların hüquqlarını müdafiə etməyə ixtiyarı var. Biz görürük ki, həmin dənizaşırı ərazilərdəki kiçik ada dövlətlərin aborigen əhalisinə elementar insan hüquqlarından yararlanmağa imkan verilmir. Onlar yalnız fransız dilində danışmağa, övladlarına fransız adları verməyə məcbur edilirlər. Belə dözülməz vəziyyət BMT üzvü olan bütün ölkələr kimi, Azərbaycanı da narahat etməyə bilməz.

Azərbaycan bundan sonra da Fransa müstəmləkəçiliyinə qarşı mübarizəni davam etdirəcək. Amma bu, heç də o demək deyil ki, mübarizəmizi güc tətbiq etməklə aparacağıq. Xeyr! Bakıda öz işinə başlayan beynəlxalq elmi konfrans müstəmləkəçiliyə siyasi-ideoloji təzyiq forması kimi qəbul olunmalıdır. Azərbaycan bu təzyiq formasının müxtəlif variantlarını artıq sınaqdan çıxarıb. Bakı birinci dəfə deyil ki, bu mövzuda tədbirlərin təşkilatçısı və ev sahibi kimi çıxış edir. Azərbaycan paytaxtı dənizaşırı coğrafiyadan, eləcə də Afrikadan olan müstəmləkə qurbanlarının təmsilçilərinə öz haqq sözlərini demək üçün dəfələrlə platforma və tribuna rolunu oynayıb. Onlar ölkəmizin bu sahədə xidmətlərini, Azərbaycan hakimiyyətinin təşəbbüslərini yüksək qiymətləndirirlər.

Bakıda növbəti beynəlxalq konfransın keçirilməsi təkcə Azərbaycanın deyil, tədbirə qatılmış BMT rəsmilərinin, beynəlxalq ekspertlərin, kiçik xalqların təmsilçilərinin maraqlarına tam cavab verir.

**4 iyun qarşıdurmasından 32 il keçir**



# Gəncə hadisələri lidersizliyin, dərəbəyliyin faciəsi idi

**Əslində Gəncədəki 4 iyun hadisələri insanlığın, insanın, onun xarakterinin, necə deyərlər, içinin həm də bir sınağı idi. 4 iyun hadisələri çoxunun iç üzünü açıb göstərdi.**

...Günəşli, bir qədər sərin, ara-sıra çiskin yağışlı gün idi. Amma şəhər çox erkən oyanmışdı. Çünki adamlar həmin şəhər pəncərələrindən top-tüfəng səslərinə boylanmışdılar və əvvəl nə baş verdiyini anlamamışdılar. Amma bir azdan...

Məlum olmuşdu ki, hökumət qoşunları şəhərdəki hərbi hissəyə hücum ediblər və nəticədə çox ciddi qarşıdurma yaranıb, ölən və yaralananlar olub. Gəncə hadisələrini araşdıran komissiyanın yekun protokolundan: "Şahidlərin məlumatından və komissiya üzvlərinin müşahidələrinə əsasən məlum olmuşdur ki, 4 iyun 1993-cü il tarixdə, səhər saat 6 radələrində 130 nömrəli hərbi hissənin ərazisindən istifadə etməklə 709 nömrəli hərbi hissəyə tank, BMP, BTR və digər hərbi texnikalar vasitəsilə geniş hücum təşkil edilmiş, tank tırtılları altında kazarmada yuxuda olan əsgərlərdən 12 nəfəri əzilmiş və vəhşicəsinə məhv edilmişdir. Eyni zamanda, həmin kazarma top, minaatan və başqa silahlardan atəşə tutularaq tamamilə yandırılmış və daş-kəsək altında əsgərlərin cəsədləri qalmışdır. Komissiyanın məlumatına görə, basqın zamanı 69 nəfər hərbi qulluqçu və mülki şəxs öldürülmüş, 150-dən çox əsgər və zabit yaralanmışdır. Qarşı tərəfin cavab atəşi nəticəsində Bakıdan və ətraf rayonlardan gətirilmiş daxili qoşunların xüsusi təyinatlı dəstələri tərksilah olunmuş, 1250 hərbi qulluqçu girov götürülmüşdür..."

Bilmirəm 4 iyun gününü necə adlandırmaq lazımdır. Qara günmü, yoxsa qarağüruhçuluğun süqutu günümü? Məlum məsələ idi ki, AXC–Müsavat iqtidarı ölkəni idarə edə bilmirdi. Səriştəsiz, iddialı adamlar xalqın və dövlətin taleyi üçün qətiyyən məsuliyyət daşımırdılar. Hakimiyyətə elə adamlar gətirilmişdi ki, bunların idarəetmədən qətiyyən anlayışları yox idi. Yazılarımın birində qeyd etmişdim. "Bəy"lərin hakimiyyəti dövründə qəzetimiz prezident aparatının təsisçiliyindən çıxmış, müstəqil şəkildə gündəlik ictimai-siyasi qəzet olaraq öz nəşrini davam etdirirdi.

Bir dəfə hansısa məsələni araşdırmaq üçün Samux Rayon İcra Hakimiyyətinə getməli oldum. Başçının köməkçisinə dedim ki, gəldiyimi Rasim Mürsəlova bildirsin. Rasim Mürsəlov 1988-ci ildən Gəncədəki mitinqləri idarə edən adam idi. Elə bu "xidmətlərinə" görə Gəncəyə deyil, qonşu Samux rayonuna başçı təyin "etmişdilər". İçəri daxil olanda gözlərimə inanmadım. Siqaretin tüstüsündən göz-gözü görmürdü. Mürsəlovun "Bəy, yaxın gəlin, əyləşin" sözlərini eşitməsəydim, yəqin ki, qatı tüstüdən onun harada, hansı stulda əyləşdiyini də görməyəcəkdim. Qarşı tərəfindəki masanın kənarlarında 5–6 "bəy" əyləşmişdi. Hamısının da dodaqlarının arasından sanki "parovoz"dan buxar çıxırdı. Bir neçəsi də ayağını qaldırıb masanın üstünə qoymuşdu. Başçı bu mənzərəni diqqətlə süzdüyümü hiss edib bir qədər sərt şəkildə "ay uşaqlar, 5–10 dəqiqə mənə imkan verin müəllimlə söhbət edim", – dedi.

Düzü, bilmədim nə deyəm. Hətta "bəylər" kabineti tərk etdikdən sonra da nəyə gəldiyimi unutdum. "Nə yaxşı gəlmişdiniz?" deyə soruşsa da, "heç , elə-belə" deyib tələsik oranı tərk etdim...

Təsvir etdiyim epizodu təsadüfən xatırlamadım. Bu iqtidar özü də bilirdi ki, belə "kadrlarla" ölkəni idarə edə bilməyəcək.

Ən qəribə və əcaib mənzərə isə bu idi: dünənə kimi Xalq Cəbhəsinin mitinqlərində havaya yumruq qaldıran, "azadlıq" bağıran "demokrat"ların bir çoxu artıq Surət Hüseynovun ətrafında birləşməyə başlamışdılar. Bütün günü "bəy"lərin yanından əl çəkməyən birisi haqqında danışırdılar ki, iyunun 4-dən sonra "Qonaq evi"nin (Surət Hüsenovun qərargahı orada yerləşirdi) həndəvərindən çəkilmir, əynində də əsgər paltarı. Təsadüfən qarşıma çıxdı. Dözməyib "nə tez?" deyə soruşdum. Deyəsən başa düşdü ki, nə demək istəyirəm. Yazıq-yazıq üzümə baxıb "müəllim, nə edim, bir külfət balam var..." deyib, tələsik aralandı.

...İqtidar qoşunlarının hücum etdiyi hərbi hissə yaşayış binalarının sıx olduğu, nəqliyyatın intensiv hərəkət etdiyi ərazidə yerləşir. Şəhərin gözü açılmamış ora tanklar, BTR-lər yeritmək ağılsızlıq idi. Neçə-neçə cavan, qoca, uşaq həlak oldu. Sonrakı günlərdə Gəncə döyüş meydanını xatırladırdı. Hava limanı, şəhərin digər tikililəri dağılmışdı.

Gəncə Hava Limanının direktoru Bəylər Nəcəfov danışırdı ki, "iyunun 3-də Gəncənin hava limanına TU-154 təyyarəsi enmişdi. Əvvəlcə başa düşməmişdik ki, bunlar kimdir, nəyə gəliblər. Təyyarənin içərisində 300–350 nəfərə qədər hərbi qulluqçu görəndə hiss etdik ki, böyük fəlakət baş verə bilər. Hərbçilərin yarısı avtobuslara minərək, 709 nömrəli hərbi hissəyə getdi. Yarısını isə yolda, aeroportun yaxınlığındakı meşəlikdə şəhər sakinləri saxladılar. Burada Surət Hüseynovun da adamları var idi. Hava qaralmağa az qalmış atışma başladı. Gecə saat 2-də "Qrad" qurğularından aeroporta atəş açıldı, bir neçə obyekt məhv edildi. Aeroportun bu cür hücuma məruz qaldığını görən hərbçilərin bir hissəsi qaçdı.

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin rəhbərliyi ilə məsləhətləşdik ki, bizim YAK təyyarələrini də məhv edə bilərlər, onları Bakıya göndərmək lazımdır. Gecə saat 4 radələrində Yevlaxdan təyyarəçilər gəldilər, YAK-40 tipli 3 təyyarəmizi Bakıya apardılar. Təyyarəçilərə göstəriş vermişdik ki, işıqları söndürsünlər, havadakı təyyarəni görmək mümkün olmasın, çünki onları da vura bilərdilər. İyunun 5-də səhər saat 9-a yaxın aeroportu yenə "Qrad" qurğularından atəşə tutdular, daha bir neçə obyekt dağıldı. Hava limanı xarabalığı xatırladırdı. Bakıdan, guya, köməyə gələn iqtidar qüvvələri də oradan qaçmışdılar".

...Əslində, Gəncə hadisələri AXC–Müsavat hakimiyyətinin yarıtmaz və xəyanətkar siyasətinin nəticəsi idi. Faktiki olaraq ölkədə vətəndaş müharibəsi başlanmışdı. O günlərdə küçədə əlində avtomat silah oynada-oynada gedən adamları görmək adi hal almışdı. Axşam saat 6-dan sonra Gəncə ölü şəhər təsiri bağışlayırdı. Sakinlər qorxu içində idilər, həyət-bacada gəzişən və ya küçələrə, parka-xiyabana çıxan şəhər sakini görmək mümkün deyildi. Ətraf rayonlarda da vəziyyət kritik şəkil almışdı. İqtidar nümayəndələri yerlərdə hakimiyyətlərini qorumaq, adamları sakitləşdirmək əvəzinə, mövqelərini gizlincə tərk edirdilər.

Artıq bir sıra ərazilərdə – Lənkəranda, Qusarda, elə Gəncənin özündə və digər regionlarda bəzi silahlı birliklər separatçı iddialarla çıxış edib, mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər.

S.Hüseynovun nəzarətindəki 709 saylı hərbi hissənin tərksilah edilməsi ilə bağlı həyata keçirilən əməliyyat uğursuz olmuşdu. Gəncəyə göndərilmiş hökumət rəsmiləri S.Hüseynovun dəstəsi tərəfindən girov götürülmüşdü. Bir qrup xarici jurnalistlə birlikdə mən də girovların saxlandığı həmin zirzəmiyə düşüb baxmışdım. Hətta ölkənin baş prokurorunun "mən Elçibəyin həbs olunması üçün sanksiya imzalayacağam" deməsini də öz qulaqlarımla eşitmişdim. Saralmış stəkanlarda onlara verilən çayın rəngi, dəmir çaydan, çirkli, yuyulmamış qab-qacaq hələ də gözlərim önündədir. Burada da insanın bir gecədə dəyişdiyini, necə deyərlər, ona vəzifə, çörək verəninə qarşı xəyanətini, etbarsızlığını, sifətdən-sifətə düşməsini görüb dəhşətə gəlmişdim.

...Bayaqdan akademik Fuad Əliyevlə o günləri xatırlayaraq maraqlı söhbət edirəm. Fuad müəllim deyir ki, "Heydər Əliyevin ölkənin "olum, ya ölüm?" dilemması qarşısında qaldığı bir vaxtda yenidən hakimiyyətə dəvət olunması və Ulu öndərin xalqın gələcək taleyini fikirləşərək dəvəti qəbul etməsi xəbəri Azərbaycanın hər yerində, o cümlədən, Gəncədə də böyük coşqu ilə qarşılandı.

O günləri mən yaxşı xatırlayıram. Heydər Əliyev iyunun 13-də axşamüstü şəhərə gəldi. İnsan selinin o böyük şəxsiyyəti necə qarşıladığını sözlə ifadə edə bilmirəm. Hamının əli göydə idi, hamı "Heydər, Heydər" deyirdi. Səmimiyyətimə inanın, nə ondan əvvəl, nə də ondan sonra, mən Gəncədə bir o qədər insanın şəhərə çıxdığını görməmişəm".

Bir faktı nəzərə çatdıraq ki, AXC–Müsavat iqtidarı Ulu öndəri Bakıya dəvət etmək haqqında hələ Gəncə hadisələrinin ertəsi günü düşünməyə başlamışdı. Dahi şəxsiyyətin özü isə bu məsələ ilə bağlı çıxışlarının birində belə deyirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı və o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi və qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək və Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar, belə bir zamanda, əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri və ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı təhlükədən xilas etdi. O dövrdə baş verən hadisələr bir daha tarixi gerçəkliyi üzə çıxarmış olur ki, böyük dövlət xadimi hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycanın müstəqilliyindən söhbət açmaq mümkün olmayacaqdı.

İyunun 9-da xalq, o cümlədən günlərini qorxu içində keçirən Gəncə sakinləri azacıq da olsa, dərindən nəfəs aldılar. Artıq hamı düşünürdü ki, Heydər Əliyev gəlibsə, demək, qarşıdurmaya son qoyulacaq. İyunun 13-ü günü bu inam bir qədər də artdı.

Həmin günü bu sətirlərin müəllifi də yaxşı xatırlayır. Milli Məclisin iclasında Heydər Əliyevin bir qrup jurnalistin müşayiəti ilə Gəncəyə yola düşməsi xəbəri bütün şəhəri ayağa qaldırmışdı. Gəncəlilər Ulu öndərin yolunu səbirsizliklə gözləyirdilər. Mən də gözləyənlər arasında idim.

Şər qarışana yaxın Heydər Əliyev şəhər icra hakimiyyətinin qarşısındakı meydana gəldi. Məlumat almışdım ki, burada görüşü olmayacaq. Amma Ulu öndər eşidəndə ki, meydanda on minlərlə adam onu gözləyir, onun üzünü görmək, səsini eşitmək istəyir, o zaman burada ayaq saxladı.

Aradan 32 il keçsə də, həmin görüşü yada salanda indi də həyəcanlanır, özümü ələ ala bilmirəm. Bu səhnə xalqın öz liderinə olan məhəbbəti, inamı idi və onu kənardan seyr etmək necə də qürurverici idi! Siz inanırsınız, insanlar ağlayırdılar, bu, sevinc göz yaşları idi.

O da yadımdadır ki, 5 il sonra, 1998-ci il oktyabrın 7-də elə o meydanda Gəncə seçiciləri ilə görüşən Heydər Əliyev həmin günləri xatırlayaraq deyirdi: "Gəldim, ancaq öz üzərimə vəzifə götürmədim. Bir həftə mənimlə danışıqlar getdi. Burada qan tökülmüşdü. Ona görə mən bütün çətinliklərə baxmayaraq, o vaxt həyatımın böyük təhlükə altında olduğunu görərək, böyük riskə gedərək 1993-cü ilin iyun ayının 13-də buraya, Gəncəyə, qardaş qanı tökülən bu qədim diyara gəldim. Burada vəziyyətin nə qədər gərgin olduğunu gördüm. Eyni zamanda, gəncəlilərin mənə nə qədər dəstək verdiyini görərək Bakıya dönüb iyun ayının 15-də Ali Sovetin sədri vəzifəsini öz üzərimə götürməyə razılıq verdim. Məni Ali Sovetə sədr seçdilər".

…Ertəsi gün Heydər Əliyev dağıdılmış hərbi hissəyə getdi, hadisə şahidlərilə, əsgərlərlə, komandirlərlə görüşdü, onları dinlədi.

Lap yaxınlıqda idim və bu böyük şəxsiyyətin hər sözünü aydın eşidirdim. Hamı istəyirdi ona yaxınlaşsın, ürək sözünü desin. Söhbətin şirin yerində əsgərlərdən kimsə havaya qumbaraatandan atəş açdı və məqsəd nə idi, bilmədik. Səs o qədər dəhşətli idi ki, hamı qorxdu, hətta yerə sərilənlər də oldu. Yaxınlığında olduğumdan aydın görə bildim ki, Heydər Əliyev heç gözünü də qırpmadı. Bircə astadan "Surət, sən bilərsən, bu nə idi?" deyib özünəməxsus şəkildə gülümsədi. S.Hüseynov isə bir qədər duruxub "yəqin əlində təsadüfən açılıb, Heydər Əliyeviç, cəzasını verərik" deyə izahat vermək istədi...

32 il qabaq Ulu öndərin xilaskarlıq missiyası Azərbaycanı fəlakətdən qurtardı. Bu taleyüklü vəzifəni yalnız Heydər Əliyev kimi tarixi şəxsiyyət, təcrübəli siyasətçi, vətənpərvər insan, güclü lider yerinə yetirə bilərdi. Heydər Əliyev Azərbaycanı fəlakətdən qurtarıb inkişaf yoluna yönəltdi, müstəqilliyimizi əbədi etdi.

Ata yolunu çox böyük sədaqətlə, uğurla davam etdirən Prezident İlham Əliyev isə Azərbaycanı güclü dövlətə çevirə bildi, onun ərazi bütövlüyünü bərpa etdi.

Bu gün ölkəmiz dünyada sayılıb-seçilən söz sahibidir. Dövlətimizi nüfuzlu edən onun müstəqil siyasət aparmasıdır, liderinin prinsipiallığı, yenilməzliyidir.

İyun hadisələri xalqımızın tarixinə yazılmış bir tale yazısı olsa da, onun qanunauyğunluqlarını da unuda bilmərik. Bazası, bünövrəsi, təcrübəsi, nüfuzu omayanlara xalq heç vaxt etimad göstərə bilməz və göstərsə də, onun ömrü çox az olar. Elə də oldu...

***Hə let QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə şəhəri**

# Qatarlar Zəngilandan keçib Naxçıvana yetişəcək

**Zəngəzur dəhlizi, onun regional əhəmiyyəti Türkiyə mətbuatının da aparıcı mövzularından biridir və müntəzəm olaraq kütləvi informasiya vasitələrində bununla bağlı fikirlər bildirilir, məqalələr dərc edilir. Türkiyənin Zəngəzur dəhlizinə maraq göstərməsi bir sıra ölkələri ciddi narahat edir və onlar layihənin reallaşmasına mane olurlar. Həmin ölkələrin nədən narahat olması məlum məsələdir, sadəcə olaraq, onlar, guya, Ermənistanın maraqlarının müdafiəçisi rolunda çıxış etməklə maskalanmaq istəyirlər.**




Bir neçə gün əvvəl qardaş ölkənin aparıcı nəşrlərindən birində "Zəngəzur dəhlizinə qarşı birləşdilər: Bu reallaşarsa, Türkiyənin nüfuzu dəfələrlə artacaq" başlığı ilə dərc olunan məqalədə yenidən bu mövzuya toxunulub. Vurğulanıb ki, bu layihənin həyata keçirilməsi bir sıra regional oyunçuların, xüsusən Hindistanın da ciddi narahatlığına səbəb olur.

Diqqətə çatdırılır ki, Ermənistanın cənubu vasitəsilə Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirməli olan Zəngəzur dəhlizinin işə salınması Türkiyənin Türk dünyasına – Qafqazdan Orta Asiyaya birbaşa quru çıxışını təmin edəcək. Bu da öz növbəsində Ankaranın bölgədəki mövqeyini xeyli gücləndirəcək.

Hindistanın da layihəyə qarşı müqavimət göstərməsinə səbəb olan əsas amil budur. Buna görə də Nyu-Dehli Zəngəzur dəhlizinin reallaşmasını istəmir. Bu Hindistan mediasının yazdığı xəbərlərdən də aydın seçilir. Qeyd olunur ki, dəhliz Avrasiyada qüvvələr balansını kökündən dəyişdirə və son illər fəal şəkildə İranın Çabahar limanı və Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə Avropaya alternativ nəqliyyat marşrutu yaratmaq üzərində çalışan Hindistan, İran və Ermənistanın maraqlarını poza bilər. Həmçinin Zəngəzur dəhlizi Türkiyə və Azərbaycan üçün təkcə Cənubi Qafqaz və Mərkəzi Asiyada deyil, həm də uzunmüddətli perspektivdə – Cənubi Asiyada təsir imkanlarını genişləndirmək üçün strateji alət kimi görünür.

Bu fonda Hindistan, İran və Ermənistan Türkiyə – Azərbaycan təşəbbüsləri ilə rəqabət apara biləcək alternativ logistika zəncirlərinin inkişafı üçün birgə fəaliyyətini davam etdirirlər. Məqalədə qeyd olunur ki, Zəngəzur dəhlizi ətrafında qarşıdurma getdikcə böyük dövlətlərin və regional oyunçuların maraqlarının kəsişdiyi geosiyasi rəqabət xarakteri alır.

Əlbəttə, bu, bir həqiqətdir ki, Zəngəzur dəhlizi Azərbaycanı yalnız Naxçıvan ilə birləşdirəcək quru əlaqəsi deyil. Eyni zamanda, Türkiyə üzərindən Türk dünyasına uzanan yeni bir inteqrasiya xəttidir. Bu dəhlizin tez bir zamanda açılması Qafqazda nəqliyyat və enerji infrastrukturunu da gücləndirəcək. Türk dünyasının bölgədəki nüfuzunu, mövqeyini daha da möhkəmləndirəcək. Eyni zamanda, Cənubi Qafqazda davamlı sülhün və Azərbaycan – Ermənistan münasibətlərinin normallaşmasına birbaşa təsir göstərəcək.

Prezident İlham Əliyevin Zəngəzur dəhlizi ilə bağlı mövqeyi də ondan ibarətdir ki, Azərbaycan bu dəhlizdən heç bir halda geri çəkilməyəcək. Göründüyü kimi, Zəngəzur dəhlizi bir neçə ölkəyə təsir edə biləcək strateji əhəmiyyətə malikdir. Ona görə Avrasiya məkanında bu dəhlizin reallaşmasında maraqlı olmayan qüvvələr var. Bu ölkələri qorxuya salan nədir?

**Mövzu ilə bağlı Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov XQ-yə bildirdi ki,** Zəngəzur dəhlizinin açılması ilk növbədə Türk dünyasını birləşdirəcək. Türk dünyası birləşərək daha güclü və çevik olacaq. Amma bu dəhlizin açılmasını istəməyənlər başa düşsünlər ki, onsuz da Gürcüstan vasitəsilə Türk dünyası arasında əlaqə var. Yeri gələrsə bu əlaqələr daha da güclənəcək. Ona görə də Ermənistan bütün bunları yaxşı başa düşür. Düşünürəm ki, İran və Hindistandan fərqli olaraq, Ermənistan bu nəqliyyat qovşağı ilə bağlı başqa fikrə malikdir.

Politoloq qeyd edib ki, nəqliyyat dəhlizi ilə bağlı Hindistanın da öz təşəbbüsləri var. Bu, Türk dünyası ilə əlaqəli deyil, öz iqtisadi maraqlarını düşünürlər. Hindistan İran ilə, daha sonra İsrail, Misir vasitəsilə Aralıq dənizi üzərindən yol-nəqliyyat xəttinin açılmasında maraqlıdır. Eyni zamanda, Hindistan da cənub marşrutlarına üstünlük verir. Bu və ya digər şəkildə Hindistanda başa düşürlər ki, ortaq xətt olarsa, imkanları bir qədər azalacaq. Ona görə də çalışırlar ki, Çin – Hindistan – Avropa marşrutu işə düşsün.

Z.Məmmədov vurğulayıb ki, İran Zəngəzur dəhlizindən siyasi məsələlərə görə çəkinir. Ona görə ərazisindən keçən marşrut xəttinə üstünlük verməklə Azərbaycan və Türkiyəni özündən asılı vəziyyətə salmaq istəyir. Bu asılılıq ondan ibarətdir ki, Türkiyə Mərkəzi Asiyaya çıxmaq üçün İranın şimalından istifadə edir. Hərçənd başqa yollardan da istifadə edə bilər. Ona görə də Rəcəb Tayyib Ərdoğanın Laçında Zəngəzur dəhlizi ilə bağlı fikirləri və "İranın da bu məsələdə normal baxışının olması vacibdir" deməsi xüsusi diqqət çəkir. Bu o deməkdir ki, hazırda Azərbaycan və Türkiyə Zəngəzur dəhlizi ilə bağlı Məsud Pezeşkiandan başqa cür yanaşma gözləyirlər.

Əlbəttə bu, ənənəvi İran yanaşmasından fərqli olsa, bölgədə arzuolunan kommunikasiya xətti ilə bağlı daha tez rəy verilə bilər. Hər bir halda biz bu gün görürük ki, beynəlxalq münasibətlər sistemində bütün problemlər kommunikasiya xətləri, ticarət yolları və enerji resurslarının nəqli ilə bağlıdır. Görünən odur ki, Zəngəzur dəhlizi böyük və regional güclər arasında mübarizə və mübahisə predmeti olaraq qalır.

***Azər MUSTAFAYEV***

# Paşinyan II Qaregini rüsvay edir

(əvvəli 1-ci səhifədə)

Hazırda Ermənistanda vüsət alan iqtidar-kilsə qarşıdurması daha çox hakim komanda ilə revanşist və şovinist müxalifətçilər arasında savaş təsiri bağışlayır. İkincilər durumu Nikolun və tərəfdarlarının erməni milli identikliyini məhv etmək siyasətinin nəticəsi kimi təqdim edirlər. Məsələn, Ermənistanın sabiq xarici işlər naziri, iqtidara qarşı sərt çıxışları ilə yadda qalan Vardan Oskanyan bildirib ki, dərin milli böhran şəraitində – "Artsax"ın itirilməsi və yeni ərazi güzəştləri təhlükəsi fonunda rəsmi İrəvandan təvazökarlıq və birliyin möhkəmləndirilməsinə can atmaq gözlənilirdi. Bunun əvəzinə Paşinyan Erməni Apostol Kilsəsinə və onun ruhaniyyətinə qarşı görünməmiş və rəzil ritorika başlatdı: "Onun son sayğısız və təhqiredici bəyanatları təkcə dövlət başçısı üçün yolverilməz deyil, həm də təhlükəlidir. Çünki bu ritorika Ermənistan dövlətçiliyinin təməlini sarsıdır."




Oskanyanın sözlərinə görə, Ermənistanda bir çox institutlar susdurulub və ya tabe etdirilib. Belə bir situasiyada kilsə mənəvi səsini ucaldır. Nəticədə dövlət ona qarşı müharibə elan edir. Onun fikrincə, bu hücumlar İsveçrənin Bern şəhərində keçirilən Ümumdünya Kilsələr Şurasının beynəlxalq konfransına təsadüf edib. Həmin tədbirdə bütün ermənilərin katolikosu və Kilikya katolikosu iştirak edirdi. Forumun məqsədi Dağlıq Qarabağ ermənilərinin mənəvi və mədəni irsini qorumaq idi. Diplomata görə, kilsə beynəlxalq səviyyədə erməni kimliyini müdafiə etdiyi bir vaxtda Paşinyan ölkə daxilində ona qarşı hücuma keçir.

Qeyd edək ki, Ermənistanda bəzi siyasi ekspertlər iqtidar–kilsə qarşıdurmasını Paşinyanın Azərbaycanla münasibətləri yaxşılaşdırmaq və sülh planına dəstək almaq cəhdi kimi qiymətləndirirlər. Digərləri isə durumu ölkə daxilindəki iqtisadi geriləmə, demokratiyanın zəifləməsi və artan vətəndaş narazılığından diqqəti yayındırmaq üçün atılan addım hesab edirlər. Oskanyanın isə öz arqumenti var. Onun fikrincə, Paşinyanın əsas qorxusu kilsənin sarsılmaz nüfuz, geniş ictimai dəstək və mənəvi aydınlıqla onun təcrid olunmuş hakimiyyətinə alternativ gücə çevrilməsidir — həm Ermənistanda, həm də diasporada.

Məlumdur ki, erməni kilsəsi, sadəcə, dini məbəd deyil, eyni zamanda siyasi mərkəz funksiyasını daşıyır. Tarixən də belə olub. Bu mərkəz erməni məkrinin və terrorunun ilhamvericisi kimi çıxış edib. Paşinyan isə 2018-ci ildə hakimiyyətə gəldikdən sonra sekulyar idarəçiliyə üstünlük verib. Onun fikrincə, kilsə köhnə rejimin qalığıdır. "Köhnələrin" bu gün də Paşinyanı devirmək planları var və onların sığınacaq yerlərindən biri də ruhanilikdir. Onlar xalqın gözündəki qəddar obrazlarını kilsənin müqəddəsliyi arxasında gizlədərək hakimiyyətə qayıtmaq arzusundadırlar.

Nikol bu vəziyyətdən xəbərdardır. Buna görə də kilsəni korrupsiyada və rüşvətxorluqda günahlandırır. Hərçənd, Paşinyanın bu tezislərinin erməni cəmiyyətinə təsiri böyük olmamışdır. Yəni bu arqumentlər II Qaregini "taxtdan" salmaq üçün kifayət etmir. Ona görə də hakimiyyət fərqli yol seçib və Paşinyanın son paylaşımında bunun izlərini görürük. Oskanyanın isə sadə erməniləri iqtidara qarşı qaldırmaq niyyəti aydın görünür. Vardan tək deyil: politoloq Karen İgityan da onunla eyni mövqeni bölüşür. Onun sözlərinə görə, "Ermənistanın və erməniliyin simvolları Türkiyə, Azərbaycan, indi isə Ermənistan hakimiyyəti tərəfindən ya məhv edilir, ya da hücuma məruz qalır." O, erməni kilsəsini də həmin simvollardan biri hesab edir və Paşinyana qarşı mübarizəyə çağırır.

Daha bir sərt mövqe isə Ermənistan parlamentinin "Ermənistan" fraksiyasının bəyanatında yer alıb. Bildirilir ki, hakimiyyət kilsəyə və onun yepiskop iyerarxiyasına hücumla daxili parçalanmanı alovlandırır, erməni kimliyinin əsaslarını sarsıdır, mənəvi böhranı dərinləşdirir: "Biz administrasiyanın və rəhbərinin kilsəyə qarşı ritorikasını qətiyyətlə pisləyirik, bunu erməni xalqının ləyaqətinə və birliyinə zərbə kimi qiymətləndiririk."

Erməni Apostol Kilsəsi də Paşinyanın hücumlarına susmaq niyyətində deyil. Bunu Ali Ruhani Şuranın Eçmiədzində çağırdığı növbədənkənar iclas və qəbul edilən sənəd təsdiqləyir. Bəyanatda Paşinyanın ifadələrinin dövlət xadimi üçün qəbuledilməz olduğu, fundamental insan hüquqlarını pozduğu, dindarların hisslərini təhqir etdiyi, kilsənin nüfuzunu sarsıtmağa yönəldiyi bildirilir. Həmçinin vurğulanır ki, bu davranış Ermənistan dövlətçiliyinə və milli birliyə təhlükə yaradır və Azərbaycanın təbliğatına xidmət edir. Eyni zamanda qeyd olunur ki, kilsə ilə bağlı məsələlərin həlli dini qanunlara və nizamnamələrə aiddir, dövlətin və siyasətçilərin səlahiyyətinə daxil deyil.

Göründüyü kimi, Erməni Apostol Kilsəsi revanşist və şovinist qüvvələrin gündəmini, o cümlədən anti-Azərbaycan ritorikasını fəal şəkildə təbliğ edir. Paşinyan isə Eçmiədzindəki toplantıdan əvvəl paylaşdığı postda bildirir ki, Ermənistanda "müqəddəs" adlanan bəzi kafirlik simvolları məsələsinin həlli zəruridir. Şübhəsiz, burada sarkazm obyekti II Qaregindir. Paşinyan əvvəllər ruhaniləri subaylıq andını pozmaqda ittiham etmiş, lakin konkret ad çəkməmişdi. İndi isə artıq hədəfi müəyyənləşdirib: "Əgər məlum olsa ki, II Qaregin subaylıq andını pozub və övladı var, deməli o, bütün ermənilərin katolikosu ola bilməz. Mən bunu hər kəsin şəxsi və ailə həyatına hörmətlə qeyd edirəm. Lakin bütün ermənilərin katolikosunun belə şəxsi həyatı ola bilməz."

Paşinyan məsələni kifayət qədər konkret qoyur. O, durumu şəxsiləşdirməmək üçün çalışır: "Mən bu məsələni Erməni Apostol Kilsəsinin davamçısı kimi qaldırıram. Çünki mənəvi təhlükəsizlik vəziyyətini görürəm. Bunu Ermənistan Respublikasının baş naziri kimi də deyirəm. Burada dövlət təhlükəsizliyi məsələsi də var. Müqəddəs Eçmiədzin vəziyyətlə bağlı mövqeyini açıqlamalıdır."

Baş nazir məsələ ilə bağlı cavabın tez bir zamanda verilməsini tələb edir. O fürsəti əldən vermək istəmir. Bu səbəbdən Ali Ruhani Şuranın bəyanatından dərhal sonra yenidən mövzuya qayıdır: "Müqəddəs Eçmiədzin II Qareginin subaylıq andını pozub-pozmadığını və övladının olub-olmamasını təcili aydınlaşdırmalıdır."

Şübhəsiz ki, qarşılıqlı ittihamlar davam edəcək. Amma indidən bəzi məqamlar aydındır. Birincisi, erməni dindarlığı səmimiyyətdən uzaq və saxta mahiyyət daşıyır. Nikol əbəs yerə II Qareginin övlad məsələsini gündəmə gətirmir; o, katolikosun əxlaqsız davranışlarından məlumatlıdır. İkincisi, gələn il Ermənistanda parlament seçkiləri keçiriləcək. Hakimiyyətə qarşı revanşist qüvvələrin konsolidasiyası müşahidə olunur. Paşinyan anti-kilsə tezisləri ilə bu konsolidasiyanın müqəddəslik aurasını dağıtmağa çalışır. Ümumilikdə isə erməni ictimai-siyasi və mənəvi səhnəsində son dərəcə miskin bir mənzərə formalaşır. Zaman keçdikcə bu mənzərənin yeni təzahürlərinə də şahidlik edəcəyik. Əvvəldə dediyimiz kimi: bu xəmir hələ çox su aparacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ermənistan konstitusiyası sülhün buxovuna çevrilib

**Nikol Paşinyan hakimiyyəti sülh müqaviləsinin imzalanmasını ləngitmək üçün Bakının əsas tələblərini yerinə yetirməmək taktikasını davam etdirir. Məlumdur ki, bu tələblərdən biri Ermənistan konstitusiyasının, daha doğrusu, onun preambula hissəsinin dəyişdirilməsi, əsas qanundan ölkəmizə ərazi iddialarına rəvac verən Müstəqillik bəyannaməsinə istinadın çıxarılması, digəri isə ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı təşkilatın katibliyinə birgə müraciət ünvanlanması ilə bağlıdır.**




Buna baxmayaraq, rəsmi İrəvan özünü sülh tərəfdarı kimi göstərərək bu istiqamətdə məqsədli şəkildə spekulyasiyaya yol verməyə davam edir. Paşinyanın komandasına daxil olan şəxslər mütəmadi olaraq, öz qeyd-şərtləri ilə olsa da, Azərbaycanla sülh sazişi imzalamağa, hətta ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciət etməyə hazır olduqlarını bildirirlər. Aprel ayında Ermənistan parlamentində çıxışı zamanı N.Paşinyan demişdi: "Biz eyni gündə sülh sazişinin imzalanmasını və ATƏT-in Minsk qrupunun buraxılmasını təklif edirik."

Bu açıqlama ilk baxışdan konstruktiv mövqe kimi görünsə də, əslində, rəsmi İrəvanın ikibaşlı siyasət yürütməsinin təzahürüdür. Ermənistan baş naziri bir tərəfdən sülh mesajı verir, digər tərəfdən isə regionda gerçək sülhə xidmət edəcək addımlar atmaq istəmir. Xüsusilə, son vaxtlar şərti sərhəddə atəşkəsin pozulması bunu açıq şəkildə göstərir. Aydın olur ki, Paşinyan hökumətinin populist ritorikası daxili auditoriyaya hesablanıb və regionda sülhə, əmin-amanlığa və sabitliyə xidmət etmir. Bütün bunlar göstərir ki, Ermənistan sülh gündəliyinə sadiq qalmaq əvəzinə, beynəlxalq ictimaiyyəti aldatmağa və vaxt qazanmağa çalışır.

Bir neçə gün öncə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da oxşar açıqlama ilə çıxış edib. O, jurnalistlərin suallarını cavablandırarkən deyib: "Ermənistan sülh müqaviləsinin imzalandığı gün ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı birgə müraciəti də imzalamağa hazırdır." Əlavə edib ki, sülh sazişinin mətni tamamilə razılaşdırılıb.

Bununla belə, A.Qriqoryan sülh sazişinin imzalanmasına əsas maneə olan konstitusiya dilemmasına aydınlıq gətirməyib. "Konstitusiyaya gəldikdə, siz artıq bu məsələdə Ermənistanın mövqeyini bilirsiniz" – deyən Təhlükəsizlik Şurasının katibi İrəvan üçün həssas mövzunun təfərrüatlarından danışmayaraq, tamamilə anlaşılmaz sözlər söyləyib.

*

A.Qriqoryanın səsləndirdiyi bu fikirlər Ermənistanın beynəlxalq ictimaiyyət qarşısında sülhə hazır olması görüntüsü yaratmaq cəhdidir. Lakin rəsmi İrəvanın indiyə qədərki qeyri-səmimi davranışları bu bəyanatlara olan etimadı ciddi şəkildə azaldır. Sülh müqaviləsinin mətni razılaşdırıldığı halda, İrəvanın qeyri-konstruktiv davranışı üzündən onun imzalanmasının bu qədər uzanması işğalçı keçmişə malik ölkənin hələ də başqa məqsədlər güddüyünü göstərir. ATƏT-in Minsk qrupunun buraxılması məsələsində nala-mıxa vurmaq da daha çox danışıqlar prosesini tormozlamağa xidmət edir. Ermənistan tərəfi bu tip açıqlamalarla məsuliyyət yükünü ölkəmizin üzərinə qoymağa çalışır. Halbuki reallıqda sülhə gedən yol qarşılıqlı etimaddan və konkret addımlardan keçir. Gəlişigözəl sözlər bunun üçün kifayət etmir. Rəsmi İrəvanın bu ziddiyyətli davranışları regionda uzunmüddətli sabitliyin təmin olunmasına maneə yaradır.

Ermənistan TŞ katibinin konstitusiya məsələsinə münasibətdə verdiyi qeyri-müəyyən cavab İrəvanın sülh prosesinə dair qeyri-səmimiliyini bir daha ortaya qoyur. Sülh sazişinin imzalanmasının qarşısını alan əsas hüquqi maneənin – Ermənistan konstitusiyasında ölkəmizin ərazi bütövlüyünə zidd müddəaların açıq şəkildə etiraf olunmaması prosesin bilərəkdən uzadıldığını göstərir. Qriqoryanın "siz artıq bu məsələdə Ermənistanın mövqeyini bilirsiniz" kimi diplomatik ifadələri İrəvanın real niyyətlərini gizlətmək cəhdidir. Əgər Ermənistan həqiqətən də sülh istəyirsə, bu məsələ üzrə açıq və konkret mövqe ortaya qoymalıdır. Konstitusiya dilemması Ermənistanın daxili işi kimi təqdim edilsə də, bu sənəd Azərbaycanın suverenliyinə qarşı iddiaları ehtiva etdiyindən, regional sülh baxımından mühüm əhəmiyyət daşıyır. Problemin kökündə dayanan bu ziddiyyət aradan qaldırılmadıqca, sülh müqaviləsinin reallaşması mümkünsüz görünür. Beləliklə, Qriqoryanın qeyri-müəyyən bəyanatları əslində, danışıqların önündə duran əsas siyasi və hüquqi əngəlləri bir daha təsdiqləyir.

Bir daha aydın olur ki, erməni tərəfi mücərrəd bəyanatlarla konstitusiya məsələsinin həllini qeyri-müəyyən müddətə təxirə salmağa çalışır. Görünür, müəyyən müddətdən sonra onu tamamilə sülh sazişindən çıxara biləcəyinə ümid edir. Yəqin ki, Ermənistan hakimiyyəti Azərbaycan üçün prinsipial əhəmiyyət kəsb edən məsələlərdə Bakının mövqeyinin dəyişməz olduğunu hələ də dərk edə bilməyib. Bu isə onu göstərir ki, İrəvan hələ də regional reallıqları tam qəbul etməyə hazır deyil. Halbuki sülh müqaviləsinin imzalanması üçün ilk növbədə, Bakının legitim və ədalətli tələbləri nəzərə alınmalıdır. Əks halda, Ermənistanın atdığı hər addım sülh prosesindən daha çox vaxt udmağa xidmət edəcək.

Bütövlükdə, Ermənistan hakimiyyətinin konstitusiya dəyişikliklərini sonrakı mərhələyə saxlamaq niyyəti sülh prosesinə ciddi zərbə vurur. Qarşı tərəf bu məsələni indiki mərhələdə vacib hesab etməsə də, əslində, bu, Azərbaycanın ərazi bütövlüyünün tanınmasının əsas şərtidir.

Bəli, Ermənistan konstitusiyasında hələ də Azərbaycanın suverenliyinə zidd müddəaların qalması sülhün qarşısında duran başlıca maneədir. Məsələnin 2026, yaxud 2027-ci ildə həllini tapacağını demək, sadəcə, vaxtı uzatmaq və məsuliyyəti gələcək hakimiyyətin üzərinə atmaq cəhdidir. Rəsmi İrəvan bu qərarları özü müstəqil şəkildə verə bilmir, çünki hələ də müəyyən xarici dairələrin – Qərbin müxtəlif ölkələrinin, erməni diaspor və lobbisinin təsiri altındadır. Bu siyasi girovluq Ermənistanın real və müstəqil qərar vermə qabiliyyətini şübhə altına alır. Halbuki regional sabitliyin təmin olunması üçün cəsarətli və prinsipial siyasi addımlar atılmalıdır. Əgər Ermənistan həqiqətən sülh istəyirsə, konstitusiyadakı bu ziddiyyətli müddəaların aradan qaldırılması qaçılmazdır.

Onu da qeyd etmək yerinə düşər ki, İrəvan sülh gündəliyini tormozlamaqla Ankara ilə münasibətlərin normallaşdırılmasını da təxirə salır. Bu da təbii olaraq rəsmi Ankaranın diqqətindən yayınmır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın son günlər Ermənistan tərəfinə ünvanladığı mesajlar buna əyani sübutdur. "Türkiyə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması ilə bağlı prosesi diqqətlə izləyir", – deyən qardaş ölkə lideri Ermənistan rəhbərliyinə Ankara ilə sülhün bərqərar olmasının formulunu bir daha xatırlatmışdı.

Beləliklə, aydın olur ki, İrəvanın sülh gündəliyini ləngitməsi təkcə Bakı ilə deyil, Ankara ilə münasibətlərin normallaşması perspektivinə də ciddi zərbə vurur. Ermənistan rəhbərliyi regionda sabitlik üçün əsas şərtlərdən birinin Azərbaycanla sülh sazişinin imzalanması ilə bağlı olduğunu aydın dərk etməlidir. Məhz bu səbəbdən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan son bəyanatlarında bu əlaqəni açıq şəkildə vurğuladı. Ankara bir daha göstərdi ki, Cənubi Qafqazda sülhün bərqərar olması vahid yanaşma tələb edir və bu yanaşma Bakı–İrəvan münasibətlərinin normallaşmasından keçir. Prezident Ərdoğanın "prosesi diqqətlə izləyirik" deməsi əslində, bir xəbərdarlıqdır. Yəni prosesdə qeyri-səmimilik Türkiyə–Ermənistan münasibətlərini də çıxılmaz duruma sala bilər. İrəvanın bu həssas məqamda ləngitmə siyasəti yürütməsi isə onu regionda daha da təcrid edə bilər. Çünki Bakı və Ankara üçün sülh yalnız diplomatik sənəd deyil, həm də sabitliyin və qarşılıqlı etimadın açarıdır. Odur ki, rəsmi İrəvan ya regional əməkdaşlığı seçməli, ya da təcridolunma siyasətini davam etdirməlidir.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**Ramiyə MƏMMƏDOVA, politoloq**

– Paşinyan hökuməti həm daxili, həm də xarici siyasətində ciddi çağırışlarla üz-üzədir. İqtidar komandasının bir tərəfdən müxalifət, digər tərəfdən kilsə ilə problemləri böyüyüb. Rusiya ilə Ermənistanın münasibətlərinin hansı səviyyədə olduğu da göz önündədir. Bütün bunlara rəğmən, Paşinyan Azərbaycanla sülh sazişi imzalamaqdansa, müxtəlif bəhanələr uyduraraq prosesi əngəlləməyə çalışır. Konstitusiya dəyişikliyinə getmək istəmir. Eyni zamanda, ATƏT-in Minsk qrupunun ləğvi məsələsində də aydın və birmənalı mövqe nümayiş etdirmir. Təsadüfi deyil ki, Paşinyan apreldə parlamentdə ATƏT-in Minsk qrupunun de-fakto daha geniş kontekstə malik olduğunu demişdi. Onun sözlərinə görə, İrəvan əmin olmaq istəyir ki, Azərbaycan ATƏT katibliyinə birgə müraciəti münaqişənin öz ərazisində bağlanması və Ermənistan ərazisinə keçirilməsi istiqamətində atılan addım kimi qiymətləndirməyəcək. Paşinyanın bu açıqlaması, əslində, Ermənistanın sülh prosesini şərtləndirməyə çalışdığını və məsələni süni şəkildə mürəkkəbləşdirdiyini göstərir. Minsk qrupunun artıq öz aktuallığını itirdiyi şəraitdə onun daha geniş kontekst daşıması barədə iddialar reallıqdan uzaq və manipulyativ xarakter daşıyır. Əgər İrəvan doğrudan da sülh istəyirsə, münaqişənin bitdiyini qəbul etməli və Azərbaycanın daxili işlərinə qarışmaq cəhdlərindən imtina etməlidir.

# Azərbaycan xalqının siyasi identikliyi: azadlıqsevərlik

**II məqalə**

## Dövlətçilik ənənəsi – yaddaş "kod"u

Hər hansı bir xalqın birgəyaşam fəlsəfəsi özünəməxsus və mürəkkəb fenomendir. Müasir tədqiqatlar göstərir ki, onun ən bariz təzahürü cəmiyyət üçün dərin siyasi, ideoloji, mənəvi və mədəni böhranın yarandığı dönəmdə özünü göstərir. Bu baxımdan keçən əsrin son onilliyi Azərbaycan xalqının şüurunda dövlətçilik ənənəsinin yaddaş "kod"u kimi yeri və rolunun dərki çox əhəmiyyətlidir.

Şüurda dövlətçilik ənənəsinin, obrazlı desək, 1988-2003-cü illərdə "sınaq müddəti"ni iki mərhələyə bölmək olar. Birinci mərhələ 1988-1993-cü illəri əhatə edir.

## 1988–1993-cü illər

Niyə təhlili 1988-ci ildən başladığımızı izah edək. Əslində, bu prosesin kökü XIX əsrin əvvəllərindən Qərb və Rusiya imperiya dairələrinin sistemli və davamlı həyata keçirdikləri antitürk, antimüsəlman siyasətlərinə gedib çıxır. XIX əsrin əvvəllərindən etibarən bu prosesi genişləndirərək türkləri (o cümlədən, qərbi azərbaycanlıları) öz yurdlarından didərgin salmağa başladılar. Bir neçə deportasiya dalğasından sonra artıq XX əsrin ikinci onilliyi ərəfəsində ermənilərə qondarma dövlət yaratmaq üçün lazımi geosiyasi, siyasi, hərbi və demoqrafik şərait yaratmışdılar. Bunun real təzahürləri sırasında milyonlarla azərbaycanlının aborigen olduğu Qərbi Azərbaycan ərazisindən vəhşicəsinə qovulması xüsusi yer tutur. Həmin mövzuda Azərbaycan tədqiqatçıları sanballı əsərlər yazmışlar.

1917-ci il inqilabından sonra, 1918–1920-ci illərdə sovetlərin yaranması nəticəsində azərbaycanlıların ərazilərinə təcavüzlərin və insanların oradan qovulmasının yeni, daha qəddar mərhələsi başladı. SSRİ dönəmində isə bu, xüsusi hiyləgər, vəhşətli və amansız forma aldı. Heydər Əliyevin 1969-cu ildə Azərbaycan SSR-ə rəhbər gəlməsi ilə həmin proses dayandı. Lakin Moskvanın gizli fəndləri ilə ermənilərin təşkilatlanması və fürsət yarananda Azərbaycana və azərbaycanlılara qarşı qəddarlığı davam etdirməyə hazırlaşdığı indi sübut olunmuş tarixi faktdır.

Nəhayət, SSRİ-də yaranmış geniş və dərin böhran fonunda 1987-ci ildən başlayaraq erməni ultramillətçi, faşist və antisivil planları yenidən "xortladı". Bu prosesin fonunda 1988-1993-cü illərdə



Azərbaycan xalqının psixologiyasında və şüurunda dövlətçilik ənənəsinin nə dərəcədə yer aldığını nəzəri aydınlaşdırmaq üçün məsələyə üç istiqamətin "siyasi kəsişmə sahəsi"ndə baxaq:

Birincisi, ermənilərin öz havadarlarının ciddi dəstəyi ilə həyata keçirdikləri təcavüzün azərbaycanlıların psixologiyasına təsirinin siyasi əlamətləri.

İkincisi, Azərbaycan SSR-in o dövr rəhbərliyinin antiazərbaycan xarakterli prosesə reaksiyasının xalqın siyasi şüuruna və psixologiyasına təsiri.

Üçüncüsü, Azərbaycan cəmiyyətinin bütün bu proseslərə tarixi ənənəsindən gələn mənəvi, mədəni, dövlətçi faktorların "kodları" əsasında verdiyi reaksiyanın özəllikləri.

## Mürəkkəb psixoloji məqam

Bu dönəmdə azərbaycanlılar və Azərbaycan SSR üçün mürəkkəb psixoloji məqam ondan ibarət idi ki, həmin illərdə xalq Azərbaycan SSR-də yaşayırdı. Onun XX əsrin son onilliyində siyasi taleyində çox ciddi tarixi iz buraxan hadisələr məhz 1987-ci ildən başlamışdı. Proses 1988-ci ildə yeni vüsət almış və sonrakı illərdə davam etmişdir.

Azərbaycanlıları çaşdıran vəziyyət sovetlərin tərkibində "qardaş" kimi təbliğ edilən Ermənistan SSR-in təcavüz etməsi idi ki, Moskvanın bundan xəbərsiz olduğuna əsassız inam vardı. Faktlar isə göstərir ki, Azərbaycan SSR-ə, bütün azərbaycanlılara və xüsusilə, qərbi azərbaycanlılara qarşı genişmiqyaslı məhvetmə siyasətinin yeni mərhələsi başlamışdır. Onun mahiyyətində sovet hakimiyyətinin birbaşa ideoloji, informasiya, siyasi və hərbi dəstəyi ilə Azərbaycan SSR-in torpaqlarını işğal etmək və Qərbi Azərbaycandan kütləvi şəkildə azərbaycanlıları deportasiyaya uğratmaq əsas yer tuturdu. Bu prosesdə açıq və gizli təsirlər bir-birini tamamlayırdı.

Nəticədə 1987-ci ilin dekabr, 1988-ci ilin yanvarında Ermənistan SSR-in Qafan və Meğri rayonlarından ilk azərbaycanlı qaçqınlar Azərbaycan SSR-ə gəldilər (yenə başıbəlalı Zəngəzur!). Bu fakt uzun müddət Azərbaycan cəmiyyətindən gizli saxlandı. 1988-ci ilin fevralında DQMV-nin erməni deputatları bu qədim Azərbaycan torpağının Ermənistana birləşdirilməsi ilə bağlı bədnam qərar qəbul etdilər.

Bakıdan rədd cavabı aldıqdan sonra deportasiyanın yeni mərhələsi elan olundu: "Türksüz Ermənistan". Paralel olaraq SSRİ DTK-sı Sumqayıtda antierməni iğtişaşı təşkil etdi və bütün günahları azərbaycanlıların üstünə atmağa başladılar. Bu kimi ssenarilər son 300 ildə azərbaycanlılara qarşı dəfələrlə qurulmuşdu. Lakin biz bunlardan məlumatsız idik, çünki imperiya gizli siyasət aparırdı.

## Azərbaycan SSR-in sonuncu rəhbərliyi

Vəziyyətin azərbaycanlıların şüuruna və şüuraltına neqativ təsir etdiyi şübhəsizdir. Lakin bu, bəlanın yalnız yarısı idi. Çünki o dövrdə Azərbaycan SSR rəhbərliyi tamamilə "dişsiz" hərəkət edirdi. Rəhbərlik Mərkəzə müqavimət göstərmir, müxtəlif üsullarla günahı yurdlarından didərgin salınanların üstünə atır, milli ayrı-seçkiliyə aparan terminlər icad edir (məsələn, "yeraz"), deportasiya olunanları Dağlıq Qarabağa yönəltmirdi.

Bütün bunlar Azərbaycan cəmiyyətində psixoloji qeyri-müəyyənliyi artırır, sosial-ideoloji apatiyaya səbəb olurdu. Bu məqamı azərbaycanlıların dövlətçilik şüurunun ən çətin anları kimi xarakterizə etmək olar.

## Xalqın direnişi

Azərbaycan xalqının şüuri, psixoloji və fəal direnişi tarixdə həmişə yaddaşlarda qalacaq. Müxtəlif istiqamətlərdən gələn psixoloji təzyiqləri bu xalq səbr, təmkin və müdrikliklə "həzm" etdi ki, dünya heyrətə gəldi. Düşmənlər hər an gözləyirdilər ki, Azərbaycan insanı "düşəcək", təslim olacaq. Ancaq Azərbaycan xalqının tarixdən gələn dövlətçilik ənənəsinin psixoloji, mənəvi, mədəni və ideoloji gücündə gizli bir immuniteti var idi.

Bu faktor açıq görünmür, onu məğlub etmək mümkün deyil, çünki hardan və necə təzahür edəcəyini öncədən bilmək mümkün deyil. Dövlətçilik ənənəsinin dəyişməz "kodları" birgəyaşam mühitində fəaliyyət göstərdiyindən konkret məkanını müəyyən etmək mümkün deyil.

Buna görə də xarici qüvvələrin təzyiqləri, daxili rəhbərliyin dişsizliyi, Moskvanın birtərəfli hüquqi mövqeyi azərbaycanlıların "dövlətçilik kodlarını sındıra" bilmədi. (Sübut: SSRİ Ali Sovetinin 14 mart 1991-ci il və 14 noyabr 1989-cu il tarixli qərarlarında Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın adı yoxdur.)

## 1993–1995-ci illər: siyasi identikliyin dirçəlişi

Azərbaycan xalqı məharətlə siyasi identikliyini birləşmək və müstəqil olmaq istiqamətində yenidən təsdiqlədi. İlk addım xilaskar kimi qəbul etdiyi Heydər Əliyevi hakimiyyətə dəvət etməklə atıldı.

Heydər Əliyev xalqa qələbə inamını qaytardı. 1993-cü ilin yayında Milli Məclisdə dediyi "Azərbaycan əbədi müstəqil olacaq, heç bir dövlətin təsiri altında olmayacaq. Azərbaycan xalqı azadlıqsevər xalqdır!" tezisi bu mənada mühüm yer tutur.

Bu fikri fəaliyyətinin hər anında təsdiqləyən Heydər Əliyev 1993-cü ilin iyunundan etibarən cəmiyyətin sosial-psixoloji və ideoloji nikbin məcraya düşməsi üçün addımlar atdı. Onları belə qruplaşdırmaq olar:

Birincisi, cəmiyyətin özünə inamının bərpası. "Mən fəxr edirəm ki, azərbaycanlıyam" kəlamı xalqın kimlik böhranını aradan qaldırdı.

İkincisi, ideoloji mühitin formalaşması. 1993-cü ildən Azərbaycançılıq ideyası ciddi ideoloji sistemə çevrildi. Azərbaycançı olmaq ölkəni, mədəniyyəti, dili, dini, adət-ənənəni sevməkdən və qorumaqdan başlayır. Bu ideologiya sonradan daha da möhkəmləndi.

Üçüncüsü, multikultural dəyərlərin qorunması və inkişafı. Bu amil cəmiyyətin parçalanmasının qarşısını aldı. Xüsusən, etnik, dini və mədəni qütbləşdirmə cəhdləri qarşısında Azərbaycan rəhbərliyinin multikulturalizm siyasəti mühüm əhəmiyyət daşıdı.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

---

# İrəvanın sülh ritorikası: təzadlı bəyanatlar, təxribatçı addımlar

**"Ermənistan Respublikası mövcud çətinliklərə baxmayaraq, Cənubi Qafqazda ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanan davamlı sülhün təmin olunması üçün səylər göstərir". Bunu Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan deyib.**

V.Kostanyan Ermənistan və Azərbaycanın 1991-ci il Alma-Ata Bəyannaməsində yer alan qarşılıqlı öhdəliklərini təsdiqlədiyini vurğulayıb və regionda sülh və birgəyaşayış dövrünün başladığını qeyd edib. O bildirib ki, Ermənistan və Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulmasını nəzərdə tutan saziş üzrə danışıqlar artıq başa çatıb və Ermənistan həmin sazişi imzalamağa və ratifikasiya etməyə hazırdır: "Biz ardıcıl olaraq Azərbaycanla münasibətlərin normallaşmasına sadiqik. Bu sənəd bütün tərəflərin narahatlıqlarını və iradələrini özündə əks etdirir və imzalanması problemin həllinə ən aydın və qısa yoldur".

Nazir müavini əlavə edib ki, iqtisadi əlaqələrin və regional kommunikasiyaların bərpası etimad mühitinin formalaşmasına və əməkdaşlığın dərinləşməsinə təkan verə bilər. O, xüsusilə Zəngəzur bölgəsini infrastruktur, nəqliyyat və enerji sahələrində əməkdaşlıq üçün potensial baza kimi təqdim edib. Bununla belə, Kostanyan sərhəddə baş verən atışmalara da toxunaraq, onların ümumi sülh atmosferinə mənfi təsir göstərdiyini etiraf edib. Bildirib ki, gərginliyin qarşısını almaq üçün müvafiq diplomatik tədbirlər görülür.

Bununla da Kostanyan açıq şəkildə etiraf edib ki, baş verən atışmalar bölgədəki ümumi vəziyyətə mənfi təsir göstərir. Açıqlamasında Ermənistanın sülh prosesinə sadiq olduğunu nümayiş etdirməyə çalışan Kostanyan sərhəddə baş verən insidentlərdə kimin cavabdehlik daşıdığını açıqlamır.

Əslində, hamıya məlumdur ki, Ermənistan–Azərbaycan şərti sərhədində atəşkəsin pozulmasının günahkarı Ermənistan silahlı qüvvələridir. Bu, artıq tək-tük insident deyil, sistemli hal alıb. Azərbaycan Müdafiə Nazirliyinin mütəmadi olaraq yaydığı məlumatlarda Ermənistanın müxtəlif istiqamətlərdə atəşkəsi pozduğu və nəticədə Azərbaycan tərəfinin cavab tədbirləri gördüyü bildirilir. Qeyd olunur ki, bu cür təxribatlar beynəlxalq hüquq normalarına ziddir və regionda gərginliyi artırmaqla yanaşı, sülh səylərinə də zərbə vurur.



Eyni zamanda, atəşkəsin pozulması təkcə hərbi təxribat deyil, həm də Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş açıq təhdiddir. Ermənistanın bu davranışı beynəlxalq hüququn, xüsusilə də BMT Nizamnaməsi və Helsinki Yekun Aktının prinsiplərinə ziddir. Göründüyü kimi, atəşkəs rejimini pozanların diplomatiyadan dəm vurması manipulyasiyadan başqa bir şey deyil. Aydın məsələdir ki, sülhə aparan yolda heç bir təxribat cavabsız qalmayacaq. Atəşkəsi pozanlar layiq olduqları cəzanı alacaqlar.

Rəsmi İrəvan beynəlxalq hüquqa və regional sabitliyə sadiqliyini bəyan etsə də, onun hərbi strategiyası bu ritorika ilə üst-üstə düşmür. Çünki Hayastan hərbi büdcəni artırır, müxtəlif ölkələrdən hücum xarakterli silahlar əldə edir. Hökumət bunu ölkənin müdafiə qabiliyyətinin artırılması ilə izah etməyə çalışsa da, əslində, bölgədə militarizmin təşviqçisi kimi çıxış edir. Kasıb büdcəyə malik Hayastanın silahlanmaya böyük vəsait ayırması sülh istəyi barədə verdiyi bəyanatların səmimiliyini şübhə altına alır. Sülh istəyən ölkənin paralel şəkildə silahlanmaya üstünlük verməsi, sərhəd boyu yeni hərbi mövqelər qurması və ya müxtəlif formatlarda təxribatlara yol verməsi sülh gündəliyinə uyğun gəlmir. Hayların Kostanyanın simasında təqdim etdiyi "sülh ritorikası" gerçəkliyi əks etdirmir.

Görünən odur ki, təkcə Ermənistanın deyil, eyni zamanda, ona silah satan dövlətlərin də əsas məqsədi bölgədə qalıcı münaqişəni təmin etməkdir. Bu ölkələrin önündə Fransa və Hindistan gəlir. Fransa başda olmaqla Qərb Cənubi Qafqazda hər vəchlə sülh prosesinə mane olmağa çalışır. Hazırda Ermənistanda yenidən revanşizm əhval-ruhiyyəsi baş qaldırır, yeni müharibəyə hazırlıq gedir. Dövlət rəsmilərinin açıqlamaları "gözdən pərdə" asmaqdan başqa bir şey deyil.

*

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması indiki şərtlər daxilində mümkün deyil. Regionda uzunmüddətli və möhkəm sülh boğazdan yuxarı bəyanatlarla yox, əməli və hüquqa əsaslanan konkret addımlarla mümkündür. Ermənistan səmimi şəkildə sülh istəyirsə, öz konstitusiyasında ərazi iddialarına son qoymalı, atəşkəsi pozan tərəf kimi məsuliyyəti üzərinə götürməli və prosesi ləngitmək cəhdlərindən əl çəkməlidir. Azərbaycan tərəfi buna diqqət çəkir və bunsuz sülh müqaviləsinin imzalanmasını çətin hesab edir.

Bundan başqa, sərhədlərin demarkasiyası və delimitasiyası həll olunmalıdır. Bu prosesi tam obyektiv və hüquqi çərçivədə həyata keçirilməlidir. Eyni zamanda, dəhliz problemi həllini tapmalıdır. Sülh müqaviləsinin mətnində bu barədə yazılmayıb, amma praktikada bu məsələlərin həlli demək olar ki, daha vacibdir.

Azərbaycan və Ermənistan arasında münasibətlərin əsas mübahisə mövzularından biri də Zəngəzur dəhlizinin statusu və fəaliyyəti ilə bağlıdır. Bu dəhliz Azərbaycan üçün strateji əhəmiyyət kəsb edir, Naxçıvan Muxtar Respublikası ilə quru əlaqəsini təmin edir və regional nəqliyyat xətlərinin açılması üçün açar rolunu oynayır. Ermənistan isə dəhlizin açılması ilə bağlı təhlükəsizlik narahatlıqlarını əsas gətirərək, onun maneəsiz keçid statusuna qarşı çıxır. Göründüyü kimi, Ermənistan hələ ki, nə konstitusiyasında dəyişiklik etməyə, nə də kommunikasiyaların açılmasına tələsir.

Bəli, "Ermənistan bir tərəfdən sülhdən danışır, digər tərəfdən sülh müqaviləsininin imzalanmasına mane olan addımlar atır. Hətta Ermənistan xarici işlər nazirinin müavinin sülh sazişinin son versiyası ilə razılaşaraq, sənədi imzalamağa hazır olduqları ilə bağlı açıqlaması bu ölkənin son iki il yarımda danışıqların mətninə qəbuledilməz təkliflər irəli sürməklə prosesə necə mane olduğunu nümayiş etdirir. Sanki ortada qeyd etdiymiz problemlər yoxdur. İrəvan sülh müqaviləsinin imzalanmasına mane olan problemlərin aradan qaldırılmasına çalışmaq əvəzinə, Azərbaycanı sülhdə maraqlı olmayan ölkə kimi qələmə verməklə manipulyasiya edir. Azərbaycan heç vaxt işğalçılıq siyasəti yürütməyib və bölgəni qarşıdurma məkanına çevirməkdə maraqlı olmayıb. Məhz Bakının diplomatiyasının fəallığı nəticəsində sülh sazişinin mətn üzrə danışıqlar yekunlaşa bildi. Amma, bu, Ermənistanın konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə təhdid yaradan müddəaların gözardı edilməsinə əsas vermir. Eləcə də Ermənistanın keçmiş münaqişənin qalıqları olan ATƏT-in Minsk qrupunu qorumağa çalışan hərəkətlərinə etinasız yanaşacağımız anlamına gəlmir.

Sonda qeyd edək ki, regionda davamlı sülhün təmin olunması bəyanatlarla deyil, siyasi iradə ilə mümkündür. Ermənistanın manipulyativ mövqeyi bu prosesi ləngidir. Əgər sülh, doğrudan da, hədəfdirsə, o zaman bu hədəfə aparan yolda təxribatlara son qoyulmalı, əldə olunan razılaşmalar əməli şəkildə həyata keçirilməlidir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Bakı Enerji Forumu: Müzakirə və mübadilə platforması

**Dünən Bakı Konqres Mərkəzində 30-cu Bakı Enerji Forumu öz işinə başlayıb. Dünya ölkələrinin energetika nazirlərini, dövlət qurumlarının və biznes strukturlarının nümayəndələrini, tanınmış ekspertləri, enerji sektorunda fəaliyyət göstərən şirkət təmsilçilərini bir araya gətirən bu mötəbər toplantı beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, qabaqcıl təcrübələr mübadiləsi, eləcə də regionun enerji sektorunun inkişafına təsir göstərən yeni sazişlərin imzalanması üçün əsas platformaya çevrilib.**



Azərbaycanın Energetika Nazirliyinin dəstəyi ilə keçirilən Bakı Enerji Formuna Dövlət Neft Şirkəti baş tərəfdaş qismində çıxış edir. Eyni zamanda, toplantı Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) tərəfindən dəstəklənir. Təsadüfi deyil ki, OPEC-in baş katibi Haysam Əl-Qays Bakı Enerji Forumunun iştirakçılarına salamlama məktubu ünvanlayıb. Məktubda forumun qlobal enerji sektorunda dialoq və əməkdaşlıq üçün mühüm platforma olduğu vurğulanır.

Forumun ilk iş günündə energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə "Dayanıqlı və davamlı enerji gələcəyi naminə qlobal əməkdaşlıq" mövzusunda plenar sessiya keçirilib. Sessiyada çıxış edən nazir P. Şahbazov bildirib ki, Azərbaycan qeyri-sabit dünyada etibarlı enerji təhlükəsizliyinin nümunəvi modelini formalaşdırıb. Xəzər dənizini beynəlxalq enerji bazarları ilə birləşdirən Bakı – Tbilisi – Ceyhan, Bakı – Tbilisi – Ərzrum və Cənub Qaz Dəhlizi kimi strateji layihələr sayəsində Azərbaycanın bu gün neftini 25, təbii qazını isə 12 ölkəyə uğurla ixrac etdiyini diqqətə çatdıran nazir deyib ki, ötən il ölkəmizin neft ixracının 75 faizindən çoxu, təbii qazın isə 51 faizi Avropa ölkələrinə tədarük olunub. Nazirin sözlərinə görə, qısa müddət ərzində boru kəməri ilə qaz nəqlinin coğrafi əhatəsinə görə dünyada qabaqcıl mövqe tutan Azərbaycan, Avropa İttifaqına boru kəməri ilə nəql olunan qazın həcminə görə 7 faiz payla dördüncü təchizatçıdır.

Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin bütün növ enerji resurslarına rasional və balanslaşdırılmış yanaşması, eləcə də ixrac infrastrukturunun inkişafına yönəlmiş qətiyyətli siyasəti ölkəmizin müasir enerji xəritəsində strateji mövqeyini möhkəmləndirərək qeyri-sabit bir dünyada etibarlı enerji təhlükəsizliyinin nümunəvi modelini formalaşdırıb. Azərbaycan təbii qaz ehtiyatlarının inkişafının yeni mərhələsinə daxil olduğunu, hazırda bu məqsədlə 5 iri layihənin həyata keçirildiyini vurğulayan P. Şahbazov deyib ki, etibarlı enerji təchizatçısı olaraq ölkəmizin qaz sənayesinin davamlı inkişafı strateji əhəmiyyət daşıyır.

Nazir Bakı Enerji Həftəsi ərzində imzalanan əsas sazişlər barədə də məlumat verib. Bildirilib ki, TPAO-nun "Şəfəq-Asiman" layihəsində iştirakı, "ExxonMobil" şirkəti ilə quruda neft və qaz üzrə müqaviləsi, MOL, ITOCHU və "Gran Tierra Energy" ilə əlavə sazişlərin hamısı özündə əhəmiyyətli irəliləyişi ehtiva edir.

Energetika naziri qeyd edib ki, 2030-cu ilə qədər 2 min 700 meqavatadək külək və günəş enerjisinin Azərbaycanın milli şəbəkəsinə inteqrasiyası, təxminən, 1,5 milyard kubmetr təbii qaza qənaət etməyə imkan verəcək: "Bu da əlavə enerji təchizatı mənbəyidir. Lakin bu həcmləri səmərəli şəkildə nəql etmək üçün biz Cənub Qaz Dəhlizi daxil olmaqla regional ötürücü infrastrukturumuzu genişləndirməliyik. Yeni bazarları təmin etmək və mövcud tərəfdaşlar üçün həcmləri artırmaq məqsədilə, "upstream" investisiyalarını dəstəkləmək və alıcı zəmanətlərini təmin etmək eyni dərəcədə vacibdir".

Nazirin fikrincə, son bir neçə il göstərib ki, enerji təhlükəsizliyini artıq əvvəlki kimi qəbul etmək olmaz. Neft və qazın etibarlı təchizatını təmin etməyin həyati əhəmiyyət daşımağa davam etdiyini vurğulayan P. Şahbazovun sözlərinə görə, karbohidrogenləri tamamilə aradan qaldırmağa çalışan model bu mərhələdə qeyri-realistikdir və enerji keçidinə birtərəfli yanaşma ciddi risklər yarada bilər. "Son 30 ildə ilkin enerji istifadəsində karbohidrogenlərin qlobal payı yalnız cüzi şəkildə, yəni cəmi 5 faiz dəyişib. Bu gün karbohidrogenlər hələ də ABŞ-da ilkin enerji istehlakının 80 faizindən çoxunu, Çində, təxminən, 90 faizini və Avropa İttifaqında 70 faizini təşkil edir. Bu göstərir ki, alternativ enerji mənbələri ənənəvi olanları əvəz etmir, onları tamamlayır", – deyə o, əlavə edib. P.Şahbazov vurğulayıb ki, buna görə də, neft və qazın qlobal enerji balansında davam edən mərkəzi rolunu və bunun gələcək illər ərzində belə qalacağı ehtimalını nəzərə alaraq, bu sektora maliyyələşdirmənin vaxtında olması və gecikdirilməməsi vacibdir.

Azərbaycanın növbəti 2 il ərzində 10 günəş və külək elektrik stansiyasının istifadəyə verilməsi ilə "yaşıl" enerji inkişafının birinci mərhələsini tamamlayacağını diqqətə çatdıran nazir deyib ki, bu ilin sonunadək 240 meqavatlıq külək elektrik stansiyasının inşası yekunlaşacaq, ümumi gücü 1240 meqavat olan 4 əlavə stansiyanın isə artıq təməli qoyulub: "Bu il, ümumi gücü 200 meqavat olan daha 3 günəş stansiyasının tikintisinə başlayacağıq və 100 meqavat gücündə üzən günəş enerjisi layihəsi üçün hazırlıq işləri aparılır. Ümumi investisiya həcmi 2,7 milyard ABŞ dolları olan bu layihələrlə, 2027-ci ilə qədər Azərbaycanın quraşdırılmış gücündə bərpa olunan enerji payının 33,7 faizə çatacağı gözlənilir". Ölkəmizdə bu rəqəmin 2030-cu ilə qədər 38 faizə, 2035-ci ilə qədər isə 42,5 faizə çatdırılması nəzərdə tutulduğunu bildirən P.Şahbazov deyib ki, növbəti 5 ildə 6 qiqavatdan çox "yaşıl" enerji gücü həm quruda, həm də dənizdə inkişaf etdiriləcək və bunun 4 qiqavatı ixrac üçün nəzərdə tutulub.

Pakistanın neft naziri Əli Pərviz Malik çıxışında bildirib ki, ölkəsi Azərbaycanla enerji sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Onun sözlərinə görə, Pakistan enerji sahəsində dayanıqlı inkişafa böyük önəm verir və Azərbaycanı bu prosesdə vacib tərəfdaş kimi nəzərdən keçirir. Pakistanın qaz infrastrukturu sahəsində, o cümlədən region ölkələrini birləşdirən boru kəmərlərinin tikintisi imkanlarını da əhatə edən birgə əməkdaşlığa hazır olduğunu vurğulayan nazir Azərbaycanın bu sahədəki köməyini yüksək dəyərləndirib.

Somali Federativ Respublikasının energetika və su ehtiyatları naziri Abdullahi Bidxan Varsame isə vurğulayıb ki, ölkəsi enerji sahəsində Azərbaycanla tərəfdaşlığa böyük önəm verir. Onun sözlərinə görə, Somali Azərbaycanla strateji tərəfdaşlığı yüksək qiymətləndirir və təmiz enerji sahəsində əməkdaşlığın dərinləşdirilməsinə çalışır: "Enerji sektorunun keçidi ilə bağlı səylərimiz çərçivəsində Somali Azərbaycanın Energetika Nazirliyi ilə bərpa olunan enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair qarşılıqlı Anlaşma memorandumu imzalayıb".

Avropa Komissiyasının Enerji üzrə Baş Direktorluğunda enerji platforması və beynəlxalq əlaqələr üzrə direktor Kristina Lobillo Borrero çıxışında Avropanın enerji keçidində Azərbaycanı etibarlı tərəfdaş hesab etdiyini vurğulayıb. Onun sözlərinə görə, Avropa İttifaqı enerji keçidi istiqamətində inamla irəliləməyə davam edir və tarixində ilk dəfə olaraq ənənəvi mənbələrlə müqayisədə bərpa olunan enerji mənbələrindən daha çox elektrik enerjisi istehsal edib. Enerji təhlükəsizliyi məsələsinin, xüsusən geosiyasi qeyri-sabitlik şəraitində, Avropa İttifaqı üçün prioritet olduğunu bildirən direktor bu sahədə Azərbaycanı etibarlı tərəfdaşlığın nümunəsi adlandırıb. Avropa İttifaqının nümayəndəsi, həmçinin beynəlxalq əməkdaşlığın, resurslara çıxış məsələlərində şəffaflığın və dayanıqlı enerjiyə investisiyaların cəlb edilməsinin əhəmiyyətini vurğulayıb, qlobal enerji dialoqunun qurulmasında COP29 və Bakı Enerji Forumu kimi platformaların oynadığı rolu xüsusi qeyd edib.

Türkiyənin energetita və təbii sərvətlər nazirinin müavini Əhməd Berat Çonkar deyib ki, ölkəsi bərpa olunan enerji mənbələrinin inkişafına irimiqyaslı investisiyalar yönləndirməyi planlaşdırır. "Bizim milli enerji planımızda bərpa olunan enerji mənbələrinə irimiqyaslı investisiyaların qoyuluşu nəzərdə tutulur. Hazırda bizim əldə etdiyimiz gücün 60 faizi məhz bərpaolunan enerji mənbələrinə payına düşür ki, bu da bizi bu göstəriciyə görə Avropada beşinci, bütün dünya üzrə isə on birinci edir".

Çexiyanın milli təhlükəsizlik üzrə müşavirinin müavini Tomaş Poyar isə qeyd edib ki, iki həftə sonra Azərbaycan nefti rəsmən Çexiyanın dövlət ehtiyatlarına daxil ediləcək. Çexiyanın Azərbaycan neftinin ikinci ən böyük idxalçısı olduğunu vurğulayan məruzəçi, həmçinin Azərbaycan qazının Çexiyanın enerji balansının mühüm tərkib hissəsi olduğunu diqqətə çatdırıb.

Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf nazirinin müavini Vaxtanq Tsintadze isə çıxışında Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mərkəzi rol oynamağa davam etdtiyini diqqətə çatdırıb, ölkələrimiz arasındakı strateji tərəfdaşlığı isə enerji sahəsi üçün nümunə kimi dəyərləndirib. Gürcüstanın lap əvvəldən Azərbaycanla birlikdə Cənub Qaz Dəhlizi layihəsinin bir hissəsi olduğunu vurğulayan nazir müavini bu dəhlizi Avropa üçün etibarlı enerji mənbəyi adlandırıb.

Nazir müavini həmçinin "yaşıl" enerji sahəsindəki birgə layihələrin – Gürcüstan – Rumıniya interkonnektoru və Azərbaycan – Gürcüstan – Rumıniya – Macarıstan enerji dəhlizinin əhəmiyyətini vurğulayıb. Onun sözlərinə görə, bu təşəbbüslər tədarük marşrutlarının şaxələndirilməsinə və Avropa İttifaqının enerji dayanıqlığının möhkəmləndirilməsinə töhfə verəcək.

SOCAR-ın prezidenti Rövşən Nəcəf forumdakı çıxışı zazmanı Azərbaycanın karbohidrogen sektoruna böyük investisiya marağının müşahidə olunduğunu vurğulayıb. Qeyd olunub ki, son iki gündə imzalanmış sənədlər şirkətin layihə portfelinin genişlənməsinə, Azərbaycanda neft və qaz hasilatının artmasına və bərpa olunan enerji istehsalının inkişafına təkan verəcək əlavə investisiyalara yol açır: "Bərpa olunan enerji mənbələrinə gəlincə, bir çox ölkələrin – bəlkə də bütün ölkələrin – qarşısında duran əsas vəzifə elektrik enerjisi şəbəkələrinin ötürmə qabiliyyətinin artırılmasıdır ki, hasil edilən elektrik enerjisi yalnız daxili bazarda istifadə olunmasın, həm də ixraca yönəldilə bilsin. Belə infrastrukturun inkişafı dövlətlərarası sıx əməkdaşlıq tələb edir, çünki elektrik enerjisinin kütləvi istehsalı yalnız bir neçə ölkə bu prosesə cəlb olunduqda mənalı və səmərəli olur. Bu isə daha iri həcmlərə çıxmağa imkan verir", – deyə o vurğulayıb.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz isə vurğulayıb ki, təmsil etdiyi şirkət Xəzər dənizində dayanıqlı enerji keçidinə hədəflənib. Onun sözlərinə görə, şirkət ənənəvi neft-qaz layihələrini inkişaf etdirilməsi ilə yanaşı, karbonsuzlaşdırma və bərpa olunan enerji sahəsində iri miqyaslı investisiyaların ayrılmasına diqqət ayırır. O, həmçinin bildirib ki, Azərbaycan xüsusilə AÇG və Şahdəniz layihələri sayəsində BP-nin ən sabit investisiya regionlarından biri olaraq qalmaqdadır. Şirkətin Cəbrayıldakı günəş panelləri kimi bərpa olunan enerji mənbələrinin inteqrasiyasına xüsusi diqqət yetirdiyini diqqətə çatdıran regional prezident deyib ki, bu, Səngəçal terminalının karbonsuzlaşdırılmasına töhfə verəcək.

Sessiya çərçivəsində Bolqarıstanın energetika nazirinin müavini İva Petrova, Rumıniya Energetika Nazirliyinin Dövlət katibi Pavel-Kasian Nitulesku, Ukraynanın energetika nazirinin müavini Mikola Kolesnik, Moldova Energetika Nazirliyinin dekarbonizasiya məsələləri üzrə dövlət katibi Karolina Novak, "TotalEnergies" şirkətinin Avropada kəşfiyyat və hasilat işləri üzrə baş vitse-prezidenti Jan-Lük Gizu, Beynəlxalq Enerji Forumunun baş katibi Cəssim Əl-Şiravi, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin Mərkəzi Asiya üzrə prezidenti Abid Malik və başqalarının çıxışları dinlənilib.

30-cu Bakı Enerji Forumu bu gün öz işinə yekun vuracaq.

# "Şəfəq" GES Səngəçal terminalına "yaşıl" enerji ötürəcək

**Beynəlxalq Enerji Həftəsi çərçivəsində BP, "SOCAR Green" və Azərbaycan Biznesinin İnkişafı Fondunun (ABİF) birgə müəssisəsi olan "Shafag (Jabrayil) Solar Limited" (SJSL) şirkətinin səhmdarları "Şəfəq" Günəş Elektrik Stansiyası (GES) layihəsi üçün yekun investisiya qərarını elan ediblər. Bu qərar işğaldan azad olunmuş Cəbrayıl rayonunda 240 meqavat gücündə GES-in tikintisinin başlanmasına imkan yaradır. Eyni zamanda, Səngəçal terminalının investorları – BP, SOCAR, TPAO, LUKOYL, Cənub Qaz Dəhlizi, NİKO, MOL, İNPEKS, "EksonMobil", İTOÇU, "ONGC Videş", "Eni", MVM və "TotalEnergies" Səngəçal terminalının elektrikləşdirilməsi layihəsini təsdiqləyiblər.**




Xatırladaq ki, sözügedən layihə terminalın "AzərEnerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulmasını gerçəkləşdirəcək. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kilovoltluq elektrik yarımstansiyası inşa ediləcək.

Bu iki layihə bir-biri ilə "virtual enerji ötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Həmin mexanizmə əsasən, "Şəfəq" stansiyası elektrik enerjisi istehsal edərək onu Cəbrayıl rayonunda "AzərEnerji"yə təhvil verəcək. "AzərEnerji" isə sonra eyni həcmdə elektrik enerjisini Bakı yaxınlığında yerləşən Səngəçal terminalına ötürəcək.

Hazırkı proqnozlara və planlara əsasən, "Şəfəq" və Səngəçal terminalının elektrikləşdirilməsi layihələri birlikdə terminalın gələcək istismar dövründə əməliyyatlardan yaranan emissiyaların, təxminən, 50 faiz azaldılmasına imkan yaradacaq. Hazırda terminal öz enerji ehtiyacını qarşılamaq üçün 7 qaz turbinindən istifadə edir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə demontaj olunacaq və bu da istifadə edilməyən yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə imkan verəcək. Hər iki layihə üzrə yekun investisiya qərarlarını dəstəkləmək məqsədilə bir sıra digər müqavilələr də imzalanıb:

– "Şəfəq" layihəsi üzrə - SJSL ilə "AzərEnerji" arasında elektrik enerjisinin alqı-satqısı müqaviləsi və SJSL ilə "AzərEnerji" arasında şəbəkəyə qoşulma müqaviləsi;

– STEL layihəsi üzrə – "AzərEnerji" ilə Səngəçal terminalının operatoru qismində bp arasında mühəndislik, təchizat, tikinti və quraşdırma işləri üzrə müqavilələr paketi, elektrik enerjisinin təchizatı müqaviləsi və istismar və texniki xidmət müqaviləsi.

Bundan əlavə, həm "Şəfəq", həm də STEL layihələrini dəstəkləmək məqsədilə iki müqavilə – Səngəçal terminalının operatoru qismində bp, SJSL və "AzərEnerji" arasında balanslaşdırma sazişi, həmçinin Səngəçal terminalının operatoru qismində bp ilə SJSL arasında elektrik enerjisinin alqı-satqısı müqaviləsi imzalanıb. Hər iki layihə üzrə yekun investisiya qərarının və əlaqədar müqavilələrin rəsmi imzalanması Bakı Enerji Həftəsi çərçivəsində Bakı Ekspo Mərkəzində keçirilən tədbir zamanı reallaşıb.

Energetika naziri Pərviz Şahbazov deyib: "Azərbaycan Prezidenti İlham Əliyevin "yaşıl" enerjidən istifadəni təşviq edən siyasəti çərçivəsində "Şəfəq" GES və Səngəçal terminalının elektrikləşdirilməsi layihələri üzrə mühüm mərhələnin tamamlanması ilə ölkəmizin BP ilə strateji enerji tərəfdaşlığında yeni bir səhifə açılır. 240 meqavatlıq GES-in "yaşıl" enerji zonası ərazisində inşası və dünyanın ən böyük neft-qaz terminallarından biri olan Səngəçalın elektrikləşdirilməsi kimi önəmli elementləri birləşdirən bu layihə enerji təhlükəsizliyi və emissiyaların azaldılması istiqamətində ortaq, mütərəqqi yanaşmanın bariz nümunəsidir.

Azərbaycanın neft-qaz sektorunda ən böyük investoru olan BP-nin "yaşıl" enerji sahəsinə doğru sərmayələrini genişləndirməsi tərəfdaşlığımızın uzunmüddətli strateji təməlini daha da möhkəmləndirir. Biz BP ilə birgə təkcə etibarlı enerji təchizatını deyil, həm də dayanıqlı və aşağıkarbonlu gələcəyin əsasını formalaşdırırıq".

BP-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel deyib: "Bu gün qəbul edilən qərarlar həm Azərbaycanla əməkdaşlığımızda, həm də regiondakı biznes fəaliyyətimizdə yeni bir mərhələnin başlanğıcını qoyur. "Şəfəq" layihəsi ölkədə günəş enerjisi hasilatına qoyduğumuz ilk investisiya olmaqla, enerji sahəsindəki uğurlu əməkdaşlığımıza yeni bir istiqamət əlavə edir. Bu iki layihəni birləşdirən yeni innovativ yanaşma bizi sevindirir, çünki onun vasitəsilə Azərbaycanda idarə etdiyimiz ən böyük obyekt olan terminalın əməliyyatlarlarından yaranan emissiyaları azalda biləcəyik. Azərbaycanla, əsasən, neft və qaz sahəsini əhatə edən uzunmüddətli tərəfdaşlığımızda bu yeni mərhələni alqışlayırıq və əminik ki, bu, regionda dayanıqlı enerji sahəsində növbəti təşəbbüslərin həyata keçirilməsinə yol açmağa kömək edəcək".

Xatırladaq ki, təxminən, 200 milyon dollar dəyərində olan "Şəfəq" GES-in tikinti işlərinə bu il başlanacağı və həmin işlərin, əsasən, yerli resurslardan istifadə olunmaqla 2027-ci ilin ortalarınadək davam edəcəyi nəzərdə tutulur. Tikinti işlərinin pik dövründə 400-ə qədər yeni iş yerinin yaradılacağı gözlənilir. "Şəfəq" layihəsi, bütövlükdə, BP şirkətinə məxsus olan "Lightsource bp" tərəfindən həyata keçiriləcək və idarə olunacaq.

230 milyon dollar dəyərində olan STEL layihəsi Səngəçal terminalının operatoru olan BP tərəfindən həyata keçiriləcək və idarə olunacaq. STEL layihəsi üzrə tikinti işlərinə bu il başlanılması planlaşdırılır və işlər iki mərhələdə həyata keçiriləcək. 1-ci mərhələ 2027-ci ilin ortalarında, 2-ci mərhələ isə 2028-ci ilin sonunadək başa çatdırılacaq.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

Vəli Baxşəliyev – 70

# Minilliklərin qaranlığına işıq salan arxeoloq

## *Naxçıvanın yeraltı və yerüstü abidələrinin lal dilini açan alim*

**Azərbaycan elmi fədakar və tanınmış tədqiqatçıların araşdırmaları ilə beynəlxalq səviyyədə nüfuzlu mövqe qazanıb. Milli arxeologiyamızı çoxillik səmərəli fəaliyyəti ilə zənginləşdirən və dünyada da tanıdan arxeoloq, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin anadan olmasının 70 illik yubileyi alimin ömür yoluna, elmi yaradıcılığına qədirbilənlik sayğısı və yüksək dəyərlə müşayiət olunur.**



Azərbaycan arxeologiyasında məktəb yaratmış alimlərdən olan tarix elmləri doktoru, professor Vəli Baxşəliyev bütün elmi fəaliyyətini Naxçıvan diyarının qədim dövr tarixinin öyrənilməsinə həsr edib. Onun tədqiqatları ulu Nuh yurdunun arxeoloji abidələrinin, eləcə də bu ərazidə yaşayan qədim tayfaların etnik mənsubiyyətinin öyrənilməsinə həsr olunub.

Vəli Baxşəli oğlu 1955-ci ilin iyun ayının 5-də Babək (indiki Kəngərli) rayonunun Böyükdüz kəndində anadan olub. O, 1973–1977-ci illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda (indiki Naxçıvan Dövlət Universiteti) ali təhsil alıb. Əmək fəaliyyətinə kənd orta məktəbində müəllim kimi başlayan gənc tarixçinin elmə, tədqiqat işinə böyük həvəsi onu 1982-ci ildə AMEA Tarix İnstitutunun aspiranturasına gətirib. 1986-cı ildə aspiranturanı müvəffəqiyyətlə bitirən tədqiqatçı "Qədim Naxçıvanın metallurgiya və metalişləmə sənəti" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

Qədim diyara perspektivli tarixçi alim kimi qayıdan Vəli Baxşəliyev 1983-cü ildə Naxçıvan Dövlət Tarix Muzeyinin ekspozisiyasında müdir, 1986-cı ildə Naxçıvan Regional Elmi Mərkəzində elmi işçi, aparıcı elmi işçi, elmi katib vəzifələrində işləyib.

Ulu öndər, Prezident Heydər Əliyevin sərəncamı ilə 2002-ci ildə AMEA-nın Naxçıvan Bölməsi yaradılanda V.Baxşəliyev Naxçıvan Bölməsinin tərkibində olan Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda elmi katib vəzifəsinə təyin edilib. Sonra o, Qədim dövr arxeologiyası şöbəsinin müdiri vəzifəsində çalışıb. Hazırda alim həmin institutun direktor müavinidir.

Tədqiqatlarını davam etdirən alim 2005-ci ildə "Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti" mövzusunda doktorluq dissertasiyasını da uğurla başa çatdırıb. O, 2009-cu ildə dosent, 2018-ci ildə arxeologiya ixtisası üzrə professor elmi adı alıb. Tarix elmləri doktoru Vəli Baxşəliyev 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib.

Elmi fəaliyyətində arxeoloji qazıntılara önəm verən professor Vəli Baxşəliyev respublikamızda, qardaş Türkiyədə və qonşu İranda aparılan arxeoloji tədqiqatlarda fəal iştirak edib. O 1995–1999-cu illərdə İstanbul Universitetinin arxeoloqları ilə birgə Şərqi Anadolunun arxeoloji abidələrinin tədqiqində iştirak edib, Yoncatəpə, Qaragündüz yaşayış yerlərinin və Tuşpa nekropolunun tədqiq edilməsinə töhfəsini verib.

Alim 2006-cı ildən Naxçıvanda ABŞ və Fransa arxeoloqlarının da iştirak etdiyi 2 beynəlxalq arxeoloji ekspedisiyaya rəhbərlik edib. Vəli müəllim ABŞ-ın Corciya, Pensilvaniya, Nyu-York, Çikaqo universitetləri, Fransanın Elmi-Tədqiqat Mərkəzi və Lion Universitetinin əməkdaşları ilə birlikdə Ovçulartəpəsi, I və II Kültəpə, Maxta Kültəpəsi, Oğlanqala, Qızqala, Zirincli, Uçan Ağıl və Sədərək şəhər yeri və başqa digər abidələrdə tədqiqat aparıb. Həmin qazıntılar zamanı Kültəpə mədəniyyətinin tarixi dəqiqləşdirilib, insanların I Kültəpədə e.ə. VI minillikdən deyil, VII minillikdən başlayaraq məskən saldığı müəyyən edilib. Ovçulartəpəsindən əldə edilmiş ilk əmək alətləri ilə müəyyən edilib ki, Naxçıvan ərazisində insanlar 1,5 milyon il bundan əvvəl yaşamağa başlayıblar.

Arxeoloji materiallarla sübut olunub ki, Dalmatəpə və Ubeyd mədəniyyəti Naxçıvanda yayılmış, Boyalı qablar mədəniyyətinin Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda məskən salan, əkinçilik və maldarlıqla məşğul olan tayfalar tərəfindən yaradılıb. Tədqiqatçı ilk dəfə olaraq Oğlanqala yaşayış yerinin Azərbaycanın şimalında və Göyçə gölü hövzəsində formalaşmış "Etiuni" konfederasiyasının urartulara qarşı mübarizəsində əsas istinad yerlərindən biri olduğunu müəyyən edib.

Arxeoloq alimin apardığı tədqiqatlar nəticəsində Naxçıvanda qədim metallurgiya və metalişləmə sənətinin yerli xammal mənbələr əsasında meydana gəlib inkişaf etdiyi, eyni zamanda qədim mədəniyyətlərin, sənət əsərlərinin Azərbaycan xalqının etnoqrafiyası və folkloru ilə sıx bağlı olduğu öyrənilib. Naxçıvanın Dalmatəpə, Kür-Araz və Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin vətəni olduğu müəyyən edilib. Naxçıvanın qədim mədəniyyətlərinin Ön Asiya və Cənubi Qafqaz ölkələri ilə qarşılıqlı münasibətlərinin tədqiqilə müəyyən edilib ki, Orta Tunc dövrü Boyalı qablar mədəniyyəti Cənubi Qafqazın digər ölkələrinə Naxçıvandan yayılıb. Tədqiqatçı Naxçıvanın qədim mədəniyyətinin dövrləşdirilməsi ilə bağlı Neolit, Eneolit, Erkən və Orta Tunc dövrü abidələri üçün yeni dövrləşdirmə müəyyənləşdirib.

Tədqiqatçının elmi əsərləri əsasən Cənubi Qafqaz, Yaxın Şərq və Azərbaycanın arxeologiyasına aid mühüm problemlərinin araşdırılmasına həsr olunub. Bu əsərlərdə Naxçıvanın qədim mədəniyyətlərinin Urmiya hövzəsi və Şərqi Anadolu ilə sıx bağlı olduğu göstərilib, Zəngəzur və Dərələyəzin Azərbaycanda məskunlaşan qədim tayfaların fəaliyyət dairəsinə aid olduğu əsaslandırılıb.

Müəllifin həmkarları ilə birlikdə hazırladıqları "Qədim Şərur", "Şərur rayonunun tarixi", "Qədim Ordubad", "Qədim Culfa", "Sədərək", "Xələc", "Ərəbyengicə", "Şortəpə" və onlarla başqa tədqiqat əsərləri Naxçıvan diyarının müxtəlif bölgələrinin qədim yaşayış yerləri, nekropol və kurqanlar, ərazilərdə yaşayan tayfalar, onların iqtisadi həyatı, ərazilərin tarixi, arxeoloji və memarlıq abidələri haqqında dolğun məlumatlar verir. ABŞ, Fransa, Türkiyə və b. ölkələrin tədqiqatçıları ilə birgə yazdıqları kitab və monoqrafiyalar arxeoloji tədqiqatlar nəticəsində əldə edilmiş materialların ümumiləşdirilməsi nəticəsində mümkün olub.

"Ovçulartəpəsi", "Kültəpə arxeoloji qazıntıları", "Naxçıvan arxeologiyası: yeni kəşflərin onuncu ili" (ingilis dilində), "Sioni mədəniyyəti Tumbultəpədə arxeoloji qazıntılar kontekstində" (3 dildə) və b. əsərlər Vəli Baxşəliyevin rəhbərliyi ilə aparılan arxeoloji qazıntılardan əldə olunan nəticələrin ümumiləşdirilməsidir. O, Azərbaycanın tarixi və arxeologiyası sahəsində 300-ə yaxın əsərin, o cümlədən xaricdə nəşr olunan 260 məqalənin, "Scopus", "Web of Science" və başqa bazalara daxil olan 20-dən artıq məqalənin, 35 monoqrafiya və kitabın, dərs vəsaitinin müəllifidir.

Təkcə 2024-cü ildə alimin əsərlərinə 1091 istinad qeydə alınıb. Onun "Azərbaycan arxeologiyası", "Naxçıvanın arxeoloji abidələri", "Naxçıvanın tarixi abidələri", "Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti", "Naxçıvanın Erkən Dəmir dövrü abidələri", "Duzdağın qədim duz mədənləri", "Gəmiqaya təsvirləri", "Dalmatəpə mədəniyyətinin mənşəyi", "Naxçıvan arxeologiyası yeni tapıntılar işığında", "Naxçıvanda arxeoloji tədqiqatlar", "Neolit və Erkən Eneolit dövründə Naxçıvanın iqtisadi-mədəni əlaqələri" (3 dildə), "Naxçıvantəpə yaşayış yerində arxeoloji tədqiqatlar" kimi kitab və monoqrafiyaları gərgin və məhsuldar tədqiqatların nəticəsində işıq üzü görüb.

Alimin tarixi milyon illərə dayanan Naxçıvanda apardığı arxeoloji tədqiqatların nəticələri "Naxçıvan ensiklopediyası" (2 cilddə), "Naxçıvan abidələr ensiklopediyası" (2 dildə), "Naxçıvan tarixi" (3 cilddə), "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlas, "Naxçıvan tarixi atlası" və digər əsərlərin və xəritələrin hazırlanmasında istifadə edilib. Onun fəal iştirakı ilə Naxçıvan ərazisində qeydə alınmış 1217 arxeoloji, tarix və mədəniyyət abidəsi haqqında elmi məlumatlar hazırlanıb və pasportlaşdırılıb.

Professor Vəli Baxşəliyev Azərbaycan tarix elmini, arxeologiyasını xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə layiqincə təmsil edir. O, Paris, İstanbul, Tbilisi, Ankara, Ərzurum, Batum, Van, Omsk, Bakı, Təbriz və digər şəhərlərdə keçirilən beynəlxalq konfranslarda iştirak etmiş, əldə etdiyi elmi nailiyyətlərlə bağlı məruzələr edib. Alim elmi tədqiqatlarla yanaşı, təhsil prosesinə də mühüm əhəmiyyət verir, yüksək ixtisaslı kadrların hazırlanmasında yaxından iştirak edir. O, uzun müddətdir ki, Naxçıvan Dövlət Universitetinin professoru kimi bakalavriat və magistrlərə Azərbaycan arxeologiyasından mühazirələr aparır, magistr dissertasiyalarına rəhbərlik edir.

Nüfuzlu arxeoloq 2006-cı ildən AMEA Naxçıvan Bölməsində, AMEA Tarix və Etnologiya İnstitutunda yaradılmış Dissertasiya şuralarının üzvi kimi, yüksək ixtisaslı elmi kadrların hazırlanmasında iştirak edir. Alimin rəhbərliyi ilə 10-dan artıq tədqiqatçı fəlsəfə və elmlər doktoru dissertasiyası müdafiə edib. O, rəsmi opponent kimi də dissertasiyaların dəyərləndirilməsində çıxış edir.

AMEA-nın Naxçıvan Bölməsinin Elmi Əsərləri (ictimai və humanitar elmlər) məcmuəsinin redaktor müavini və redaksiya heyətinin üzvü olan professor Vəli Baxşəliyev beynəlxalq "AMİSOS", "Tarix" jurnalının redaksiya heyətində də təmsil olunur. O, "Anatolian Research" jurnalının rəyçisi, TUBA-Ar jurnalının yazarıdır.

Vəli Baxşəliyev 2014-cü ildə Prezident İlham Əliyevin fərmanı ilə "Tərəqqi" medalı, 2019-cu ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı, AMEA Rəyasət Heyətinin, AMEA Naxçıvan Bölməsinin Fəxri Fərmanları ilə təltif olunub.

Görkəmli tarixçi və arxeoloq alim Vəli Baxşəliyevi 70 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona möhkəm can sağlığı, elmi fəaliyyətində daha böyük nailiyyətlər arzulayırıq.

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Şair Qulu Ağsəsin "Xəzər" görüşü

**Xəzər Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında "Ulduz" jurnalının baş redaktoru, Prezident təqaüdçüsü, Əməkdar jurnalist, şair Qulu Ağsəs ilə görüş keçirilib.**

Tədbirdə şəhid ailələri, Xəzər rayon MKS-nin fəal oxucuları, Binə qəsəbəsində yerləşən 149, 121 və 292 nömrəli məktəblərin müəllim və şagirdləri, 24 saylı musiqi məktəbinin kollektivi və Binə mədəniyyət mərkəzinin üzvləri iştirak ediblər. Əvvəlcə Qulu Ağsəsin yaradıcılığı haqqında slayd nümayiş etdirilib. Sonra Qulu Ağsəs oxucularının suallarını cavablandırıb və yeni şeirlərini səsləndirib. Poeziya qanadlı görüş hər kəsdə xoş təəssürat yaradıb.

***XQ***



Azərbaycan Milli Mətbuatı – 150

**...Bir neçə il əvvəl Azərbaycan Mətbuat Şurasının "Tanıyaq, tanıdaq" layihəsi çərçivəsində Ukraynanın Sevastopol Dövlət Radiosunda Azərbaycanla bağlı yayımlanan "Qobustan" proqramının rəhbəri Həbib Əliyevlə görüş keçirilirdi. Şuranın o vaxtkı sədri Əflatun Amaşov soydaşımızı ən gözəl ifadələrlə təqdim edərək, onun Azərbaycan həqiqətlərini Ukrayna cəmiyyətinə çatdırmaqla bağlı uğurlu yaradıcı səylərini yüksək dəyərləndirdi. "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu və başqaları Həbib Əliyevin uzun müddətdən bəri qərib ölkədə Azərbaycanı tanıtdırmaq kimi mühüm missiyanı şərəflə yerinə yetirdiyini vurğulayaraq görüşdən hədsiz məmnunluqlarını bildirdilər. Şuranın diplomuna layiq görüldüyü həmin görüşdə Həbib müəllimin çıxışından da bəlli oldu ki, zəhmətkeş qələm sahibi Vətən naminə təmənnasız fəaliyyəti ilə nümunədir.**

# Krımda Azərbaycan radio yayımı

O, ixtisasca müəllim olsa da, ötən əsrin sonunda xaricdə çalışmaq üçün Ukraynaya yola düşüb və tale qisməti onu jurnalistikaya gətirib. Düz 28 il Sevastopolda ölkəmizi təbliğ edən verilişin rəhbəri və aparıcısı olub. Orada radio dalğalarında Azərbaycanın canlı səsi olan Həbib Əliyev çətinliklər də görüb, erməni təxribatına da tuş gəlib, amma ruhdan düşməyib, öz qətiyyəti və ukraynalıların isti münasibəti sayəsində tanınıb. Üstəlik, "Krım gündəliyi "Qobustan", "Bura Vətəndir", "Qobustan" Krım efirində", "Qobustan 2 radiosu mətbuat aynasında" və bu radionun 25 yaşına həsr olunmuş kitablarını da oxuculara ərməğan edib. Bu kitablarda öz təşəbbüsü ilə Krıma gedib, Azərbaycanın milli-mənəvi dəyərlərini yorulmadan təbliğ edən soydaşımız fədakar fəaliyyətinin əsas məqamlarına işıq tutub. Hələ Vətəni tərk edib qürbətə gedərkən söz verdiyi kimi, Ulu öndər Heydər Əliyevin siyasətini jurnalist yazıları və çıxışları ilə orada 83 milləti təmsil edən əcnəbi kütlələrə çatdırmaqdan zövq alıb.




Azərbaycan Milli Mətbuatının yaranmasının 150 illiyi ərəfəsində Həbib Əliyevin daha bir kitabı – "Krım radiosunda Azərbaycan ziyalıları" toplusu işıq üzü görüb.

***Yeni kitabdan sətirlər:*** "Sevastopolda fəaliyyət göstərən "Vətən" cəmiyyətindən məktub almışdım ki, həmin yerdə məktəb açmaq lazımdır. Təcili yola düşdüm və Azərbaycanın həftəlik məktəbini açdım. Bu məktəb 2 il fəaliyyət göstərdi. 1997-ci ildə Sevastopoldakı erməni raduosu Azərbaycan xalqına təhqirli sözlər dedi, tariximizi baş-ayaq etdi. Bu yalanlara dözməyib Sevastopol radiosunun redaktoru Nataliya Pavlovna ilə görüşdüm. Ona Azərbaycanın tarixi həqiqətləri haqqında qəzet materialları verdim. Həm də bildirdim ki, nə üçün ermənilər Nizami kimi böyük bir dahinin yurdunu təhqir edirlər. Redaktor mənimlə razılaşdı və erməniləri bu işdə töhmətləndirdi. Mənim 2-ci xahişim bu oldu ki, Azərbaycana da efir vaxtı lazımdır. Beləliklə, 1997-ci ilin mart ayında "Azərbaycan–Qobustan" proqramının əsası qoyuldu. Sonralar ermənilərin hədələrinə, təzyiqlərinə baxmayaraq, mən geri çəkilmədim və radionu davam etdirdim".

Verilişlərində qədim mədəniyyət və tariximiz, muğamlarımız və klassik ədəbiyyatımız, bayram və adətlərimiz, Heydər Əliyev və Ukrayna, Nizaminin humanist ideyaları, müasir Azərbaycan şair və yazıçıları, Ukrayna diasporu, İslam dəyərləri, çağdaş musiqi korifeylərimiz, alimlərimiz, qəhrəman şəhidlərimiz haqqında 250-dən artıq radio-oçerk hazırlayıb efirə verən Həbib Əliyev ukraynalı dinləyicilərin əsl dostuna, həbibinə çevrilib.

***Kitabdan sətirlər:*** "Eyni zamanda bir çoxAzərbaycan aliminin əsərləri orada nəşr olunub. Məsələn, akademik Budaq Budaqov, akademik İsa Həbibbəyli, Naxçıvandan Qadir Əliyevin", "Əcəminin Mömünə xatun abidəsi" kitabının çap etdirmişik. Müasir Azərbaycan şairlərinin poeziyası Sevastopolun almanaxlarında verilib. "Qobustan" proqramı Azərbaycan və Ukrayna arasında bir dostluq körpüsü rolunu oynayır. Radionun verilişləri beynəlxalq müsabiqələrin qalibi olmuş, "Beynəlxalq laureat" diplomuna və "Gümüş qələm" medalına layiq görülmüşdür.

Qürbətdə Azərbaycan naminə "müsəlləh əsgər"lik edən Həbib Əliyev bu yolda nələrdən keçməyib! Fəaliyyətinin bir ili tamam olmamış hətta verilişi bağlanıb. Buna səbəb isə əri erməni olan şəhər merinin müavini Olqa imiş. Həbib müəllim məsələnin obyektiv araşdırılmasına və proqramın bərpasına nail olub. Həmin Olqa isə tutduğu vəzifədən azad edilib.

Eyni zamanda Həbib Əliyevə fəaliyyətində təmənnasız kömək edənlər də çox olub. Onlardan biri "Qobustan"nı rus dilində səsləndirən Leyli Kərimova olub. Leylinin atası Səfi kişi yevlaxlı idi, anası isə rus xanımı olsa da, "Radio xalqımıza çox lazımdır" – deyərək, gənc diktora hər cür qol-qanad veriblər.

Həbib müəllimin yeni kitabında ulu Nizami Gəncəvidən, Həsən bəy Zərdabidən, Mirzə Ələkbər Sabirdən, Səməd Vurğundan, Üzeyir Hacıbəylidən üzü bu yana bir çox dahilərimiz, parlaq ziyalılarımız haqqında maraqlı yazılar yer alıb. Topluda onun özünün haqqında Əməkdar jurnalist Rəhim Hüseynzadənin oçerki də verilib. Prezident İlham Əliyevin sərəncamı ilə Fəxri diplom almış həmkarımızın şəxsi keyfiyyətlərinə hərtərəfli işıq tutulub. Ötən ilin oktyabrında isə redaksiyamızın qonağı olan Həbib müəllimlə söhbət YouTube platformasında yayılıb. O Naxçıvandan, Babək rayonunun Cəhri kəndindəndir, amma Bakıda yaşayır. Bir az səhhətində nasazlıq var. Ümid edirik ki, Vətən havası onun ən gözəl məlhəmi olar.

Onu da deyək ki, mətbuatımızın ağsaqqallarından olan Həbib müəllim ağrılarına baxmayaraq, müstəqil Azərbaycanımızın, Müzəffər Ali Baş Komandanımızın, qalib xalqımızın uğurları ilə öyünür, tarixi zəfərlərimizlə qürur duyur. İnişil erməni əsirliyində olan iki əsgərimizin azad edilməsinə görə Prezident İlham Əliyevə təşəkkür dolu könül duyğularını ünvanlayaraq yazıb: "Siz hər bir azərbaycanlının Prezidenti, çətinliklə üzləşən vətəndaşlarımızın xilaskarısınız. Xalqımıza olan bu həssas münasibətinizə görə Sizə "Çox sağ olun!" deyirik.

Xalq şairi Nəriman Həsənzadənin məsləhətçisi, Firdovsi Heydərlinin redaktoru olduğu "Krım radiosunda Azərbaycan ziyalıları" adlı yeni kitabla bağlı qeydlərimizi bu gün də məhsuldar fəaliyyətindən qalmayan Həbib Əliyevin haqqında akademik Nizami Cəfərovdan gətirdiyimiz sitatla bitirmək istəyirik: "Həyat universitetlərinin daşlı–kəsəkli günlərini yaşadıqca daha da mətinləşən, həyəcanlı günlərin imtahanlarından uğurla çıxan, Azərbaycan və rus dillərində radio verilişlərini təşkil edən Həbib Əliyevə uğurlar və can sağlığı diləyirəm".

***Əli NƏCƏFXANLI***
***XQ***

Beynəlxalq həyat

# Ərdoğan İstanbulu dünyanın sülh mərkəzinə çevirmək istəyir



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda Rusiya–Ukrayna danışıqlarından sonra keçirilmiş Nazirlər Kabinetinin iclasına yekun vuraraq bildirib ki, İstanbulu dünyanın sülh mərkəzinə çevirmək istəyir. Türkiyə lideri Moskva və Kiyevin nümayəndə heyətləri arasında baş tutmuş danışıqların böyük əhəmiyyətə malik olduğunu, bu dəhşətli müharibənin ədalətli sülhlə başa çatdırılmasına yönəlmiş prinsipial siyasətin öz bəhrələrini verdiyini qeyd edib.**

Ərdoğan deyib: "Bu, həqiqətən də gözəl görüş oldu. Birinci görüşdə min nəfər məhbusun dəyişdirilməsi ilə bağlı razılıq əldə olunsa da, bu dəfə məhbusların mübadiləsi min nəfəri keçib. Bununla yanaşı, həm Rusiya, həm də Ukrayna tərəfdən bir neçə meyit də qaytarılıb. Bu rəqəmlər, həqiqətən, çox önəmlidir. Verilən bəyanat da, əlbəttə ki, İstanbulda keçirilən bu görüşlərin böyük əhəmiyyətini nümayiş etdirmək baxımından çox mühümdür".

Prezidentin sözlərinə görə, Türkiyə bu müharibənin sülh yolu ilə həlli məsələsində mühüm rol oynayır: "Hər iki tərəf üçün ən böyük arzum həm Vladimir Putinin, həm də Zelenskinin İstanbulda, yaxud Ankarada görüşməsi və cənab Trampın buraya dəvət edilməsidir. Razı olsalar, onlarla görüşmək və bununla da, İstanbulu dünyanın sülh mərkəzinə çevirmək istərdim. Bu məqsədə çatmaq üçün addımlar atacağıq".

Ərdoğan bəyan edib ki, Türkiyə istənilən problemi, xüsusən də terror problemini həll etməyə qadirdir: "Türkiyənin hər cür problemləri, xüsusilə də terror problemini həll edəcək gücü, iradəsi və demokratik yetkinliyi var. Bizim "Terrorsuz Türkiyə" layihəmiz bu prosesin meyarına çevriləcək. Dinc yolla keçən hər bir mərhələdə cəmiyyətimiz rahatlaşır, dövlətlə millətin birliyi daha da güclənir. Mən bunu həmişə deyirəm, bu gün də bir daha vurğulamaq istəyirəm ki, Türkiyənin problemləri nə qədər çətin olsa da, onlar həlledilləndir. Məqsədimiz ölkəni inkişaf etdirmək, xalqımızın əbədi və dəyişməz qardaşlığına mane olan paslı zəncirlərdən bir-bir xilas olmaqdır".

Prezident Ərdoğan Suriyadakı vəziyyətə toxunaraq bildirib ki, Türkiyə, ABŞ, Səudiyyə Ərəbistanı və Suriya arasında onlayn görüş Dəməşqə qarşı sanksiyaların aradan qaldırılması baxımından yeni bir dövrün başlanğıcı olub. Trampın tarixi bəyanatlarından sonra Avropa ölkələri də Suriyaya qarşı sanksiyaları ləğv etmək qərarına gəliblər. Bundan əlavə, Suriya Hava Yolları yaxın vaxtlarda Türkiyəyə uçuşlara başlayacaq: "Suriya xalqını və hökumətini bütün imkanlarımızla dəstəkləyəcəyik. Suriya sabitlik və sülh əldə etdikcə bütün qonşuları və regiondakı bütün ölkələr bundan faydalanacaq".

Türkiyə lideri mayın 28-də Azərbaycanın Müstəqillik Günü münasibətilə Laçın şəhərində olduğunu, bu mühüm günü Azərbaycan Prezidenti İlham Əliyev və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə birlikdə üç ölkənin əbədi qardaşlıq rəmzi kimi qeyd etdiklərini, Laçın Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etdiklərini bildirib: "Böyük məmnuniyyətlə bir daha demək istəyirəm ki, qalib lider Prezident İlham Əliyevin səyləri nəticəsində 30 illik işğaldan sonra Qarabağın hər yerində sözün əsl mənasında infrastrukturun inkişafı və bərpası davam edir. Yollar, körpülər, tunellər, yaşayış massivləri, kənd təsərrüfatı sahələri yaradılır – Qarabağın bütün yaraları sürətlə sağalır. Bizlər də mümkün olduqca bu layihələrə dəstək göstərir".

*Paşa ƏMİRCANOV*
*XQ*

"Xalq qəzeti" üçün

# Azərbaycan görüşü





**Ötən həftə olduqca zəngin bir proqram keçirdik. Küresel Qazetəçilər Konseyi (KGK) Azərbaycan Milli Mətbuatının 150 illiyi münasibətilə Bakıya səfər təşkil etdi.**

Proqram belə davam etdi: Bütün iştirakçılar İstanbuldan Azərbaycanın qədim şəhəri Gəncəyə yola düşdü. Gəncə səfərimiz bir gün davam etdi və Qafqaz İslam Ordusunun komandanı Nuri Paşanın Gəncədə qaldığı evi ziyarət etmək hər şeyə dəyərdi. Şah İsmayıl Xətainin Azərbaycanın hər bölgəsində yerləşən heykəllərini görmək də olduqca maraqlı idi.

Səfər karvanı daha sonra 30 il işğal altında qalan Qarabağa yola düşdü. Yaz fəsli başlayarkən, hər guşəsi çiçəklərlə bəzənmiş dağların qoynundan keçərək illərlə içimizi yandıran Xocalıya çatdıq. Xocalıda hüzn və sevinc bir arada yaşandı. Baharın təravəti ətri ilə şəhidlərin cənnət qoxusu bir-birinə qarışmışdı.

Asan deyil, 30 il doğma torpaqlara həsrət qalmışdıq. 2020-ci il 27 sentyabrda başlanan II Qarabağ Müharibəsi ilə bu həsrətə son qoyuldu və torpaqlarımız azad olundu. Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi, Zəfər yumruğunun düşmənin başına enməsi ilə öz mənasını tapdı.

Qarabağın mərkəzi sayılan Xankəndi Xocalıdan sonra qarşımızda idi. 2022-ci ildə Şuşada Diaspor tərəfindən təşkil olunan Zəfər Qurultayında Cıdır düzündən həsrətlə Xankəndinə baxmışdıq… 2024-cü ildə isə artıq orada idik. Son dayanacağımız Mədəniyyət Paytaxtı Şuşa oldu. Tarixi İsa bulağında dayandıq, möhtəşəm havasını ciyərlərimizə çəkdik, sərin suyunu dadlıca içdik.

Ardınca Bakı proqramı üçün yola çıxdıq. Şəhərin ilk işıqları ilə Mətbuat Şurasının iclasına qatıldıq. Toplantının ardından Azərbaycan Prezidentinin Xarici siyasət məsələləri üzrə müşaviri Hikmət Hacıyev zala gələrək Türkiyədən gələn jurnalistlərlə bir-bir görüşdü və çıxış etdi.

Azərbaycanın hazırkı vəziyyətini əhatə edən çıxışında jurnalistlərin suallarını da cavablandırdı. Hacıyev bildirdi ki, 1992-ci ildə Qarabağdan 1 milyon insan zorla köçürülüb. Ermənilər ələ keçirdikləri ərazilərdə daşı daş üstə qoymamış, hər şeyi dağıdıb yandırmışdılar.

Hazırda bütün şəhərlərdə genişmiqyaslı bərpa işləri aparılır. Yollar, tunellər tikilir, hazır olan evlərə vətəndaşlar köçürülür.

Zəngəzur dəhlizinin Ermənistan tərəfindən heç bir müqavimət göstərilmədən razılaşdırılmalı məsələ olduğunu və bu dəhlizin Ermənistan xalqı üçün dünyaya açılma imkanı yaradacağını vurğuladı.

İndiyə qədər 45 min nəfər daimi olaraq Qarabağa yerləşdirilib və qoyulan bütün investisiyalar Azərbaycanın öz daxili imkanları hesabına maliyyələşdirilib. Bu proses davam edir.

Bəli, doğrudan da, Şuşa, Xocalı, Xankəndi, Füzuli, Laçın, Kəlbəcər, Ağdam... ümumilikdə bütün Qarabağda tikinti texnikası fasiləsiz çalışır. Türkiyəli podratçılar indiyə qədər təxminən 10 milyard dollarlıq sifariş alıblar. Lakin bu işlərin tam başa çatması üçün azı 30 il tələb olunacaq. Bu 30 il ərzində Qarabağ dünyanın diqqət mərkəzinə çevriləcək.

Azərbaycan Milli Məclisini ziyarət edən jurnalistlər nazir və millət vəkillərinin yerlərində xatirə şəkilləri çəkdirdilər. Bəziləri tribunaya çıxaraq "Nə oldu, Paşinyan?" deyərək eyham vurdu.

Daha sonra Şəhidlər Xiyabanı, şəhər turu, İçərişəhər, Tarqovıy, Zəfər Abidəsi, Heydər Əliyev Mərkəzi kimi önəmli yerlərə səfər etdik.

KGK Prezidenti Mehmet Ali Dimin rəhbərliyi, Meryem Uğurun koordinatorluğu və KGK Azərbaycan təmsilçisi Elşad Eyvazlının evsahibliyi ilə baş tutan bu Azərbaycan səfəri son dərəcə faydalı oldu.

*Cabbar ŞİKTAŞ,*
*"Yeşil İğdır" qəzetinin rəhbəri*

# Səyyar "ASAN xidmət" Daşkəsəndə

**Səyyar "ASAN xidmət" avtobusu dünən Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin qarşısında fəaliyyətə başlayıb. Vətəndaşlara həftənin 5 iş günü xidmət göstəriləcək.**



Xidmətlərə notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, əmək pensiyalarının təyin edilməsi, daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı, bank xidməti (dövlət rüsumlarının və xidmət haqlarının qəbulu), tibb xidməti (qan qrupu, boy və göz rənginin təyini üçün) və s. daxildir.

İyunun 25-nə kimi səyyar "ASAN xidmət"dən Daşkəsən rayon sakinləri ilə yanaşı, rayona səfər edənlər də faydalana bilərlər.

*XQ*


## Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

*2025-2026-cı tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla təkrar ali təhsil almaq üçün sənəd qəbulu elan edir*

050404 – Dövlət və bələdiyyə idarəetməsi
050807 – Sosial iş
050405 – İqtisadiyyat
050406 – Maliyyə
050409 – Mühasibat
050407 – Marketinq

Təkrar ali təhsilə müraciət etmək istəyənlər https://portal.edu.az portalı vasitəsilə qeydiyyatdan keçməklə sənədlərini elektron formada təqdim edə bilərlər.

Müraciətçi portal vasitəsilə cari prosesləri izləyə bilər. Əgər sənədlər müvafiq tələblərə cavab verərsə, o zaman müraciətçi təkrar ali təhsil almaq hüququ qazanır.

Təkrar ali təhsil üçün sənəd qəbulunun son tarixi 31 avqust 2025-ci ildir.

Təkrar ali təhsil almaq üçün müraciət edənləri maraqlandıran suallar aşağıdakı əlaqə vasitələri ilə vaxtında və ətraflı cavablandırılacaqdır.

Elektron ünvan: tehsil.qiyabi@mail.ru
Telefonlar- 563-13-07, 563-15-40,563 15-71.
Ünvan- AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181.

## Azərbaycan İlahiyyat İnstitutu

*ilahiyyat fakültəsinin dekanı vəzifəsinə*

MÜSABİQƏ ELAN EDİR

Dekan vəzifəsinin tutulması üçün müsabiqədə iştirak edən vətəndaş aşağıdakılara malik olmalıdır:
- fakültədə kadr hazırlığı aparılan ixtisaslara uyğun ixtisasa;
- ən azı 5 il elmi-pedaqoji təcrübəyə və peşə-ixtisas hazırlığına;
- elmi ad və elmi dərəcəyə.

Müsabiqədə iştirak etmək istəyənlər ərizə ilə institutun rektoruna müraciət edə bilərlər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:
• kadrlar uçotunun şəxsi vərəqəsi;
• tərcümeyi-hal;
• ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri;
• elmi və elmi-metodiki işlərin siyahısı;
• dekanlığın inkişafı ilə bağlı namizədin platforması.

Sənədlər elan dərc olunduqdan sonra 1 (bir) ay müddətində qəbul edilir.

Qeyd-namizədlərin göstəriciləri vəzifənin tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti pozulduqda sənədlərin qəbulundan imtina olunur.

Əlavə məlumat üçün- telefon- (+ 994 12) 436 - 77 - 66.

Ünvan – AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd Naxçıvani küçəsi 29.

## "Ağsu Konserv–1" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2025-ci il saat 12.00-da "Ağsu Konserv-1"ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.
Yığıncağın gündəliyi:
1. Səhmdar cəmiyyətin 2024-cü ilə aid maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.
2. Təşkilati məsələlər.
3. Cari məsələlər.
Yığıncaqda iştirak etmək vacibdir.
Telefon- 050- 352 -21- 82.
Ünvan- Ağsu şəhəri, M.Ə. Rəsulzadə küçəsi 47.

*İdarə heyəti*

## "Aran -Aqro" ASC səhmdarlarının nəzərinə!

19 iyul 2025-ci il saat 14.00-da "Aran -Aqro " ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.
Yığıncağın gündəliyi:
1. 2024-cü ilin illik maliyyə balansının təsdiq edilməsi .
Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün iş günləri saat 10.00-dan 13.00-a dək cəmiyyətin icra orqanına müraciət edə bilərlər.
Səhmdarlar gündəliklə bağlı təklif və çıxışlarını icra orqanına təqdim edə bilərlər.
Telefon-055-847-28-08.
Ünvan-Ucar rayonu, Qarabörk kəndi.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 115 (30809) 4 iyun 2025-ci il, çərşənbə

# Azərbaycan–Türkiyə: Gələcəyə baxışın ortaq hədəfləri



**Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Türkiyənin tanınmış universitetlərinin, media orqanlarının və tədqiqat mərkəzlərinin 10-a yaxın nümayəndəsinin iştirakı ilə "Hazırkı geosiyasi reallıqlar fonunda Azərbaycan və Türkiyə münasibətlərindəki inkişaf meyilləri" mövzusunda dəyirmi masa keçirilib.**

Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov Azərbaycanın dünyadakı iqtisadi və siyasi göstəricilərinə dair geniş təqdimatla çıxış edib.

Rektorun müşaviri, politoloq Zaur Məmmədovun moderatorluğu ilə keçən dəyirmi masada Milli Məclisin deputatları Hikmət Babaoğlu və Aydın Mirzəzadə, Hacəttəpə Universitetindən Esma Özdaşlı, Türkiyə Siyasi və Strateji Araşdırmalar Vəqfinin sədri Sinan Demirtürk, Hacəttəpə Universiteti Strateji Araşdırmalar Mərkəzinin müdir müavini Özlem Pınar Oran, Ankara Böhran və Siyasət Araşdırmaları Mərkəzinin sədri professor Mehmet Seyfettin Erol, Türkiyə İqtisadi Siyasətləri Araşdırma Vəqfi Orta Şərq və Orta Asya İnstitutunun direktoru Hilmi Demir, Dövlət İdarəçilik Akademiyasının dekanı Mürtəza Həsənov, tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədova və digərləri çıxış edərək müzakirənin aktuallığını vurğulayıblar.

Məclisdə Azərbaycan və Türkiyəni narahat edən çağırışlar geniş şəkildə təhlil edilib. Dəyirmi masada 2020-ci ildən sonra formalaşan yeni geosiyasi şəraitdə bölgə ətrafındakı vəziyyətdə Azərbaycan ilə Türkiyə arasında münasibətlərin bütün sahələrdə inkişaf etdiyi qeyd olunub, ikitərəfli münasibətlərə xələl gətirmək istəyən qüvvələrin məqsədlərinə çatmayacağı vurğulanıb.

*XQ*

**Zərif duyğular**

# Çiyələk mövsümü



**Hər çiyələk adına satılana çiyələk demirəm. Bunun səbəbini bilmək çətin deyil. Kəndimizin çöllərində bitən çiyələyin dadını bilsəydiniz, siz də belə düşünərdiniz. Biçənəklərdə bitən çöl çiyələyini yeyəndə birbaşa qana işləyir. Dadından və ətrindən doymaq olmur. Biçənəkdə bitən çiyələklər baharda göz açan körpələr kimidir. Nəfəsi süd qoxuyan, çiyələk gözlü körpələr...**



İndi süni surətdə yetişdirilən çiyələklərdə təb dəyişib, dad dəyişib, hətta ad dəyişib. Biz kənddə gözümüzü dünyaya açıb, çiyələyi tanıyandan adına "çiyələm" demişik. İndi adı da haldan-hala düşüb, dadı da... Adamın ağlına min cür güman gəlir. Şəhərdə satılan, GMO ilkinliyi dəyişdirilmiş çiyələkləri yeyəndə damaq dadına yad gəlir, yaman gəlir. Bundan beləsi necə olacaq, Allah bilir.

Yaxşı yadımdadır, çiyələk mövsümündə çöllərdə sirli səssizlik hökm sürürdü. Əmimoğlu, həm də uşaqlıq dostum Qara ilə birlikdə, dan ulduzu doğan kimi atlanıb çöllərə üz tuturduq. Bu da bizim ellər, bizim çöllər. Bu da həmin sıx ormanlar, həmin günlü güneylər. Nə gözəlsən, ey Vətən!!!

Dolama araba yolları gedirdi, biz gedirdik. Dərətəpə düz gedirdik. Yolumuz yastı təpələr arasından çıxıb, güneyli, quzeyli talalara çıxırdı. Sıx ormanların içindən keçib, dağların döşü ilə yuxarı dırmaşırdıq. Dağ döşündəki atişləməz biçənəklərə çatanda elə bilirdik dünya da, dünyanın bəxtiyarlığı da bizimdir.

O günlər ömrümüzün ən xoşbəxt günləri idi. May günəşinin şüası çölləri işıqlandıranda atyarmaz biçənəklərə çatardıq. Biçənəklər çiyələk ətrinə bələnmiş, çiyələk rənginə boyanmışdı.

O biçənəklərə qoruq deyirdik. Çalı-çəpəri tikanlı moruq kollarından çəpərlənmiş, qoynu gülüstan qoruqlar. O çağlarda könlümüzdəki nə qəm-qüssə, nə də qübar idi. Ağlımızdakı, fikrimizdəki çiyələklər ən şirin nübar idi. Həmin biçənəklərin qırağına çəpər çəkirdilər ki, kənar müdaxilələr olmasın. Həmin qoruqlarda çiyələkləri elə bil, hansısa əl çəpər boyu səpmişdi. Amma orada heç bir bəni insan zəhməti yox idi. Həmin o çiyələkləri ana təbiət özü sulamış, özü otlaqlarda, biçənəklərdə yetirmişdi.

O allı-güllü biçənəklərin, o xallı kəpənəklərin xalları fikrimdə dən-dən qalıb. Təbiətin töhfəsi, Tanrının əmanəti nə gözəl olurmuş. Baxanda deyirdin ana təbiət biçənəklərə çiyələkdən inci düzüb, gövhər düzüb, zər düzüb. Yaz günəşi nə düzübsə, təmiz düzüb, təzi-tər düzüb.

Bir zamanlar ayağımız bir dəfə dəyən o yerlərə gedə bilsəydim, indi torpağına yüz kərə üz qoyardım. Ayrılığın, həsrətin acığına sevinmək necə bir duyğudur, necə bir sirdir, bilsəniz... Şirin xatirələrlə yadda qalan ömür də şirindir, çiyələk kimi:

**"İncimə könlümün şikayətindən,**
**Könlüm bir kamandı, dinib gedəcək.**
**Qəmin zirvəsinə yetdisə hər kim,**
**Ömrün qürubuna enib gedəcək... "**

Ürəyin ən şirin yükü uşaqlıq xatirələridir. Bu xatirələrdən söz açanda uşaq şeirlərini əzbərləmək kimi gəlir yadıma. Yalnız yuxularda qovuşduğum əlçatmaz, ünyetməz uşaqlıq illəri, hardasan?! Sevincimizin sərhədi yoxuydu, gördüklərimiz sanki yuxuydu. Heç ağlımıza da gəlməzdi ki, çiyələkdən dəstə düzəldib bir qom bənövşə kimi bağışladığımız yaşıdımız qızlar bir gün ağbirçək nənə olacaq. Hardan biləydik ki, o illərdən əbədi ayrılacağıq. Gül-çiçəkli çəmənliklərdə çiyələk dalınca xallı kəpənəklər kimi uçurduq.

Yaz günəşinin şəfəqlərilə çiyələklər saplağındaca ballanırdı. Yaşıdımız qızların yanaqları, söz soruşanda çiyələk kimi allanırdı. Qızlar bir-birinin üzünə baxıb, bizdən üz döndərəndə ürəyimiz xallanırdı. Çiçək təravətli, arzu-istəkli, xoş diləkli çiyələkli günlərimiz yaşıdımız qızların ismətli ürəklərində getdi. O çağlarda, o ürəklərə ürəyimi qurban demişdim. Heyif, o zərif ürəklərə heyif!... Bilsəydik, kənar qoymazdıq gözümüzdən gül gözəlləri. Amma nə qəm, əllərimiz bir-birindən üzülsə də, gözümüz gözlərindən uzaq olsa da, ürəklərimiz üzülmədi, xatirə saxlancında qaldı. Çiyələk mövsümü kimi.

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

**İdman**

## Modriç "Milan"a keçir



**Xorvatiya millisinin və İspaniyanın "Real Madrid" klubunun futbolçusu Luka Modriç karyerasını İtaliyanın "Milan" komandasında davam etdirəcək. Artıq tərəflər arasında razılıq əldə olunub.**

39 yaşlı futbolçu uşaqlıqdan azarkeşi olduğu "rossonerilər"lə 2026-cı ilin yayına qədər müqavilə imzalayacaq. Modriçin Madrid təmsilçisi ilə sözləşməsi bu ilin yayında başa çatacaq. Bu səbəbdən ulduz oyunçu İtaliya klubuna azad agent kimi keçəcək.

Qeyd edək ki, 2012-ci ildən "Real Madrid"də çıxış edən futbolçu bu müddət ərzində 590 matçda 43 qol və 95 məhsuldar ötürmə ilə yadda qalıb.

## Qadın voleybolçularımız Slovakiyada yarışacaqlar



**Qızıl Avropa Liqasında çıxış edən qadın voleybolçulardan ibarət Azərbaycan millisi növbəti oyunlar üçün Slovakiyaya yola düşüb.**

Qarşılaşmalar 6-8 iyunda paytaxt Bratislavada keçiriləcək. Rəqiblər Slovakiya və Monteneqro komandaları olacaq.

Qeyd edək ki, Faiq Qarayevin baş məşqçisi olduğu kollektiv daha əvvəl Bakıdakı matçlarda Macarıstan və Sloveniya seçmələrinə 0:3 hesabı ilə uduzub.

*XQ*

## Abşeronda dəyişkən buludlu, bölgələrdə yağış...



**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, iyunun 3-dən 4-nə keçən gecə və səhər bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi axşama doğru zəifləyəcək.

Havanın temperaturu gecə 17-20, gündüz 23-27 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Gecə və səhər bəzi yerlərdə zəif duman gözlənilir. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 14-18, gündüz 22-27, dağlarda gecə 5-10, gündüz 10-15 dərəcə isti olacaq.

*Q.QASIMOV*
*XQ*

*✓ 2022-ci il mayın 27-də Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyin-də Sosial Xidmətlər Agentliyinin Məmmədov Nizami İsa oğlunun adına verilmiş mənzilin imtiyazlı şəxslərə verilməsi haqqında təhvil-təslim sənədi itdiyi üçün etibarsız sayılır. Ünvan - Bakı şəhəri, Binəqədi rayonu, Sulutəpə qəsə-bəsi, Cökəli küçəsi bina 14, mənzil 28.*

## Xocalıda mini futbol turniri



**Xocalı rayonunda "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş mini futbol turniri keçirilib.**

Qarabağ Regional Gənclər və İdman və Qarabağ Regional Təhsil idarələrinin birgə təşkilatçılığı ilə Xocalı şəhər 1 nömrəli tam orta məktəbin meydançasında keçirilən yarışda Xankəndi şəhər 4 nömrəli tam orta məktəbin, Xocalı şəhər 1 nömrəli tam orta məktəbin və Xocalı rayon Ballıca kənd tam orta məktəbin şagirdlərindən ibarət komandalar mübarizə aparıblar. Xankəndi şəhər 4 nömrəli tam orta məktəb turnirin qalibi olub. Ballıca kənd tam orta məktəb ikinci, Xocalı şəhər 1 nömrəli tam orta məktəb üçüncü yeri qazanıb.

Qalib komandalar Qarabağ Regional Gənclər və İdman İdarəsinin fəxri fərmanları və kuboku ilə təltif olunub.

## Özbəkistanda Azərbaycan muğamı ustad dərsləri



**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə bu ölkənin nüfuzlu ali təhsil ocaqlarında Azərbaycan muğamı və milli musiqi sənətimizlə bağlı ustad dərsləri keçirilib. Ustad dərslərini Azərbaycanın və Özbəkistanın Xalq artisti Gülyanaq Məmmədova aparıb.**

Dərslər musiqişünaslıq, solo ifa və xalq çalğı alətləri üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulub. Onlara Azərbaycan milli musiqi mədəniyyəti, muğam sənətinin tarixi kökləri, ifa üslubları, xalq musiqimizin janr zənginliyi və milli irsimizin qorunması ilə bağlı ətraflı məlumatlar təqdim olunub.

Gülyanaq Məmmədova mühazirələrində Azərbaycan muğamının dünya musiqi xəzinəsindəki yeri, bu sənətin UNESCO tərəfindən bəşəri irs nümunəsi kimi tanınması, həmçinin muğamın müasir ifaçılıq və bəstəkarlıq məktəblərindəki rolu barədə məlumat verib.

Ustad dərslər çərçivəsində tanınmış Azərbaycan bəstəkarları Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov və digər sənətkarların yaradıcılığına da xüsusi yer ayrılıb, dərslər interaktiv sual-cavab sessiyaları ilə müşayiət olunub.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü Yadigar Məmmədliyə anası

**GÜLSÜM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Asəf Həsənov, Cavid Xaspoladov, Sadiq Gözəlov, Afiyəddin Quliyev və Yadigar Məmmədli tələbə yoldaşları Fikrət Adıgözəlliyə atası, Əməkdar jurnalist

**İLYAS ADIGÖZƏLLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Asəf Həsənov, Cavid Xaspoladov, Sadiq Gözəlov, Afiyəddin Quliyev və Fikrət Adıgözəlli tələbə yoldaşları Yadigar Məmmədliyə anası

**GÜLSÜM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədova qardaşı

**SAAT SAATOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Mais Bərxudarova atası

**ŞÜKÜR BƏRXUDAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3824
SİFARİŞ 1130
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00